RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 150 (10170) 21 avqust 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Xalqın Lideri, uşaqların böyük dostu

## Humanizm Prezident İlham Əliyevin həyat qayəsidir

Bir Prezident, Ali Baş Komandan və xalqının vətənpərvər oğlu olaraq İlham Əliyev hər zaman Azərbaycanın təəssübünü çəkib, bu uğurda dünya güclərinin qərəzli yanaşmaları ilə qarşılaşsa da, haqq yolundan dönməyib. Qarşıda duran ağır sınaqlara, keşməkeşli günlərə baxmayaraq, onun qətiyyəti və xalqına olan sevgisi bütün çətinlikləri üstələyib. Bu mübarizənin mərkəzində isə hər zaman böyük bir inam dayanıb. Qarabağ və Şərqi Zəngəzur mütləq azad olunacaq!

Dövlət başçısı işğal illərində keçmiş məcburi köçkünlərin yanında olmağı, onların mənzil-məişət problemlərini həll etməyi özü üçün, sadəcə, bir vəzifə deyil, mənəvi borc saymışdı. Bayramlarda, özəl günlərdə, hətta adi vaxtlarda belə həmin insanlarla görüşmək, onların qayğıları ilə şəxsən maraqlanmaq bir ənənəyə çevrilmişdi. Bütün bu görüşlərdə verilən tək bir qəti vəd var idi: "Siz mütləq öz dədə-baba yurdlarınıza qayıdacaqsınız".

Artıq o vəd gerçəkləşib. Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edən qurucu lider tez-tez işğaldan azad olunmuş ərazilərə səfər edir, yeni bünövrələr qoyur, bərpaolunan kənd və şəhərlərimizin ilk sakinləri ilə görüşür. İndi həmin görüşlərdə daha vətən nisgili, torpaq həsrəti yoxdur. İndi o söhbətlərdə yalnız qürur, bir də öz yurduna qayıtmağın böyük bəxtəvərliyi yaşanır.

İllərdir çəkilən həsrətin bitdiyi, mənəvi yaraların sarındığı bu anlar Prezidentlə xalq arasında tamamilə yeni, daha səmimi bir ünsiyyət mühiti yaradır. Dövlət başçısının hər bir kəndə, hər bir evə addım basması sakinlər üçün təkcə bir görüş deyil, həm də xilas və quruculuq müjdəsinin yenidən yaşanan sevincidir.

8

# Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2027-ci ilin yanvar ayında Azərbaycanın görkəmli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 130 illiyi tamam olur.

Yüksək amallara və humanist ideallara sadiq əsl vətənpərvər ziyalı kimi Əziz Əliyev şərəfli bir ömür yolu keçmiş və gələcək nəsillər üçün xalqa xidmətin parlaq nümunəsini yaratmış nadir şəxsiyyətlərdəndir. O, ən müxtəlif məsul vəzifələrdə çalışarkən milli təəssübkeşlik hissi ilə daim dövlət quruculuğu və idarəçiliyin təkmilləşdirilməsi istiqamətində olduqca səmərəli fəaliyyət göstərmişdir. Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin dövrün standartlarına uyğun formalaşdırılmasında və bu sahədə yetkin milli kadrların hazırlanmasında Əziz Əliyevin müstəsna rolu vardır. Əziz Əliyev İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyəti ilə seçilən bir sıra mühüm işlərə böyük uğurla rəhbərlik etmişdir. O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında xüsusi xidmətlərini nəzərə alaraq dövlət və elm xadimi, professor Əziz Əliyevin 130 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2026-cı il*

# Rusiyanın informasiya məkanında anti-Azərbaycan ritorikası qəbuledilməzdir




2026-cı ilin iyul və avqust aylarında yayımlanan müxtəlif proqramlarda Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə çağırışlarının olması, dövlətin konstitusiya quruluşuna, ərazi bütövlüyünə qarşı qəbuledilməz ssenarilərin müzakirə edilməsi və milli ədavətin qızışdırılmasına xidmət edən tezislərin irəli sürülməsi dərin narahatlıq doğurur. Bu cür hədyanlar və gərginlik yaradan ritorika dövlətlərarası münasibətlərin ruhuna zidd olmaqla yanaşı, iki qonşu ölkə arasında illərlə formalaşmış tərəfdaşlıq mühitinə də ciddi xələl gətirir. Rusiya mediasında fəaliyyət göstərən bəzi ekspert, aparıcı və rəsmi şəxslərin ifadə etdiyi fikirlər siyasi tənqid çərçivəsindən tamamilə kənara çıxır.

İvan Knyazev, Semyon Uralov və Aleksey Çadayev kimi şəxslərin qatıldığı verilişlərdə Azərbaycanı "Ukrayna ssenarisi" ilə hədələmək, ölkənin parçalanması imkanlarını müzakirə etmək və hətta fiziki zorakılıq elementləri ehtiva edən təxribatçı fikirlər səsləndirmək, sadəcə, fərdi rəy hesab edilə bilməz. Bu cür yanaşmalar cəmiyyətlər arasında dostluq, qarşılıqlı etimad və sabitlik mühitini birbaşa zədələyir.

9

# İnnovativ texnologiyaların tətbiqi məqsədilə...

Azərbaycan Mühəndislik Akademiyası ilə "AzərEnerji" ASC arasında elmi-texniki əməkdaşlığın genişləndirilməsi və enerji sektorunda innovativ texnologiyaların tətbiqi məqsədilə əməkdaşlıq müqaviləsi imzalanıb.

Akademiyadan AZƏRTAC-a bildirilib ki, müqavilə enerji sahəsində elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsini, müasir texnologiyaların və innovativ həllərin istehsalat proseslərinə tətbiqini, elmi-tədqiqat nəticələrinin praktiki fəaliyyətə inteqrasiyasını nəzərdə tutur. Bu məqsədlə hər iki təşkilatın mütəxəssisləri istilik elektrik stansiyalarında (İES) birgə görüşlər keçirib, problemlərlə yerindəcə tanış olub və müzakirələr aparıblar. Əsas məsələlərdən biri kimi İES-də ətraf hava mühitinin keyfiyyət indeksini təmin edən parametrlərə nəzarət sisteminin işlənməsi və eləcə də yüksəkgərginlikli transformatorların soyutma yağına nəzarət sisteminin yaradılması və onların vahid mərkəzin nəzarət sisteminə qoşulmasını təmin etməkdən ibarətdir. Görüşdə birgə faydalı əməkdaşlığın Azərbaycanın enerji sektorunda mövcud elmi potensialın və innovasiya imkanlarının daha səmərəli istifadəsinə, eləcə də elmi-tədqiqat nəticələrinin praktik tətbiqinin genişləndirilməsinə mühüm töhfə verəcəyi vurğulanıb.



Sənəd "AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev və Azərbaycan Mühəndislik Akademiyasının prezidenti akademik Arif Paşayev tərəfindən imzalanıb.

# Azərbaycan Avropanın alternativsiz tərəfdaşıdır



Regionda yaranmış bu yeni reallıqlar Avropa qitəsinin Azərbaycana baxış bucağını və strateji yanaşmasını da əsaslı surətdə transformasiyaya uğradıb. Başlanğıcda bəzi Avropa institutları tərəfindən müşahidə olunan qeyri-obyektiv və stereotipik yanaşmalar dəyişərək onları Bakının nümayiş etdirdiyi qətiyyətli iradə, transmilli layihələrin reallaşdırılmasındakı mərkəzi rolu və "Şərq-Qərb" nəqliyyat koridorundakı əvəzolunmaz mövqeyi qarşısında reallıqla barışmaq məcburiyyəti halına gətirib çıxarıb. İndi Avropa Azərbaycanı təkcə resurs tədarükçüsü kimi deyil, Cənubi Qafqazın sabitliyini təmin edən, Mərkəzi Asiya ilə Avropa arasında strateji körpü rolu oynayan müstəqil, suveren və sarsılmaz bir tərəfdaş kimi qəbul edir. Bu pozitiv dinamikaya baxmayaraq, Avropa Parlamentinin və Avropa Şurası Parlament Assambleyasının ayrı-ayrı dövrlərdə qəbul etdiyi qərəzli və birtərəfli qətnamələr beynəlxalq hüququn obyektivlik və neytrallıq prinsiplərinə zidd olmaqla, geosiyasi təzyiq xarakteri daşıyır. Aydındır ki, sözügedən siyasi təsisatların tövsiyə xarakterli və icrası məcburi olmayan bu cür təşəbbüsləri müasir beynəlxalq münasibətlərin praqmatik reallıqları fonunda tamamilə uğursuz cəhdlərdən ibarətdir.

9

## "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin Əsasnaməsi"nin və strukturunun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli 607 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin Əsasnaməsi" təsdiq edilsin *(Əlavə olunur)*.

2. "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin strukturu" təsdiq edilsin *(əlavə olunur)*.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Mərkəzi icra hakimiyyəti orqanları, nizamnamələrinə əsasən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər hazırladıqları mikro, kiçik və orta sahibkarlıq, investisiya və ixrac fəaliyyətinə təsir edəcək normativ hüquqi aktların layihələrinin normayaratma orqanına təqdim edilməzdən əvvəl "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 46-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi ilə razılaşdırılmasını, mərkəzi icra hakimiyyəti orqanları isə həmçinin qeyd olunan sahədə özlərinin qəbul etdikləri normativ hüquqi aktların həmin Agentliklə razılaşdırılmaqla qəbul olunmasını təmin etsinlər.

5. Bu Fərman 2026-cı il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2026-cı il*

## "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, turizm bazarında rəqabətqabiliyyətli turizm məhsullarının təqdim edilməsi, turizm sahəsində idarəetmənin və tənzimləmənin təkmilləşdirilməsi, regionlarda turizmin inkişafının təşviq edilməsi, effektiv brendinq və marketinq fəaliyyətinin təşkili məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1. altı ay müddətində Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təklifləri əsasında "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi;

2.1.2. üç ay müddətində:

2.1.2.1. turizm fəaliyyəti ilə bağlı layihələrə investisiya təşviqi sənədinin verilməsi və turizm fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla investisiya təşviqi sənədinin verilməsi mexanizminin təkmilləşdirilməsi;

2.1.2.2. Dövlət Proqramının 8.8.1.3-cü abzasında və 8.8.2-ci yarımbəndində nəzərdə tutulmuş dövlət büdcəsi hesabına verilən subsidiya şərtlərinə dair;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi hava nəqliyyatının turizmin inkişafına töhfəsinin artırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

6. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2026-cı il*

## "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli 607 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli 607 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 45 (Cild I); 2024, № 5 (I kitab), maddə 504; 2025, № 6, maddə 541) 2-ci hissəsinin on birinci abzasında "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddələr 1018, 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123, 125; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli 689 nömrəli, 25 iyun tarixli 697 nömrəli, 28 iyul tarixli 743 nömrəli və 30 iyul tarixli 746 nömrəli fərmanları) 1.41-ci bəndində "Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" sözləri "Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

3. "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli 1771 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2339 (Cild I) 2-ci və 3-cü hissələri ləğv edilsin.

4. "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771, № 11, maddələr 1018, 1025, № 12 (I kitab), maddə 1152) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci və 3-cü hissələr, 6.12-ci, 6.13-cü, 6.16-cı, 7.2-ci və 9.5-ci bəndlər ləğv edilsin;

4.2. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5.Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan reyestrin operatoru funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi (bundan sonra - Agentlik) həyata keçirir.";

4.3. həmin Fərmanla təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 4-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 3-cü bəndində "Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun" sözləri "Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin" sözləri ilə əvəz edilsin.

5. "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2608; 2021, № 7, maddə 745, № 12, maddə 1416)2-ci,3-cü hissələri və 5.3-cü bəndi ləğv edilsin.

6. "Vahid "G2B" (dövlət-biznes) elektron reyestrinin təşkili və fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 may tarixli 687 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 839 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənddə "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin;

6.2. 3.1-ci və 4.2-ci bəndlərdə "Respublikası Kiçik və Orta Biznesin İnkişafı" sözləri "Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 865 (Cild I) ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası"nın 1.3-cü bəndində "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

8. "Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 768 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1216 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci hissədə "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin;

8.2. 3.2-ci bənddə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 8.2-ci bəndində nəzərdə tutulan reyestr" sözləri "mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1590 (Cild I); 2025, № 2, maddə 119) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"na aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi və onun regional bölmələri.".

10. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli, 22 iyul tarixli 730 nömrəli və 30 iyul tarixli 746 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 21-ci və 21-4-cü hissələri ləğv edilsin.

11. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597 (Cild I); 2025, № 2, maddələr 110, 119, № 3, maddə 233) 1-ci hissəsində "5402" rəqəmləri "5772" rəqəmləri ilə əvəz olunsun və həmin hissəyə "376 ştat vahidi" sözlərindən sonra ", Nazirlik yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin Aparatı işçilərinin say həddi 291 ştat vahidi, regional bölmələri işçilərinin say həddi 79 ştat vahidi" sözləri əlavə edilsin.

12. "Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun fəaliyyətinin təmin edilməsi və "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyul tarixli 1411 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 745) 1-3-cü hissələri ləğv edilsin.

13. "e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin2021-ci il 9 avqust tarixli 1415 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 907 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

13.1. 3-cü hissədə "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin;

13.2. həmin Fərmanla təsdiq edilmiş "e-KOB evi" portalı haqqında Əsasnamə"nin 1.5-ci bəndinin birinci cümləsində "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

14. "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 dekabr tarixli 1482 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1347 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

14.1. 2-ci hissədə "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin;

14.2. həmin Fərmanla təsdiq edilmiş "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası"nın 1.3.3-cü yarımbəndində "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli 1905 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1415 (Cild I); 2025, № 2, maddə 136, № 8, maddə 760) ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

15.1. 2.1.2-ci yarımbənddə "Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi (bundan sonra - səlahiyyətli qurum)" sözləri ilə əvəz edilsin;

15.2. 2.1.3-cü yarımbənddə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" sözləri "səlahiyyətli qurum" sözləri ilə əvəz edilsin;

15.3. 4.2-ci bəndin birinci cümləsində "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (bundan sonra - səlahiyyətli qurum)" sözləri "səlahiyyətli quruma" sözləri ilə əvəz edilsin;

15.4. həmin Nümunəvi Əsasnaməyə 3 nömrəli əlavədə "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

16. "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 89 (Cild I) 1.4-cü bəndində "Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" sözləri "Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

17. "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli 60 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (I kitab), maddə 512) aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2-ci hissədə və 4.2-ci bənddə "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin;

17.2. həmin Fərmanla təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə"nin 1.7-ci bəndində "Kiçik və Orta Biznesin İnkişafı" sözləri "İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi" sözləri ilə əvəz edilsin.

18. "Invest in Azerbaijan" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 6 noyabr tarixli 521 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 11, maddə 1019) aşağıdakı dəyişikliklər edilsin:

18.1. 4.2-ci bənddə "Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO" sözləri "Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi" sözləri ilə əvəz edilsin;

18.2. həmin Fərmanla təsdiq edilmiş "Invest in Azerbaijan" informasiya sistemi haqqında Əsasnamə" üzrə:

18.2.1. 1.6-cı bənddə "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun (bundan sonra - AZPROMO) vəsaiti" sözləri "dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr" sözləri ilə əvəz edilsin;

18.2.2. 3.2-ci bənddə "AZPROMO" akronimi "Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi (bundan sonra - Agentlik)" sözləri ilə əvəz edilsin;

18.2.3. 3.3-cü bənddə "AZPROMO-ya" sözü "Agentliyə" sözü ilə əvəz edilsin.

19. "Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 560 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12(I kitab), maddə 1151) 1-ci hissəsindən "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi," sözləri çıxarılsın.

20. "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1155) 1-ci hissəsindəki cədvəlin 1.11.6.12-ci abzasında "Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO" publik hüquqi şəxs" sözləri "Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi" sözləri ilə əvəz edilsin.

21. "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli 607 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 2, maddə 126) aşağıdakı dəyişikliklər edilsin:

21.1. 1-ci hissədə birinci halda "İnvestisiyaların və İxracın" sözləri "İxracın və İnvestisiyaların" sözləri ilə əvəz edilsin;

21.2. 2-ci hissədə və 4.1.2.2-ci abzasda "qeyri-neft (qaz)" sözləri "qeyri-neft-qaz" sözləri ilə əvəz edilsin.

22. Bu Fərman 2026-cı il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi (bundan sonra - Agentlik) mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, qeyri-neft-qaz sektoru üzrə investisiyaların və ixracın təşviqi istiqamətində fəaliyyət göstərən, sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında iştirak edən, dövlət orqanlarının (qurumlarının) və sahibkarların bu sahədə xidmətlərini əlaqələndirən (bundan sonra - müvafiq sahə) Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6.Agentlik Bakı şəhərində yerləşir.

## 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahənin inkişafının, rəqabət qabiliyyətinin artırılmasının və davamlı əlverişli mühitin formalaşdırılmasının dəstəklənməsində iştirak etmək;

2.1.3. müvafiq sahəni tənzimləyən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

2.1.4. müvafiq sahədə dövlət dəstəyi tədbirlərinin və mexanizmlərinin həyata keçirilməsi ilə bağlı işlər görmək;

2.1.5. müvafiq sahədə sahibkarların, o cümlədən investorların və ixracatçıların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üzrə tədbirlər həyata keçirmək;

2.1.6. müvafiq sahədə dövlət orqanları (qurumları) və sahibkarlar tərəfindən göstərilən xidmətləri əlaqələndirmək, dövlət orqanlarının (qurumlarının) sahibkarlara, o cümlədən investorlara və ixracatçılara vahid məkanda xidmət göstərmələrini təşkil etmək;

2.1.7. "G2B"(dövlət-biznes) xidmətlərinin inkişaf etdirilməsində, keyfiyyətinin artırılmasında, habelə vahid "G2B" (dövlət-biznes) elektron reyestri əsasında göstərilməsinin və şəffaflığının təmin olunmasında iştirak etmək;

2.1.8. sahibkarların, o cümlədən investorların və ixracatçıların maarifləndirilməsi və potensialının gücləndirilməsi istiqamətində fəaliyyət göstərmək;

2.1.9.Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinin fəaliyyətini əlaqələndirmək;

2.1.10. müvafiq sahədə beynəlxalq və regional iqtisadi əməkdaşlığın inkişafına dəstək göstərmək;

2.1.11. bu Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının və inkişaf konsepsiyalarının, dövlət dəstəyi tədbirlərinin və mexanizmlərinin hazırlanmasında iştirak etmək və normativ hüquqi aktlarla müəyyən edildiyi halda həyata keçirilməsini təmin etmək;

3.1.3. müvafiq sahədə rəqəmsallaşmanın təşviqində, rəqəmsal reyestrlərin formalaşdırılmasında və rəqəmsal təhlil sistemlərinin yaradılmasında iştirak etmək;

3.1.4. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (bundan sonra - KOB subyektləri) rəqabət qabiliyyətliliyinin artırılması, o cümlədən qeyri-neft-qaz sektoru üzrə investisiyaların və ixracın təşviqi məqsədilə təhlillər aparmaq və onların əsasında dəstək tədbirlərinin həyata keçirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.5. KOB subyektlərinin inkişaf mərhələləri (startap, erkən inkişaf, genişlənmə, ixrac və s.) üzrə təsnifləşdirilməsini həyata keçirmək və hər bir seqment üçün hədəfli dəstək proqramları formalaşdırmaq;

3.1.6.vahid səlahiyyətli qurum qismində xarici investorların yerli bazara daxil olması, uyğunlaşması və fəaliyyətinin genişləndirilməsi üzrə xidmətlər göstərmək və müvafiq tədbirləri həyata keçirmək;

3.1.7. potensial investorların müəyyənləşdirilməsi, investisiyaların, o cümlədən prioritet sektorlar və hədəf bazarlar üzrə investorların cəlb edilməsi istiqamətində tədbirlər görmək;

3.1.8. investisiya təşəbbüslərinin, biznes layihələrinin və ixrac fəaliyyətinin həyata keçirilməsi vəziyyətini sistemli şəkildə təhlil etmək, onların reallaşdırılmasına mane olan amilləri müəyyən etmək və aradan qaldırılması ilə bağlı Nazirliyə aidiyyəti üzrə təkliflər təqdim etmək;

3.1.9. investisiya qoyuluşlarının genişləndirilməsi, reinvestisiya imkanlarının təşviqi və investisiya sonrası müşayiət xidmətlərinin göstərilməsi üzrə tədbirlər həyata keçirmək;

3.1.10. sahibkarlıq subyektlərinin, o cümlədən ixracatçıların institusional inkişafını dəstəkləmək, onların sahəvi assosiasiyalarda, ittifaqlarda və digər özünü tənzimləyən təşkilatlarda birləşməsini təşviq etmək, həmin təşkilatlarla əməkdaşlığı inkişaf etdirmək, habelə klaster əməkdaşlığının inkişafına və klasterlərin səmərəli fəaliyyətinin dəstəklənməsinə kömək göstərmək;

3.1.11. müvafiq sahədə beynəlxalq təşkilatlar, xarici dövlətlərin aidiyyəti qurumları, qlobal şəbəkələr, ikitərəfli və çoxtərəfli biznes şuraları və ticarət palataları ilə əməkdaşlığı və fəaliyyətin əlaqələndirilməsini təmin etmək, bu çərçivədə mütərəqqi beynəlxalq təcrübənin tətbiqinə dəstək göstərmək;

3.1.12. yerli sahibkarlıq subyektlərinin regional və qlobal dəyər zəncirlərinə inteqrasiyasını təşviq etmək, onların beynəlxalq istehsal və təchizat şəbəkələrində iştirakının genişləndirilməsi üzrə tədbirlər həyata keçirmək;

3.1.13. sahibkarlıq subyektlərinin, o cümlədən ixracatçıların ixtisaslı kadr ehtiyacının ödənilməsinə dəstək göstərmək, sənaye-təhsil əməkdaşlığı platformalarını inkişaf etdirmək və müvafiq sahədə insan kapitalının rəqabət qabiliyyətliliyinin artırılması üçün stimullaşdırıcı tədbirlər görmək;

3.1.14. sahibkarlıq subyektlərinin, o cümlədən ixracatçıların və startapların kreditlərə, investisiyalara, qrantlara, digər alternativ maliyyə resurslarına və dəstək kapitalına çıxışının asanlaşdırılması, maliyyə alətlərinin təkmilləşdirilməsi barədə Nazirliyə təkliflər vermək, yerli və xarici maliyyə institutları (maliyyə-kredit təşkilatları) ilə əməkdaşlıq etmək, habelə alternativ maliyyə mexanizmlərinin formalaşdırılmasında iştirak etmək;

3.1.15. Azərbaycan Respublikası üzərindən beynəlxalq ticarətin və logistika fəaliyyətinin sahibkarlar üçün sadələşdirilməsi, əlçatanlığının artırılması və daha əlverişli biznes mühitinin yaradılması məqsədilə Nazirliyə təkliflər vermək və müvafiq tədbirlərin həyata keçirilməsində iştirak etmək;

3.1.16. gənclər, qadınlar, əlilliyi olan şəxslər və sosial baxımdan həssas digər əhali qrupları arasında sahibkarlıq fəaliyyətini təşviq etmək və inklüziv biznes təşəbbüslərini dəstəkləmək;

3.1.17. regionlarda iqtisadi aktivliyin artırılmasını, yerli resursların dövriyyəyə cəlb edilməsini, regional klasterlərin yaradılmasını və sahibkarlıq infrastrukturunun inkişafını dəstəkləmək, ağıllı ixtisaslaşma yanaşmasını tətbiq etmək;

3.1.18. müvafiq sahədə daxili və xarici bazar konyunkturunu təhlil etmək, strateji proqnozlaşdırma aparmaq və tətbiq edilən dəstək mexanizmlərinin sosial-iqtisadi təsirini təhlil etmək, sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə dair normativ hüquqi aktların, habelə onların layihələrinin KOB subyektlərinin, ixracatçıların və investorların fəaliyyətinə mümkün təsirinin qiymətləndirilməsini aparmaq;

3.1.19. qeyri-neft-qaz sektoruna investisiyaların cəlb edilməsini, digər dövlət orqanları (qurumları) ilə əlaqəli şəkildə ölkə üzrə mövcud investisiya aktivlərini əhatə edən dövlət informasiya ehtiyatının yaradılmasını və bunun investor sorğuları ilə əlaqələndirilməsini təmin etmək;

3.1.20. potensial xarici investorlarla sorğular keçirmək və həmin sorğuların nəticələrinin təhlili əsasında Nazirliyə təkliflər təqdim etmək;

3.1.21. yüksək əlavə dəyərli məhsulların (o cümlədən innovasiya məhsullarının) və xidmətlərin ixracının genişləndirilməsi, ixrac coğrafiyasının və məhsul çeşidlərinin şaxələndirilməsi üzrə tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

3.1.22. dövlət orqanlarının (qurumlarının) "G2B" (dövlət-biznes) xidmətlərinin vahid "G2B" (dövlət-biznes) elektron reyestrinə daxil edilməsi ilə bağlı rəy vermək, həmin xidmətlərin monitorinqində, qiymətləndirilməsində və reytinqinin müəyyənləşdirilməsində iştirak etmək, reyestrdən kənar göstərilən "G2B"(dövlət-biznes) xidmətlərinin ləğvi və ya reyestrə daxil edilməsi ilə bağlı təşəbbüsləri aidiyyəti üzrə təqdim etmək;

3.1.23. sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin və dövlət dəstəyinin səmərəliliyini qiymətləndirmək və nəticələri barədə hesabatları Nazirliyə təqdim etmək, o cümlədən dövlət dəstəyinin səmərəliliyinin artırılması istiqamətində təhlillər aparmaq və onların nəticələri əsasında təklifləri Nazirliyə təqdim etmək;

3.1.24. KOB subyektləri, ixracatçılar və investorların rəyinin öyrənilməsi ilə bağlı tədbirlər görmək, mövcud problemlər və çatışmazlıqlar üzrə hesabatlar hazırlamaq, onların aradan qaldırılması ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.25. beynəlxalq reytinqlərdə müvafiq sahə üzrə ölkənin mövqeyinin yaxşılaşdırılması ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.26. sahibkarların maraqlarının qorunması sahəsində səlahiyyətli qurum qismində onların müraciətlərinə baxmaq, problemlərinin çevik həlli ilə bağlı tədbirlərin görülməsini təmin etmək, dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, digər şəxslər qarşısında sahibkarların hüquqlarını və qanuni mənafelərini məhdudlaşdıran (pozan) qərarlar, hərəkət və ya hərəkətsizliklə bağlı məsələ qaldırmaq, sahibkarların fəaliyyəti ilə əlaqədar yaranan mübahisələrin həlli üçün müvafiq tədbirlər görülməsini təmin etmək;

3.1.27. sahibkarlıq subyektlərinin, habelə startapların klasterlər, sənaye və texnologiya parkları, xüsusi iqtisadi zonalar, sənaye məhəllələri, aqroparklar, biznes inkubatorları və digər dəstək infrastrukturları sahəsində fəaliyyətinə dəstək göstərilməsində və əlaqələndirməsində iştirak etmək;

3.1.28. "yaşıl KOB"ların (ətraf mühitə mənfi təsirin azaldılması, resurs səmərəliliyi və dayanıqlı istehsal prinsiplərini tətbiq edən "KOB" subyektləri), qeyri-neft-qaz sektoruna yaşıl investisiyaların (ətraf mühitin qorunmasına, iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına və resurs səmərəliliyinin artırılmasına yönələn investisiyalar), resurs səmərəliliyini və aşağı karbonlu istehsalı təşviq edən layihələrin cəlb olunmasına, habelə investisiya təşəbbüslərinin dayanıqlılıq və beynəlxalq ekoloji, sosial və korporativ idarəetmə yanaşmalarına uyğun inkişafına dair təklifləri Nazirliyə təqdim etmək və aidiyyəti tədbirləri əlaqələndirmək;

3.1.29. KOB subyektlərinin, ixracatçıların və investorların fəaliyyəti ilə bağlı normativ hüquqi aktlar barədə izahedici və məlumatlandırıcı yenilikləri media vasitəsilə mütəmadi olaraq təqdim etmək;

3.1.30. xarici ölkələrdə Azərbaycan Respublikasında istehsal olunan məhsulların və yerli biznes maraqlarının təşviqi məqsədilə ticarət evlərinin, biznes əlaqələndirmə platformalarının və digər institusional təmsilçilik mexanizmlərinin yaradılması barədə Nazirliyə təkliflər vermək, diaspor təşkilatları, beynəlxalq biznes şəbəkələri ilə və xarici tərəfdaş qurumlarla əməkdaşlıq mexanizmlərini inkişaf etdirmək;

3.1.31. Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinin fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı tədbirlər həyata keçirmək;

3.1.32. qeyri-neft-qaz məhsulları üzrə idxal-ixrac əməliyyatlarına dair statistik məlumatları aidiyyəti dövlət orqanlarından (qurumlarından) əldə etmək, həmin məlumatlar əsasında təhlillər və monitorinqlər aparmaq, qeyri-neft-qaz ixracına dair dövri analitik icmallar hazırlayaraq dərc etmək;

3.1.33. sahibkarlıq subyektlərinin məhsuldarlığının artırılması, biznes proseslərinin təkmilləşdirilməsi, rəqəmsal transformasiya, innovasiya idarəetməsi və beynəlxalq standartlara uyğun institusional inkişafı istiqamətində metodoloji, məsləhət və əlaqələndirmə dəstəyi üzrə tədbirlər görmək;

3.1.34. innovativ KOB subyektlərinin müəyyən olunmasını və inkişafını, onların texnoloji yeniliklərdən faydalanma bacarıqlarının artırılmasını dəstəkləmək, innovasiya fəaliyyətinin inkişafı məqsədilə texnologiyalar parklarının, innovasiya mərkəzlərinin və digər texnoloji infrastrukturların imkanlarını KOB subyektləri arasında təşviq etmək;

3.1.35. təhsil, elm, investisiya və istehsalat sahələrinin qarşılıqlı fəaliyyətinin effektivliyinin artırılması, təhsil müəssisələrinin, eləcə də dövlət və özəl araşdırma təşkilatlarının innovasiya infrastrukturundan KOB subyektlərinin faydalanması, sənaye və təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi üçün tədbirlər görmək;

3.1.36. özəl sektorun və qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə birlikdə KOB subyektləri və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər, xüsusən də gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, bu sahədə ictimai iştirakçılıq sisteminin tətbiqi ilə bağlı tədbirlər görmək, habelə bu məqsədlə elm və təhsil müəssisələri ilə əməkdaşlıq edərək birgə proqramların həyata keçirilməsini, onlarla KOB subyektləri arasında əməkdaşlığın təşkilini təmin etmək;

3.1.37. KOB subyektlərinin, investorların və ixracatçıların maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə təlim, seminar, konfrans və digər tədbirləri, həmçinin məsləhət xidmətlərinin göstərilməsini, onların beynəlxalq mübadilə proqramlarında iştirakını təşkil etmək, bu məqsədlə biznes inkubatorlarının, biznes akseleratorlarının və biznesə dəstək mərkəzlərinin yaradılması istiqamətində tədbirlər görmək;

3.1.38. dövlət orqanlarının (qurumlarının) KOB subyektlərinə, ixracatçılara və investorlara vahid məkanda xidmət göstərmələrini təşkil etmək, əlaqələndirmək və xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun həyata keçirilməsinə nəzarət etmək, göstərilən xidmətlərin monitorinqini və qiymətləndirilməsini həyata keçirmək;

3.1.39. KOB subyektlərinə, ixracatçılara və investorlara dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin mərhələli şəkildə özəl sektor subyektləri tərəfindən həyata keçirilməsi mexanizmlərinə dair Nazirliyə təkliflər vermək;

3.1.40. KOB subyektlərinin, investorların və ixracatçıların inkişafına, fəaliyyətinin genişləndirilməsinə dəstək məqsədilə yaradılan işçi qruplara, komissiyalara dövlət orqanlarını (qurumlarını), aidiyyəti təşkilatları cəlb etmək, yaradılmış işçi qruplar və komissiyalar arasında əlaqələndirməni həyata keçirmək;

3.1.41. donor və qeyri-hökumət təşkilatları ilə, həmçinin beynəlxalq proqramlar üzrə əməkdaşlığı əlaqələndirmək, birgə təşəbbüsləri dəstəkləmək, onların təsirini təhlil etmək və gələcək əməkdaşlıq istiqamətləri üzrə təklifləri Nazirliyə təqdim etmək;

3.1.42. vahid səlahiyyətli qurum qismində ölkə daxilində və xaricdə prioritet sahələr üzrə beynəlxalq və yerli biznes tədbirlərinin (forum, sərgi və digər təşviq tədbirləri, işgüzar görüşlər və digər analoji platformalar) planlaşdırılmasını, təşkilini və əlaqələndirilməsini, habelə bu çərçivədə hədəf investorların və tərəfdaşların cəlb olunmasını, "B2B"(biznes - biznes) və "B2G"(biznes - dövlət) görüşlərinin təşkilini təmin etmək;

3.1.43. biznesi təmsil edən birliklərin inkişafına dəstək olmaq məqsədilə təklifləri Nazirliyə təqdim etmək və tədbirlərin həyata keçirilməsini təmin etmək;

3.1.44. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.45. normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək;

3.1.46. müvafiq sahədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.47. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.48. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.49. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.50. Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə, o cümlədən vəzifələrini yerinə yetirmək üçün ayrılan büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;

3.1.51. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək;

3.1.52. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.53. Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.54. müvafiq sahədə inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlər görmək;

3.1.55. müvafiq sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.1.56. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, fəaliyyət istiqamətləri üzrə əldə edilən büdcədənkənar vəsaitdən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.57. Agentliyin sistemində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi işini təşkil etmək;

3.1.58. müvafiq sahə üzrə statistik uçot aparılmasını təmin etmək;

3.1.59. Agentlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.60. fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.61. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

3.1.62. inzibati icraata dair fəaliyyətini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydaları daxilində və prinsiplər əsasında həyata keçirmək;

3.1.63. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Agentlik yanında İctimai Şura yaradılmasını təmin etmək;

3.1.64. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, səfərbərlik hazırlığının və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.1.65. bu Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Agentliyin hüquqları

4.1. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə hüquqi akt layihələrini hazırlayıb Nazirliyə təqdim etmək;

4.1.2. müvafiq sahədə islahatlar aparılmasına dair Nazirliyə təkliflər vermək;

4.1.3. Azərbaycan Respublikasının investisiya və ixrac potensialının, habelə Agentliyin fəaliyyətinin ölkə daxilində və beynəlxalq səviyyədə təşviqi məqsədilə "EnterprisePromotion" brendindən istifadə etmək, o cümlədən kommunikasiya vasitələrində Agentliyi bu adla təqdim etmək;

4.1.4. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirlik qarşısında təşəbbüslə çıxış etmək;

4.1.5. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.6. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.7. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

4.1.8. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

4.1.9. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün Nazirliyə təkliflər vermək;

4.1.10. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi şirkətləri və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.11. xüsusi bülletenlərin və digər nəşrlərin buraxılması ilə bağlı Nazirliyə təkliflər vermək;

4.1.12. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada müvafiq sahədə aparılan yoxlamalarda müşahidəçi kimi iştirak etmək;

4.1.13. sahibkarların hüquqlarını və qanuni mənafelərini məhdudlaşdıran (pozan) hərəkətlərin dayandırılmasının dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, digər şəxslərdən tələb edilməsi ilə bağlı Nazirlik qarşısında məsələ qaldırmaq;

4.1.14. vətəndaşlara xidmət, sosial innovasiya, habelə sahibkarlara, o cümlədən investorlara və ixracatçılara dəstək istiqamətində mövcud infrastruktur və şəbəkədən əlaqələndirilmiş şəkildə istifadə etmək;

4.1.15. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.16. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

4.1.17. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

4.1.18. bu Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edilən direktor (bundan sonra - direktor) rəhbərlik edir. Direktor Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.2. Direktorun Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən, direktorun təqdimatı əsasında, vəzifəyə təyin və vəzifədən azad edilən dörd müavini vardır. Direktorun müavinləri onlara direktorun həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.3. Direktor:

5.3.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.3.3. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;

5.3.4. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, regional bölmələrinin və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir, habelə Agentliyin struktur bölmələrinin əsasnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.3.5. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentlik işçilərinin vəzifə maaşlarına qanunla müəyyən olunan əlavələrin və digər ödənişlərin verilməsini təmin edir;

5.3.6. Agentliyin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər verir;

5.3.7. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.3.8. direktorun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.3.9. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul edilmiş hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;

5.3.10. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.3.11. Agentliyin fəaliyyəti, o cümlədən digər mənbələrdən daxil olan vəsaitin xərclənməsi barədə rübdə bir dəfə Nazirliyə hesabat verir;

5.3.12. müvafiq sahədə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən Biznes Məşvərət Şurasının yaradılması barədə Nazirliyə təklif verir;

5.3.13. bu Əsasnamədə göstərilən və normativ hüquqi aktlara uyğun digər səlahiyyətləri həyata keçirir.

5.4. Direktor öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.5. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin strukturu

1. Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin Aparatı.
2. Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin regional bölmələri.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı

**1. Qısa xülasə**

"Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) turizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsi, regionların rəqabət qabiliyyətinin artırılması və Azərbaycanın beynəlxalq turizm məkanı kimi mövqeyinin möhkəmləndirilməsi məqsədilə hazırlanmışdır.

Dövlət Proqramında müəyyən olunmuş hədəflərin reallaşdırılması üçün turizm sahəsində strateji çərçivənin inkişaf etdirilməsi, digər sahəvi siyasətlərin turizm siyasəti ilə uzlaşdırılması, dayanıqlı keyfiyyət təminatı sisteminin qurulması, cəlbedici təşviq mexanizmlərinin formalaşdırılması, tənzimləmə alətlərinin təkmilləşdirilməsi, brendinq, marketinq və kommunikasiya işinin gücləndirilməsi, rəqəmsallaşma imkanlarının genişləndirilməsi, statistika və kadr bazasının möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi müəyyən edilmişdir.

Dövlət Proqramının icrası nəticəsində Azərbaycan Respublikasının turizm sahəsinin regional və qlobal rəqabət qabiliyyətinin gücləndirilməsi, dayanıqlılıq prinsipləri əsasında müxtəlif turizm növləri üzrə keyfiyyətli turizm təcrübəsi təqdim edən müəyyən coğrafi ərazidə yerləşmə, nəqliyyat, infrastruktur, əyləncə və digər xidmətlərin vahid şəkildə göstərildiyi turizm məkanına (bundan sonra - destinasiyaya) çevrilməsi, turizm sektorunun sosial-iqtisadi inkişafa, o cümlədən ÜDM-in artımına, məşğulluğa və qeyri-neft-qaz ixracına töhfəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi nəzərdə tutulmuşdur.

**2. Qlobal trendlər**

Dövlət Proqramı üzrə strateji çərçivənin müəyyən edilməsi üçün turizm sahəsində müşahidə olunan aşağıdakı yeni qlobal trendlər və turizm siyasəti istiqamətləri xüsusi aktuallıq kəsb edir:

**2.1. böhranlara davamlılıq.** Son 5 il ərzində geosiyasi gərginliklərə və qlobal miqyaslı təhdidlər yaradan hərbi münaqişələrin baş verməsinə baxmayaraq, beynəlxalq turist səfərlərinin dinamikası davamlılıq nümayiş etdirərək, orta hesabla hər il təxminən 5 faiz artmışdır. 2025-ci ildə dünya üzrə beynəlxalq turist səfərlərinin sayı əvvəlki ilə nisbətən 4 faiz artaraq 1.52 milyard nəfər olmuşdur ki, bu da COVID-19 pandemiyasından əvvəlki 2019-cu il göstəricisindən 7.5 faiz çoxdur.

Turizm sahəsinin böhranlara davamlılığını təmin etmək məqsədilə müxtəlif üsullardan (çoxdilli rəqəmsal alətlərdən, çevik marketinq və kommunikasiya kampaniyalarından, turizm fəaliyyətləri üzrə birbaşa maliyyə dəstəyi və təşviq proqramlarından, kütləvi turizmdən asılılığın azaldılması məqsədilə xüsusi qruplardan ("niş turizmi" - müəyyən maraq və ehtiyac əsasında məhdud hədəf auditoriyaya yönəlmiş, ixtisaslaşmış turizm məhsul və xidmətlərinin təqdim edilməsini nəzərdə tutan turizm növü) üçün sağlamlıq və müalicə turizmi də daxil olmaqla müxtəlif, eləcə də digər alternativ turizm növlərinin inkişaf etdirilməsi, daxili turist səfərlərinin stimullaşdırılması) istifadə edirlər. Tələb əsaslı turizm marketinq siyasətinin formalaşdırılması məqsədilə hədəf bazarlar öyrənilərək, hər bir bazarın xüsusiyyətlərinə uyğun marketinq kampaniyaları yaradılır, viza sadələşdirilməsi və liberallaşması, hava əlaqəsi coğrafiyasının genişləndirilməsi ilə bağlı tədbirlər icra edilir;

**2.2. istehlakçı davranışı.** Turistlərin səfər seçimində ənənəvi yanaşmalar öz təsirini saxlamaqdadır. Belə ki, mədəni irslə və təbiətlə əlaqədar turizm təcrübələrinə meyillilik və "təkbaşına" ("solo") səfərlərin payı artsa da, səyahət edənlərin seçimlərində günəş və dəniz, şəhər təcrübəsi, işgüzar görüşlərdə iştirak, alış-veriş və yaxınları ziyarət əsas motiv kimi üstünlük təşkil edir. Digər tərəfdən, təhsil və rifah səviyyəsinin yüksəlməsi ilə daha təcrübəli və yüksək keyfiyyət tələb edən turist qrupu formalaşır. Səyahət planlaşdırılmasında və qərar qəbul etmədə rəqəmsal vasitələr əsas rol oynayır. Əhalinin yaşlanması və orta iş saatlarının azalması ilə yaşlı və subay insanlar, uşaqsız ailələr daha çox asudə vaxt və maliyyə imkanları olan əsas səyahətçi qruplarına çevrilir. Pandemiyadan sonrakı dövrdə (2022-ci ildən etibarən) məsafədən iş rejiminin yayılması daha aşağı xərc və yüksək həyat keyfiyyəti təklif edən yerlərdə uzunmüddətli qalmağı seçən yeni "rəqəmsal səyyah" turist seqmenti yaratmışdır.

Azərbaycanda ənənəvi turizm seçimləri üstünlük təşkil etsə də, yaxın perspektivdə yeni turist seqmentlərinin (yaşlı və subay insanlar, uşaqsız ailələr, sağlamlıq məqsədilə səyahət edənlər və s.) formalaşacağı və onların turizm bazarında əhəmiyyətinin artacağı proqnozlaşdırılır;

**2.3. dayanıqlı inkişaf.** Son illərdə iqlim dəyişikliyinin mənfi nəticələrinin turistlərin seçiminə təsiri müşahidə edilir və dayanıqlı turizm yanaşması aktuallığını artırır. Bu baxımdan turizm sahəsində dayanıqlı enerji mənbələrindən istifadə, enerji səmərəliliyinə keçid, tullantıların dayanıqlı idarə edilməsi, karbon buraxılışının azaldılması və ya sıfırlanması, vətəndaşların elektrik avtomobillərindən istifadəsi, su sərfiyyatının azaldılması, su obyektlərinin, o cümlədən dənizin mühafizəsi, plastik materiallardan imtina, regenerasiya (ağacəkmə, ekosistemin bərpası və s. vasitələrlə təbii mühitin, yerli icmaların, mədəni irsin qorunmasına, eləcə də iqtisadiyyatın bərpasına və uzunmüddətli inkişafına töhfə verilməsi) və icma dəstək tədbirlərini həyata keçirmə əsas mövzular kimi diqqət çəkir. Əlavə olaraq, ekoloji təmiz məhsullardan istifadə, turistlərin təbiətə səfərlərinin yönləndirilməsi (hayking və trekinq (dağ piyada) səfərləri, milli parklara səyahət), kəndlərdə kiçik bizneslərin dəstəklənməsi, mədəni irs obyektlərinə ziyarətçi səfərlərinin nizamlanması, həmin obyektlərin bərpası və mühafizəsi, dayanıqlı asfalt örtüyünün, velosiped və piyada yollarının salınması da həlli vacib məsələlər kimi gündəliyə daxil edilir;

**2.4. innovasiya, texnologiya və rəqəmsallaşma.** Turizm sahəsində texnoloji yeniliklər (süni intellekt, böyük data, virtual reallıq və s.) müştəri təcrübəsini və xidmət keyfiyyətini inkişaf etdirərək sənayenin dayanıqlı və effektiv inkişafına töhfə verir. Xüsusilə, səyahət planlaşdırmasında fərdiləşdirilmiş tövsiyələrdən "chatbot"lar (istifadəçilərlə mətn və ya səs vasitəsilə qarşılıqlı əlaqə yaradan süni intellekt əsaslı proqram təminatları) vasitəsilə təkmilləşdirilmiş müştəri xidmətinə qədər süni intellektlə idarə olunan sistemlər əməliyyat səmərəliliyini artırır və turizm bizneslərini dəyişən tendensiyaya daha yaxşı uyğunlaşdırır.

Qlobal innovasiya, texnologiya və rəqəmsallaşma həllərinin Azərbaycan Respublikasının turizm sənayesində tətbiq edilməsi ölkənin turizm sahəsinin rəqabətqabiliyyətliliyinin artması üçün əlavə fürsətlər yaradır.

Ümumilikdə dünyada makroiqtisadi dalğalanmalar, geosiyasi gərginliklər, artan rəqabət, qeyri-səmərəli siyasi və idarəetmə çərçivəsi, iqlim dəyişiklikləri, rəqəmsal qeyri-bərabərlik, turizm məhsullarının çeşidinin və keyfiyyətinin aşağı olması, maliyyə resurslarına çıxışın və investisiyaların məhdudluğu, səyahət məhdudiyyətləri (xüsusilə nəqliyyat və viza məsələləri), mövsümilik, infrastrukturun zəif olması, gender bərabərsizliyi, xidmət standartlarının zəif tətbiqi, yerli icma və kənd yerlərinin inkişafı üçün turizmin effektiv istifadəsi problemləri əsas çağırışlar kimi müşahidə edilir.

Qeyd olunan çağırışları nəzərə almaqla, iqtisadi artım, dayanıqlı inkişaf, böhranlara davamlılıq, inklüzivlik və sosial məsuliyyət, ətraf mühitin mühafizəsi, tarix və mədəniyyət qoruqlarının təbliği, ziyarətçi təcrübəsi və məmnuniyyəti, texnoloji və regional inkişaf, beynəlxalq əməkdaşlıq və qlobal rəqabətlilik dövlətlərin turizm siyasətlərinin əsas məqsədləri kimi diqqət çəkir. Azərbaycan üçün qlobal turizm trendlərindən faydalanmaq ölkə ərazisində turizmin davamlı və dayanıqlı inkişafı, beynəlxalq rəqabətliliyin artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

**3. Mövcud vəziyyətin təhlili**

**3.1. Turizm sahəsində dövlət siyasətinin əsas istiqamətləri**

İqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf istiqamətində yaranan çağırışlar fonunda turizm sahəsinin inkişafı dövlətin iqtisadi siyasətində prioritet istiqamətlərdən biri kimi müəyyən edilmiş və onun həyata keçirilməsi üçün aşağıdakı istiqamətlər əsas olmaqla kompleks tədbirlər görülmüşdür.

İnstitusional inkişaf və strateji planlamanın keyfiyyətinin artırılması tədbirləri çərçivəsində milli və regional səviyyədə turizmin inkişafı ilə bağlı yeni strateji çərçivələr və institutlar yaradılmış, turizm siyasəti dövlətin digər sahəvi siyasətləri ilə uzlaşdırılmış, yerli səviyyədə tarix və mədəniyyət qoruqlarının idarə edilməsi sahəsində islahatlar həyata keçirilmişdir. Həmçinin turizm xidmətləri sahəsində standartlaşma və sertifikatlaşdırma istiqamətində idarəetmə mexanizmlərinin formalaşdırılması, turizm sahəsində dövlət-sənaye şəbəkələşməsinin dəstəklənməsi ilə bağlı əhəmiyyətli addımlar atılmış, turizm statistikasının keyfiyyətinin və yayım tezliyinin yaxşılaşdırılması, turizm göstəriciləri üzrə vahid məlumat bazasının yaradılması və data təhlilinin həyata keçirilməsi məlumat və bilik əsaslı qərarverməni dəstəkləmişdir.

Turizm sahəsində biznes mühitinin təşviqi və tənzimləmə çərçivəsinin inkişaf etdirilməsi məqsədilə "Turizm haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli yeni Qanunu qəbul edilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 171 nömrəli Fərmanı ilə yeni "Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi" təsdiq edilmişdir. Ölkəyə səyahətin liberallaşdırılması məqsədilə bir sıra ölkələrlə qarşılıqlı əsaslarla viza rejimi ləğv edilmişdir. Həmçinin Azərbaycan Respublikasının mülki hava limanlarında (aeroportlarında) yerinə yetirilən uçuşların coğrafiyası genişləndirilmiş, turizm sahəsində mövcud dəstək mexanizmlərinin təkmilləşdirilməsi və yenilərinin yaradılması istiqamətində addımlar atılmışdır.

Turizm potensialının beynəlxalq səviyyədə təbliği üçün 2018-ci ildə "Azərbaycan: Bir daha bax" marketinq kampaniyası əsasında milli turizm brendi yaradılmış, hədəf turizm bazarlarında dörd əsas istiqamət üzrə (mədəniyyət, sağlamlıq, işgüzar tədbirlər, təbiət və macəra) genişmiqyaslı təbliğat və kommunikasiya tədbirləri həyata keçirilmişdir.

Turizm potensialından səmərəli istifadə məqsədilə turizm resurslarının inventarlaşdırılması aparılmış, beynəlxalq mədəni turizm marşrutları inkişaf etdirilmiş, dağ-piyada marşrutları yaradılmış, kəndlər üzrə turizm inkişaf konsepsiyaları hazırlanmışdır. Həmçinin sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması, eləcə də tibbi turizmin inkişafı məqsədilə ölkənin reytinqinin yüksəldilməsi istiqamətində işlər davam etdirilmişdir. Eləcə də Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "2026-2029-cu illər üçün Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair Tədbirlər Proqramı" təsdiq edilmişdir.

Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə turizm infrastrukturunun yaradılması və həmin ərazilərə turist səfərlərinin təşkili istiqamətində kompleks tədbirlər həyata keçirilir.

Dövlət siyasətinin ardıcıllığı və çevikliyi turizm sahəsində müsbət inkişaf meyillərinin davamlılığını təmin edir. 2025-ci ildə turizm üçün xarakterik sahələrdə7 milyard manata yaxın əlavə dəyər yaradılmış, sektorun iqtisadiyyatda payı tarixdə ilk dəfə 5.4 faizədək yüksəlmiş və pandemiyadan əvvəlki 2019-cu ildə qeydə alınan ən yüksək nəticəni (4.5 faiz) 0.9 faiz bəndi üstələmişdir.

2019-2025-ci illərdə turizm xidmətlərinin ixracı nəticəsində Azərbaycan Respublikasına 8,8 milyard ABŞ dolları ekvivalentində xarici valyuta daxil olmuş, bunun 2,0 milyard ABŞ dolları və ya qeyri-neft-qaz sektorunun ümumi xidmət ixracının 28,5 faizi 2025-ci ilin payına düşmüşdür.

Turizm sektorunun böyüməsi ölkədə məşğulluq üçün əlverişli mühit yaratmışdır. 2025-ci ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə fəaliyyəti sahəsində məşğul olanların sayı 121,0 min nəfər təşkil etmiş, bu göstərici 2019-cu illə müqayisədə 56,1 faiz (43,5 min nəfər) artmış, eyni zamanda həmin fəaliyyət sahəsinin muzdlu əmək bazarındakı payı 2,9 faiz bəndi yüksələrək 4,6 faizə çatmışdır.

**3.2. Turizmin inkişafı ilə bağlı əsas çağırışlar**

Dünya İqtisadi Forumu tərəfindən dərc edilən "Səyahət və Turizmin İnkişafı İndeksi 2024" hesabatına əsasən, turizmin inkişaf səviyyəsinə görə Azərbaycan Respublikası hesabatla əhatə olunan 119 ölkə arasında 56-cı yerdə qərarlaşmışdır. Ölkə Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə Qırğızıstanı (102), Tacikistanı (99), Özbəkistanı (78) və Ermənistanı (72) qabaqlasa da, Gürcüstandan (45) və Qazaxıstandan (52), müvafiq olaraq, 11 və 4 pillə geridə qalır. Aparılan təhlil və qiymətləndirmələr, maraq qrupları ilə müzakirələr, statistik müayinə və sorğuların nəticələri ümumiləşdirilərək Azərbaycan Respublikasında turizm sahəsinin inkişafı üçün aşağıdakı çağırışlar müəyyən edilmişdir:

**3.2.1. Azərbaycan Respublikasının turizm baxımından əlçatanlığının artırılması.** Müasir təcrübədə nəqliyyat infrastrukturunun inkişafı və şaxələndirilməsi, viza rejiminin və sərhəd keçidi prosedurlarının sadələşdirilməsi destinasiyanın əlçatanlığının artırılmasında əsas rol oynayır. Belə ki, COVID-19 pandemiyası səbəbi ilə ölkədə tətbiq olunan məhdudiyyətlər fonunda alternativ nəqliyyat vasitələrinin məhdudluğu ölkədə hava sərnişin daşımalarının payının artmasına və bu nəqliyyat növü üzrə təmərküzləşmə meyillərinin güclənməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasına gəlmə turizmi üçün hədəflənən ölkələrin (hədəf turizm ölkələri/bazarları) vətəndaşlarına münasibətdə Azərbaycan Respublikasına giriş üçün viza tələbinin aradan qaldırılması (vizasız rejimin tətbiqi) bir çox ölkələrdə turizmin stimullaşdırılması baxımından effektiv alətlərdən biri kimi çıxış edir və qonşu ölkələr bu alətdən geniş istifadə edirlər;

**3.2.2. turizm bazarlarının şaxələndirilməsi.** Ölkəmizin gəlmə turizmi bazarında məhdud sayda ölkələrin yüksək paya malik olması (Rusiya, Gürcüstan, Türkiyə və İran) müşahidə edilir. Yaxın Şərq və Cənub-Şərqi Asiya mənşəli turistlərin ölkəyə cəlb olunması nəticəsində son 10 il ərzində ənənəvi ölkələrdən gələn turistlərin xüsusi çəkisi təxminən 20 faiz azalsa da, bu ölkələrin ümumi turist axınındakı payı hələ də yüksək olaraq qalmaqdadır. Bir sıra qonşu ölkələrdə geosiyasi vəziyyətin mürəkkəbliyi həmin ölkələrdən gələn turistlərin sayına da mənfi təsir göstərmişdir. Bu faktor alternativ hədəf turizm bazarlarının axtarışı zərurətini daha da gücləndirmişdir;

**3.2.3. mövsümilik amilinin təsirlərinin azaldılması.** Təhlillərə əsasən, bir ilin 7 ayı turizm üçün qeyri-mövsüm, 5 ayı (iyun, iyul, avqust, sentyabr, dekabr) isə mövsüm dövrüdür. 2019-2022-ci illərin məlumatlarının nəticələri göstərir ki, yerləşmə xidmətlərinin təşkili fəaliyyəti sahəsində gəlirlərin 51,2 faizi mövsüm dövrü olaraq klassifikasiya olunan 5 ayın (34,1 faizi ənənəvi mövsüm ayları (iyun, iyul, avqust) olmaqla) payına düşür. Digər 7 ayda əldə edilən gəlirlər isə orta aylıq gəlir səviyyəsindən aşağıdır. 2024-cü ildə ictimai iaşə xidməti dövriyyəsinin 48,2 faizi, 2025-ci ildə isə 47,1 faizi mövsüm hesab edilən 5 ayın payına düşmüşdür. Təqvim ilinin 3 ayı (aprel, may, oktyabr) üzrə yerləşmə xidmətlərinin təşkili fəaliyyətindən əldə edilən gəlirlər orta aylıq gəlirdən 0-10 faiz aralığında aşağı göstəriciyə malikdir ki, bu da həmin ayları potensial turizm mövsümü kimi təsnif edir. Əhatəli planlama ilə və təşviqlərlə müvafiq ayların mövsüm ayları sırasında yer alması təmin edilə bilər. Belə ki, bazarların şaxələndirilməsi, marketinq və qiymət siyasətinin dəyişdirilməsi, turizm məhsullarının çeşidləndirilməsi mövsümilik amilinin təsirinin azaldılmasına müsbət təsir edir. Mövsümiliyin təsirinin azaldılması sektorun investisiya cəlbediciliyini dəstəkləməklə yanaşı, dayanıqlı məşğulluğun iqtisadi əsaslarını formalaşdıraraq işsizliyin əhatə dairəsini azalda, işçi axınının sürətini azaltmaqla peşəkarlığın artması ilə nəticələnə bilər;

**3.2.4. turizm sahəsi üzrə investisiya mühitinin inkişaf etdirilməsi.** Dünya İqtisadi Forumuna görə, Azərbaycan Respublikasında əhalinin hər 100 nəfərinə düşən mehmanxana (hotel) otaqlarının sayı 2021-ci ildə 0,25 olmuşdur ki, bu da dünya üzrə orta göstəricidən 2,6 dəfə azdır. İnvestisiya mühitinin inkişaf etdirilməsi təklif adekvatlılığının artırılması və qiymətlərin optimallaşması ilə nəticələnəcəkdir;

**3.2.5. turizm sahəsində kadr potensialının gücləndirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi.** 2023-cü ildə turizm ixtisasları üzrə təhsilini tamamlayan şəxslərin sayı cəmi 1,9 min nəfər olduğu halda, il ərzində yalnız turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 8,8 min nəfər muzdlu işə cəlb olunmuşdur. Bu isə müvafiq sahə üzrə təhsilini tamamlayan şəxslərin sayından 4.6 dəfə çoxdur. 2016-2022-ci illərdə Azərbaycan Turizm və Menecment Universitetinin məzunları arasında məşğulluq səviyyəsi 53,6 faiz, onlar arasında ixtisasa uyğun məşğulluq isə 58 faiz olmuşdur.

2023-cü ildə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən turistlər arasında keçirilən sorğunun nəticələri göstərir ki, yerli və xarici turistlərin gözləntiləri ilə təcrübələri arasında fərqlər, əsasən, əlverişli qiymət, gigiyena və müştəri xidməti kateqoriyaları üzrə qeydə alınmışdır. Bu vəziyyət turizm dəyər zənciri üzrə keyfiyyət yanaşmasının tətbiqini, əmək bazarına uyğun kadr hazırlığını, eləcə də tənzimləmənin və nəzarətin gücləndirilməsi və rəqabətyönümlü təşviq mexanizmlərinin tətbiqini zəruri edir;

**3.2.6. turizm sahəsində rəqəmsallaşma.** Müasir turizmin qarşısında dayanan əsas çağırışlardan biri "ağıllı" destinasiyaların formalaşdırılmasıdır. 2022-2023-cü illər üzrə qiymətləndirmələrə əsasən, ictimai iaşə xidmətlərinin, habelə yerləşmə və əyləncə xidmətlərinin rəqəmsal platformalar üzərindən istehlak səviyyəsinə görə Azərbaycan 119 ölkə arasında 68-ci yerdə qərarlaşır (Dünya İqtisadi Forumu). Beynəlxalq təcrübədə rəqəmsal həllər səyahətdən əvvəl, səyahət dövründə və səyahətdən sonra dövlət-biznes (G2B), biznes-biznes (B2B), biznes-müştəri (B2C) istiqamətində xidmətlərin təqdim edilməsində mühüm alətə çevrilməkdədir. Müvafiq məqamlar nəzərə alındıqda turizm idarəetməsinin inkişafı üçün turizm informasiya sisteminin formalaşması, elektron xidmətlərin (onlayn bilet və sifariş) yaradılması, biznesin rəqəmsal savadlılığının (onlayn platformalarda zəif təmsilçilik) artırılması, rəqəmsal infrastrukturun inkişafı, satış kanallarının genişləndirilməsi üçün müştəriyönümlü platformaların yaradılması, insanların rəqəmsal vərdişlərinin inkişafı əsas məsələlər kimi qarşıya çıxır. Xüsusilə özəl sektor tərəfindən təqdim edilən xidmət və əməliyyatların rəqəmsallaşması istiqamətində dəstəkləyici tədbirlərin görülməsi zəruridir;

**3.2.7. dayanıqlı turizmə keçid.** Dayanıqlı turizmin inkişafı turizm sektorunun uzunmüddətli rəqabətqabiliyyətinin, dayanıqlılığının və inklüziv inkişafının təmin edilməsinin əsas şərtlərindən biridir. Turizm sahəsi iqlim dəyişikliyinə həssas olmaqla yanaşı, istixana qazı emissiyalarının formalaşmasına da təsir göstərir və qlobal emissiyaların təxminən 5-8 faizinin bu sektorun payına düşdüyü ehtimal edilir. Eyni zamanda turizmin təbii resurslardan səmərəli istifadəni təşviq etməsi, biomüxtəlifliyin və mədəni irsin qorunmasına töhfə verməsi, yerli icmalar üçün sosial-iqtisadi fayda yaratması, inklüziv məşğulluğu dəstəkləməsi və məsuliyyətli idarəetmə prinsiplərinə əsaslanması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, turizmin ətraf mühitə təsirinin azaldılması, resurslardan səmərəli istifadə, iqlim dəyişikliyinə uyğunlaşma və karbonsuzlaşdırma tədbirlərinin həyata keçirilməsi ilə yanaşı, mədəni və təbii irsin qorunmasını, yerli icmaların rifahını və turizm biznesində məsuliyyətli idarəetmə təcrübələrinin tətbiqini təşviq edən tənzimləmə və təşviq mexanizmlərinin formalaşdırılması, habelə özəl sektor tərəfindən dayanıqlı fəaliyyət prinsiplərinin geniş tətbiqi vacibdir.

**4. Dövlət Proqramının hədəf göstəriciləri**

4.1. Dövlət Proqramının icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

| Hədəflər | Baza göstərici | Gözlənilən | Aralıq hədəf göstəricilər | | | | Hədəf (2026 – 2030-cu illər) |
|---|---|---|---|---|---|---|---|
| | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 | |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyər, milyon manat | 6962.8 | 7581.1 | 8508.5 | 9681.9 | 10875.5 | 12170.9 | ~ 40% real artım |
| O cümlədən"turistlərin yerləşdirilməsi və ictimai iaşə" iqtisadi fəaliyyəti növü üzrə yaradılmış əlavə dəyər, milyon manat | 3573.0 | 3819.9 | 4319.1 | 4934.3 | 5528.7 | 6189.3 | ~41.6% real artım |
| "Turistlərin yerləşdirilməsi və ictimai iaşə" iqtisadi fəaliyyəti növü üzrə yaradılmış əlavə dəyərin real artımı, % | 8.5% | 3.4% | 8.2% | 9.5% | 7.5% | 7.4% | 7.2% orta illik artım |
| Turizm üçün xarakterik sahələrin qeyri-neft-qaz ÜDM-ində payı, % | 7.5% | 7.6% | 7.8% | 8.1% | 8.4% | 8.6% | 1.1 % bəndi artım |
| Turizm üçün xarakterik sahələrin muzdlu əmək bazarında payı, % | 4.8% | 4.7% | 5.0% | 5.3% | 5.5% | 5.7% | 5.4% orta illik artım |
| Turizm üzrə daxilolmaların (xarici turist xərcləri) artması, % | -4.3% (faktiki: 3.3 milyard manat) | -10.7% (2.9 milyard manat, proqnoz) | 30.4% (3.8 milyard manat, proqnoz) | 23.1% (4.7 milyard manat, proqnoz) | 16.4% (5.4 milyard manat, proqnoz) | 15.8% (6.3milyard manat, proqnoz) | ~ 2 dəfə artım |
| Azərbaycana səfər edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı, min nəfər | 2570.2 | 2422.4 | 2795.4 | 3209.1 | 3491.5 | 3798.8 | 8,1% orta illik artım |
| Ölkə daxilində turizm məqsədilə səfər edən Azərbaycan vətəndaşlarının sayı, min nəfər | 5862.2 | 6014.6 | 6325.4 | 6657.2 | 7003.4 | 7367.6 | 4,7% orta illik artım |
| Mehmanxanalarda keçirilən gecələmələrin sayı, min gecə | 4569.5 | 4469.3 | 4953.0 | 5484.5 | 5887.2 | 6321.2 | 6,7% orta illik artım |

4.2. Dövlət Proqramının icrası nəticəsində Azərbaycanın turizm sektorunun regional və qlobal rəqabət qabiliyyəti gücləndiriləcək, ölkə dayanıqlılıq prinsipləri əsasında müxtəlif turizm növləri üzrə yüksəkkeyfiyyətli turizm təcrübəsi təqdim edən rəqabətqabiliyyətli destinasiyaya çevriləcəkdir. Turizm potensialından səmərəli istifadə genişlənəcək, yerli və xarici investisiyaların cəlb edilməsi təşviq olunacaq, regionların balanslı sosial-iqtisadi inkişafı dəstəklənəcək, yeni iş yerləri yaradılacaq, regionlarda məşğulluq və əhalinin pul gəlirləri artacaq, eyni zamanda qeyri-neft-qaz sektorunun ümumi daxili məhsuldakı payının artırılmasına töhfə veriləcəkdir. Bununla yanaşı, turizm infrastrukturu müasirləşdiriləcək, turizm xidmətlərinin keyfiyyəti yüksəldiləcək və turist axınının davamlı artımı təmin ediləcəkdir.

Bununla belə, regional və qlobal səviyyədə geosiyasi vəziyyətin gərginləşməsi, beynəlxalq münaqişələrin baş verməsi və yoluxucu xəstəliklərin kütləvi şəkildə yayılması Dövlət Proqramı üzrə nəzərdə tutulmuş tədbirlərin tam icrasına maneələr yaranmasına, habelə ayrı-ayrı hədəf göstəricilərindən qismən kənarlaşmalara səbəb ola bilər.

**5. Dövlət Proqramının məqsədləri**

5.1. Dövlət Proqramının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. institusional təkmilləşdirmə - qurumlararası koordinasiyanın artırılması, çevik tənzimləmə və səmərəli nəzarət çərçivələrinin yaradılması;

5.1.2. tələbin təşviqi - əlçatanlığın artırılması, bazarların şaxələndirilməsi, mövsümi faktorların təsirlərinin azaldılması və vahid təbliğat strategiyalarının tətbiqi;

5.1.3. təklifin təşviqi - resursların səfərbər edilməsi və səmərəli istifadəsi, yeni məhsulların yaradılması, investisiya mühitinin inkişaf etdirilməsi və dayanıqlı turizm təşəbbüslərinin təşviqi;

5.1.4. xidmət keyfiyyətinin və turist məmnuniyyətinin artırılması - rəqəmsallaşmanın dəstəklənməsi, innovasiyanın təşviqi, sertifikatlaşdırma və keyfiyyətə nəzarətin təkmilləşdirilməsi, turizm sahəsində kadr potensialının gücləndirilməsi;

5.1.5. qərar qəbuletmənin təkmilləşdirilməsi - dövlətlə biznes arasında kommunikasiyanın effektiv təşkili, turizmlə bağlı statistik məlumat bazasının inkişafı və təkmilləşdirilməsi.

**6. Dövlət Proqramının prioritet istiqamətləri**

6.1. Dövlət Proqramında aşağıdakı 9 prioritet istiqamət müəyyən edilmişdir:

**6.1.1. turizm idarəetməsi:** turizm sahəsinin özünəməxsusluğu nəzərə alınmaqla, sahənin inkişafı dövlət qurumları ilə digər maraqlı tərəflər arasında koordinasiyalı əməkdaşlıq tələb edir. Bu əməkdaşlıq milli və yerli səviyyələrdə dövlət və özəl sektor arasında birgə fəaliyyətin təmin edilməsinə əsaslanır və əsas məqsəd turizm sahəsinin davamlı inkişafını təmin etməkdir. Bu məqsədə nail olmaq üçün maraqlı tərəfləri cəlb etməklə, milli və regional səviyyələrdə düzgün strateji planlaşdırmanı və institutlaşmanı təmin etməklə, həmçinin koordinasiya mexanizmlərinin təkmilləşdirilməsi vasitəsilə vahid və əlaqələndirilmiş turizm idarəetməsi modeli formalaşdırılacaqdır.

**6.1.1.1. turizm sahəsində əlaqələndirmə mexanizmlərinin təkmilləşdirilməsi:**

**6.1.1.1.1. əsaslandırma:** turizm sahəsinin inkişafını təmin etmək və müxtəlif sektorlarla əlaqələndirməni gücləndirmək, əlçatanlığı artırmaq, xüsusilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 1.1.10-cu yarımbəndinin 6-cı abzasının davamı olaraq əlaqələndirmə mexanizmləri yaradılacaq və ya təkmilləşdiriləcəkdir;

**6.1.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.1.2.1. Azərbaycan Respublikasında hava nəqliyyatı ilə sərnişindaşıma və turizm siyasətinin uzlaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi;

6.1.1.1.2.2. hədəf turizm bazarlarından gəlmə turizmi təşviq etmək məqsədilə vizasız gediş-gəliş rejimi tətbiq olunan ölkələrin sayının artırılması;

6.1.1.1.2.3. gəlmə turizmi məqsədilə çoxdəfəlik elektron vizaların verilməsi prosesinin təkmilləşdirilməsi;

6.1.1.1.2.4. gəlmə turizmi məqsədilə elektron viza (sərhəddə viza daxil olmaqla) rejimi tətbiq edilən ölkələrin sayının artırılması;

6.1.1.1.2.5. yeni "rəqəmsal səyyah" viza altnövünün təsis edilməsi;

6.1.1.1.2.6. turizm siyasətinin ölkənin sosial-iqtisadi inkişafına töhfəsinin artırılması və iqtisadiyyatın əlaqəli sahələrinin inkişaf siyasətləri ilə qarşılıqlı əlaqələndirilməsini təmin edən uzlaşdırma mexanizmlərinin təkmilləşdirilməsi;

**6.1.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.1.3.1. turizm, viza və nəqliyyat sahəsində siyasətin uzlaşdırılması;

**6.1.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.1.4.1. turizm siyasəti və digər sahəvi siyasətlər arasında koordinasiya zəifliyi risklərinin təsirləri dövlət qurumları arasında, habelə dövlət və özəl sektor arasında əlaqələndirmə və əməkdaşlıq mexanizmlərinin yaradılması və səmərəli idarə edilməsi yolu ilə azaldılacaqdır;

**6.1.2. tənzimləmə keyfiyyəti:** Turizm sahəsində xidmətlərin keyfiyyətinin artırılması haqsız rəqabət halları ilə effektiv mübarizə, istehlakçı hüquqlarının qorunması və resursların səmərəli idarə edilməsi və məqsədli tənzimləmə çərçivələrinin yaradılması, həmçinin normativ hüquqi bazanın yeni çağırışlara uyğunlaşdırılması ilə mümkündür;

**6.1.2.1. turizm sənayesi subyektlərinin uçotunun və təsnifatının təkmilləşdirilməsi:**

**6.1.2.1.1. əsaslandırma:** turizm sənayesi subyektlərinin Turizm Reyestrində dövlət qeydiyyatına alınması mexanizminin təkmilləşdirilməsi turizm sənayesinin şəffaflığını təmin edəcək, sahə üzrə əhatəli məlumat bazası formalaşacaqdır;

**6.1.2.1.2. görüləcək tədbirlər:**

6.1.2.1.2.1. turizm sənayesi subyektlərinin reyestrinin aparılması mexanizminin təkmilləşdirilməsi;

6.1.2.1.2.2. turizm sənayesi subyektlərinin təsnifatının təkmilləşdirilməsi;

**6.1.2.2. turizm sahəsinin dayanıqlı keyfiyyət təminatı sisteminin qurulması:**

**6.1.2.2.1. əsaslandırma:** turizm haqqında qanunvericiliyin beynəlxalq standartlara və yeni çağırışlara uyğunlaşdırılması məqsədilə inkişaf etdirilməsi, turizm sahəsində istehlakçı hüquqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin yerləşmə vasitələrində sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə, təhlükəsizlik qaydalarına riayət olunmasına dair tələblərin təkmilləşdirilməsi yolu ilə xidmət keyfiyyətinin artırılması nəzərdə tutulur;

**6.1.2.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.2.1. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi, turizm sənayesi subyektlərinin fəaliyyətinə dair minimum tələblərin və nəzarət mexanizmlərinin müəyyən edilməsi;

6.1.2.2.2.2. turizm sahəsində istehlakçı hüquqlarının qorunması məqsədilə mübahisələrin həlli mexanizminin təkmilləşdirilməsi;

6.1.2.2.2.3. mehmanxana (hotel) və digər yerləşmə vasitələri üçün normativ hüquqi aktlarla sanitariya və gigiyena ilə bağlı tələblərin müəyyən edilməsi;

6.1.2.2.2.4. mehmanxana (hotel) və digər yerləşmə vasitələri üçün təhlükəsizlik və fövqəladə hallarla bağlı minimal tələblərin müəyyən edilməsi;

*Ardı 5-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 4-cü səh.*

6.1.2.2.2.5. dağ və macəra turizmi fəaliyyətləri üzrə peşəkar bələdçilik və təhlükəsizlik sisteminin yaradılması;

**6.1.2.3. nəqliyyat infrastrukturunun turizmin inkişafına töhfəsinin artırılması:**

**6.1.2.3.1. əsaslandırma:** hava gəmisi istismarçılarının uçuş coğrafiyasının genişləndirilməsi, mövcud destinasiyalar üzrə uçuş tezliyinin, həmçinin aviabilet qiymətlərinə əlçatanlığın artırılması və regional hava limanlarının potensialından səmərəli istifadə üçün təşviq tədbirlərinin görülməsi nəzərdə tutulur;

6.1.2.3.2. görüləcək tədbirlər:

6.1.2.3.2.1. Azərbaycan Respublikasının xarici ölkələrlə birbaşa hava nəqliyyatı əlaqələrinin coğrafiyasının genişləndirilməsi və uçuş tezliyinin (intensivliyinin) artırılması;

6.1.2.3.2.2. aviabilet qiymətlərinə əlçatanlığın artırılması;

6.1.2.3.2.3. regionda yerləşən hava limanlarına yeni beynəlxalq uçuşların və aşağıbüdcəli aviaşirkətlərin cəlb olunmasının təşviq edilməsi;

**6.1.2.4. turizm sahəsində yeni tənzimləmə çərçivələrinin yaradılması:**

**6.1.2.4.1. əsaslandırma:** iqlim dəyişikliyi ilə mübarizəni də dəstəkləyəcək dayanıqlı turizm və "Turizm kəndi" konsepsiyası üzrə yeni tənzimləyici çərçivənin yaradılması nəzərdə tutulur.

**6.1.2.4.2. görüləcək tədbirlər:**

6.1.2.4.2.1. dayanıqlı turizm, o cümlədən turizmdə iqlim fəaliyyəti ilə bağlı tənzimləmə mexanizminin yaradılması;

6.1.2.4.2.2. "Turizm kəndi" konsepsiyası üzrə normativ hüquqi bazanın yaradılması;

**6.1.2.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.4.3.1. Turizm Reyestrində vahid turizm sənayesi təsnifat sisteminin yaradılması və bu sahədə məlumat bazasının genişləndirilməsi;

6.1.2.4.3.2. turizm sahəsində dövlət nəzarət mexanizmlərinin təkmilləşdirilməsi;

6.1.2.4.3.3. turizm sahəsində sertifikatlaşmış sənaye subyektlərinin sayının artması;

6.1.2.4.3.4. təhlükəsizlik, sağlamlığın qorunması və istehlakçı hüquqlarının müdafiəsi üzrə təkmilləşdirilmiş dövlət nəzarəti mexanizmlərinin tətbiqi;

6.1.2.4.3.5. turizm məqsədli nəqliyyat əlaqəliliyinin yaxşılaşdırılması və əlçatanlığın artırılması;

6.1.2.4.3.6. turizm sahəsində dayanıqlılıq və iqlim fəaliyyəti prinsiplərinin tətbiqinin genişləndirilməsi;

6.1.2.4.3.7. "Turizm kəndləri"ndə turizm fəaliyyətinin təşkilinin dəstəklənməsi;

**6.1.2.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.4.1. hüquqi çərçivənin təkmilləşdirilməsi prosesində maraqlı tərəflərin iştirakı, ön ictimai müzakirələrin təşkili, tənzimləmə prosesində rəqəmsallaşma, şəffaflıq və hesabatlılıq, əlavə xərc yaradan hallarda hədlərin müəyyənləşdirilməsi üsullarından istifadə edilərək turizm sahəsinə sərmayə axınının davamlılığına nail olunacaqdır;

6.1.2.4.4.2. kadr potensialının gücləndirilməsi, insan resurslarının səfərbər edilməsi, seqmentlər üzrə prioritetləşdirmə, coğrafi paralellik yanaşmaları tətbiq edilərək risklər azaldılacaqdır;

6.1.2.4.4.3. turizm sənayesi subyektlərinin dayanıqlı turizm tələblərinə uyğunlaşmasıməqsədilə metodiki dəstək və maarifləndirmə tədbirləri həyata keçiriləcəkdir;

6.1.3. regionlarda turizmin inkişafı və icmalar:bu prioritet üzrə strateji baxış regionlarda turizm resurslarının dayanıqlı istismarına, unikallığın qorunmasına və yerli icmanın sosial-iqtisadi inkişafına töhfənin verilməsidir;

**6.1.3.1. xüsusi rejimli ərazilərdə turizmin inkişaf etdirilməsi:**

**6.1.3.1.1. əsaslandırma:** Bu tədbir çərçivəsində təbii və mədəni irsin qorunması prinsipləri əsasında tarix və mədəniyyət qoruqlarında (abidələrin ərazilərində), təbiət ərazilərində, o cümlədən milli parklarda dayanıqlı turizmin inkişafını təmin etmək üçün layihələr həyata keçiriləcək və müxtəlif turizm məhsulları yaradılacaqdır;

**6.1.3.1.2. görüləcək tədbirlər:**

6.1.3.1.2.1. dövlət qoruqlarında (abidələrin ərazilərində) dayanıqlı turizmin təşkil edilməsi;

6.1.3.1.2.2. təbiət ərazilərində, o cümlədən milli parklarda dayanıqlı turizmin təşkil edilməsi;

6.1.3.1.2.3. ov turizminin inkişafı məqsədilə ov təsərrüfatlarının yenidən qurulması;

6.1.3.1.2.4. Naftalan şəhərində turizmin inkişaf etdirilməsi;

6.1.3.1.2.5. turizm potensialı olan kəndlərdə "turizm kəndi" konsepsiyasına uyğun olaraq turizm infrastrukturunun yaradılması;

**6.1.3.2. regionlara turist səfərlərinin təşviq edilməsi:**

**6.1.3.2.1.əsaslandırma:** regionlarda əsas turizm məntəqələrinin nəqliyyat əlçatanlığının və turizm informasiya xidmətlərinin təkmilləşdirilməsi, habelə turist səfərlərinin təşkili və planlaşdırılmasını asanlaşdıran mexanizmlərin tətbiqi vasitəsilə regionlara turist axınının stimullaşdırılması nəzərdə tutulur.

**6.1.3.2.2. görüləcək tədbirlər:**

6.1.3.2.2.1. regionlarda yerləşən əsas turizm məntəqələrinin nəqliyyat əlçatanlığının (keyfiyyətli avtomobil, avtobus və dəmiryolu əlaqəsi) artırılması;

6.1.3.2.2.2. Naxçıvan Muxtar Respublikasına turist səyahətlərinin təşkili şərtlərinin təkmilləşdirilməsi;

6.1.3.2.2.3. dəmir yolu bileti satışının Qlobal Paylama Sisteminə (GDS) inteqrasiyası;

6.1.3.2.2.4. turistlər üçün gündəlik, həftəlik, aylıq dəmir yolu bileti paketlərinin, həmçinin destinasiyalar üzrə güzəştli bilet satışı təkliflərinin yaradılması;

6.1.3.2.2.5. regionlarda turizm informasiya xidmətinin genişləndirilməsi;

**6.1.3.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.2.3.1. xüsusi rejimli ərazilərdə turizm resurslarından səmərəli istifadə;

6.1.3.2.3.2. regionlar üzrə əlçatanlığın artması, sərnişindaşıma xidmətlərinin təkmilləşdirilməsi, hava nəqliyyatı ilə Naxçıvan Muxtar Respublikasına turist səfərlərinin təşkili şəraitinin inkişaf etdirilməsi;

6.1.3.2.3.3. regionlara səfər edənlərin sayının artması;

**6.1.3.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.2.4.1. dövlət orqanları (qurumları), həmçinin dövlət və özəl sektor nümayəndələri arasında koordinasiya risklərinin neytrallaşdırılması məqsədilə yeni mexanizmlər yaradılacaq, planlaşdırma və əlaqələndirmə üçün mütəmadi görüşlər keçiriləcəkdir;

6.1.3.2.4.2. xüsusi rejimli ərazilərdə dayanıqlı idarəetmə mexanizmlərinin tətbiqi ilə bağlı təlimlər təşkil ediləcəkdir;

6.1.3.2.4.3. yerli icmaların turizm fəaliyyətində iştirakına marağının artırılması məqsədilə davamlı maarifləndirici tədbirlər təşkil ediləcəkdir;

**6.1.4. brend, marketinq və kommunikasiya:** brendinq, marketinq və kommunikasiya tədbirləri Azərbaycan Respublikasının xarici təmsilçilik resurslarının səfərbər edilməsi, milli turizm sənayesində brendləşmə səviyyəsinin artırılması fəaliyyətlərini əhatə etməklə gəlmə turizm üzrə tələbin təşviqini hədəfləyir;

**6.1.4.1. hədəf turizm bazarlarında təbliğatın genişləndirilməsi:**

**6.1.4.1.1. əsaslandırma:** Azərbaycan Respublikası beynəlxalq turizm məkanı kimi tanıdılmasının artırması və turist axınının çoxaldılması məqsədilə müxtəlif marketinq və təbliğat tədbirləri həyata keçiriləcəkdir. Bundan əlavə, Azərbaycan Respublikasının turizm brendinin möhkəmləndirilməsi və turizm sənayesinin qlobal bazarda rəqabətqabiliyyətinin artırılması məqsədilə Azərbaycanın diplomatik, ticarət və mədəniyyət nümayəndəlikləri, ticarət evləri ilə birlikdə əməkdaşlıq qurularaq, bu qurumların turizm təbliğatına dəstək vermələri təmin ediləcəkdir;

**6.1.4.1.2.görüləcək tədbirlər:**

6.1.4.1.2.1.Azərbaycan Respublikasının diplomatik, ticarət və mədəniyyət nümayəndəlikləri, diaspor təşkilatları və analoji qurumların Azərbaycan Respublikasının turizm imkanları barəsində məlumatlılığının mütəmadi olaraq artırılması, onlar tərəfindən təşviq edilməsi məqsədilə birgə əməkdaşlığın qurulması;

6.1.4.1.2.2. hədəf bazarlarda Azərbaycan Respublikası turizm məhsullarının təşviqinə və tanıdılmasına yönəlmiş tədbirlərin (yol şoularının, xarici turoperatorlar, geniş izləyici auditoriyası olanblogerlər, influenserlər, tanınmış şəxslər və media nümayəndələri üçün tanışlıq səfərlərinin, media brifinqlərinin, konfransların, ölkəmizin turizm potensialına həsr olunmuş ziyafət axşamlarının və s.) təşkil edilməsi;

6.1.4.1.2.3. hədəf bazarlarda ixtisaslaşmış "B2B" turizm tədbirlərində, beynəlxalq turizm sərgilərində iştirak edilməsi və aparıcı turizm şirkətləri ilə birlikdə "B2B" marketinq kampaniyalarının həyata keçirilməsi;

6.1.4.1.2.4. çap mediası, televiziya, kino sənayesi, sosial media və rəqəmsal platformalar vasitəsilə, həmçinin açıq məkanda reklamlar, ictimai məkanlarda və ticarət mərkəzlərində reklamlar yerləşdirilməsi yolu ilə Azərbaycan Respublikasının turizm potensialının hədəf bazarlarda tanıdılması;

6.1.4.1.2.5. onlayn səyahət platformaları, axtarış sistemləri və aviaşirkətlər, beynəlxalq tədbir təşkilatçıları və prodüser şirkətləri ilə əməkdaşlıq edilməsi və vizual məzmunun yaradılması;

6.1.4.1.2.6. Azərbaycan Respublikası üçün Turizm Səfiri Proqramının yaradılması;

**6.1.4.2. turizm sənayesinin brendləşməsinə dəstək verilməsi:**

**6.1.4.2.1. əsaslandırma:** brendinq mühitinin təhlili, təlimat materiallarının hazırlanması, vahid milli turizm brendindən istifadə ilə bağlı hüquqi mexanizmin yaradılması və təşviqi nəzərdə tutulur;

**6.1.4.2.2. görüləcək tədbirlər:**

6.1.4.2.2.1. turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əqli mülkiyyət hüquqlarının qeydiyyatının təşviqi;

6.1.4.2.2.2. Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarının (qurumlarının) vahid milli turizm brendindən istifadəsi;

**6.1.4.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.2.3.1. Azərbaycan Respublikasının turizm potensialının xarici ölkələrdə təbliğat şəbəkəsinin genişləndirilməsi;

6.1.4.2.3.2. Azərbaycanı turizm baxımından tanıdan xarici media və sosial media məzmununun hədəf auditoriyasının genişləndirilməsi;

6.1.4.2.3.3. brend adı altında fəaliyyət göstərən turizm müəssisələrinin sayının artırılması;

6.1.4.2.3.4. Azərbaycan Respublikasını turizm zərfləri çərçivəsində təqdim edən xarici turizm tərəfdaşlarının sayının artırılması;

6.1.4.2.3.5.hədəf turizm ölkələrindən gələn turist sayında artım;

**6.1.4.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.2.4.1. marketinq və kommunikasiya fəaliyyətlərinin strateji və əlaqələndirilmiş şəkildə həyata keçirilməməsi, maliyyələşmə ilə bağlı çətinliklərin meydana gəlməsi riskləri ortaya çıxa bilər. Bənzər halların qarşısının alınması məqsədilə bütün maraqlı tərəflərin iştirakı ilə keyfiyyətli planlaşdırma işi aparılacaqdır;

**6.1.5. turizm məhsulları və təcrübələri:** ölkə üzrə milli səviyyədə macəra, ekoloji, mədəni, qış, qastronomiya turizmi məhsullarının yaradılması və inkişaf etdirilməsi, bu məqsədlə dövlət-özəl əməkdaşlığı, təşviq və sertifikatlaşdırma mexanizmlərinin hazırlanması yolu ilə yuxarıda sadalanan istiqamətlər üzrə müsbət dinamikanın gücləndirilməsi nəzərdə tutulur;

**6.1.5.1. təbiət və aktiv turizm növü üzrə turizm məhsullarının yaradılması və inkişaf etdirilməsi:**

**6.1.5.1.1. əsaslandırma:** Azərbaycan Respublikasının zəngin təbiət ehtiyatları və kənd həyat tərzi təbiət və aktiv turizm növlərinin inkişafı üçün geniş potensiala malikdir. Təbiət və aktiv turizm növünün inkişafı üçün aşağıdakı tədbirlər nəzərdə tutulur;

**6.1.5.1.2. görüləcək tədbirlər:**

6.1.5.1.2.1. macəra (ekstremal) turizmi üzrə məhsulların formalaşdırılması və təkmilləşdirilməsi;

6.1.5.1.2.2. dağ piyada (haykinq və trekinq) turizmi üzrə məhsulların formalaşdırılması və təkmilləşdirilməsi;

6.1.5.1.2.3. vəhşi təbiət və biomüxtəlifliyin müşahidəsinə əsaslanan turizm üzrə məhsulların formalaşdırılması və təkmilləşdirilməsi;

6.1.5.1.2.4. Xəzər dənizinin Azərbaycan Respublikasına aid bölməsində və digər su hövzələrində seçilmiş çimərliklərdə abadlıq işlərinin həyata keçirilməsi;

**6.1.5.2. mədəni turizm növü üzrə turizm məhsullarının yaradılması və inkişaf etdirilməsi:**

**6.1.5.2.1. əsaslandırma:** Azərbaycanın zəngin tarixi-mədəni irsi, etnoqrafik müxtəlifliyi, qədim yaşayış məntəqələri və beynəlxalq ticarət yolları mədəni turizm növünün inkişafı üçün geniş potensiala malikdir. Bu turizm növünün inkişafı üçün nəzərdə tutulan fəaliyyətlər aşağıdakılardır;

**6.1.5.2.2. görüləcək tədbirlər:**

6.1.5.2.2.1. "Böyük İpək Yolu" turizm məhsulunun yaradılması və inkişaf etdirilməsi;

6.1.5.2.2.2. maddi və qeyri-maddi mədəni irs elementləri (dulusçuluq, şəbəkə, ipəkçilik, kəlağayı və s.) əsasında interaktiv turizm təcrübəsinə əsaslanan mədəni turizm məhsullarının yaradılması və təbliğ edilməsi;

6.1.5.2.2.3. dövlət qoruqlarında abidələrin bərpası və infrastruktur işlərinin görülməsi;

**6.1.5.3. qış turizminin inkişaf etdirilməsi:**

**6.1.5.3.1. əsaslandırma:** son illərdə Azərbaycan Respublikasında qış turizminin inkişafı istiqamətində mühüm infrastruktur layihələri həyata keçirilmiş, xüsusilə dağ turizm mərkəzlərinin beynəlxalq turizm bazarlarında tanıdılması istiqamətində tədbirlər görülmüşdür. Qış idman növləri üzrə beynəlxalq yarışların təşkili ölkənin turizm potensialının artırılması, regionlara turist axınının genişləndirilməsi, eləcə də turizm infrastrukturunun beynəlxalq səviyyədə təşviqi baxımından xüsusi əhəmiyyət daşıyır;

**6.1.5.3.2. görüləcək tədbirlər:**

6.1.5.3.2.1. beynəlxalq əməkdaşlıq çərçivəsində dünya səviyyəli yarışların təşkili vasitəsilə Azərbaycan Respublikasının beynəlxalq qış turizm destinasiyası kimi tanıdılması;

6.1.5.3.2.2. qış turizmi üzrə tanıtım məzmununun hazırlanması və yayımı, rəqəmsal marketinq və beynəlxalq reklam kampaniyalarının həyata keçirilməsi;

6.1.5.3.2.3. qış turizm məhsullarının və infrastrukturunun inkişaf etdirilməsi;

**6.1.5.4. sağlamlıq turizminin inkişaf etdirilməsi:**

**6.1.5.4.1. əsaslandırma:** sağlamlıq turizminin (tibbi və rifah) inkişafı ilə bağlı mövcud vəziyyətin araşdırılması və bu turizm növünün inkişafı ilə bağlı strategiyanın və fəaliyyət planının hazırlanması və icrası nəzərdə tutulur;

**6.1.5.4.2. görüləcək tədbirlər:**

6.1.5.4.2.1.sağlamlıq turizminin inkişafı strategiyasının və fəaliyyət planının hazırlanması və icrası;

6.1.5.4.2.2. tibb müəssisələrinin akkreditasiyası üzrə normativ hüquqi aktların tibbi turizm istiqamətində təkmilləşdirilməsi;

6.1.5.4.2.3. tibbi turizm xidməti göstərən müəssisələrin beynəlxalq akkreditasiya və sertifikatlaşma hazırlığının dəstəklənməsi;

6.1.5.4.2.4. sağlamlıq turizminin davamlı inkişafını dəstəkləmək məqsədilə tədbirlərin təşkil edilməsi;

**6.1.5.5. qastronomiya turizminin inkişaf etdirilməsi:**

**6.1.5.5.1. əsaslandırma:** yerli kulinariya ənənələri ilə bağlı turizm təcrübələrinin formalaşdırılması və təbliği bu vacib turizm məhsulunun inkişafı baxımından əsas ehtiyaclar sırasındadır;

**6.1.5.5.2. görüləcək tədbirlər:**

6.1.5.5.2.1. Azərbaycan Respublikasında qastronomiya festivallarının və tədbirlərinin təşkil edilməsi;

6.1.5.5.2.2. seçilmiş ictimai iaşə müəssisələrinin beynəlxalq restoran bələdçilərinə inteqrasiyasının təmin edilməsi;

6.1.5.5.2.3. aşpazların peşə qabiliyyətlərinin artırılmasının dəstəklənməsi, Kulinariya üzrə Milli Komandanın beynəlxalq qastronomiya tədbirlərində təmsilçiliyinin təmin edilməsi;

6.1.5.5.2.4. qastronomiya sahəsi üzrə maddi-texniki təminatın və təcrübə mərkəzlərinin yaradılması;

6.1.5.5.2.5. "Milli dadlar" elektron qastronomiya portalının təkmilləşdirilməsi;

**6.1.5.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.5.3.1. turizm məhsullarının çeşidinin artırılması və keyfiyyətinin yüksəldilməsi;

6.1.5.5.3.2. mövsümiliyin azaldılması və səyahət müddətinin uzadılması;

**6.1.5.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.5.4.1. təbii və mədəni irsin səmərəsiz istifadəsi risklərinin neytrallaşdırılması məqsədilə yeni turizm məhsulları üzrə dayanıqlı turizm prinsiplərinin tətbiqi prioritetləşdiriləcəkdir;

6.1.5.5.4.2. bazarın tələbinə uyğun olmayan məhsulların ortaya çıxması kimi halların qarşısının alınması üçün əvvəlcədən bazar araşdırmalarının aparılması təmin ediləcəkdir;

**6.1.6. rəqəmsallaşma, texnologiya və innovasiya:** rəqəmsallaşma idarəetmə xərclərinin optimalaşdırılması, çevikliyin artırılması, məlumatların toplanılması, həmçinin informasiya əlçatanlığı baxımından turizmin inkişafında mühüm faktorlardan birinə çevrilmişdir;

**6.1.6.1. rəqəmsal dövlət turizm idarəetməsinin formalaşdırılması:**

**6.1.6.1.1. əsaslandırma:** Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"na uyğun olaraq rəqəmsal dövlət turizm idarəetməsinin formalaşdırılması çərçivəsində Turizm İnformasiya Sisteminin yaradılması prioritet vəzifə kimi müəyyən edilmişdir. Bu sistem dövlət turizm idarəetməsi ilə bağlı reyestr və məlumat bazalarını, proqram təminatlarını və elektron xidmətləri bir araya gətirərək, digər dövlət informasiya sistemləri ilə əlaqələndirilmiş vahid turizm informasiya platforması kimi fəaliyyət göstərəcəkdir;

**6.1.6.1.2. görüləcək tədbir:**

6.1.6.1.2.1. Turizm İnformasiya Sisteminin yaradılması və inkişaf etdirilməsi;

**6.1.6.2. "Rəqəmsal turizm destinasiyası" layihəsinin həyata keçirilməsi:**

**6.1.6.2.1. əsaslandırma:** bu tədbir çərçivəsində turistin səyahət mərhələlərinə uyğun olaraq (arzulamaq, planlaşdırmaq, sifariş etmək, təcrübə etmək və xatırlamaq) dövlət və özəl sektor tərəfindən təqdim edilən xidmətlərin rəqəmsallaşdırılması, turizm məlumatlarına əlçatanlığın artırılması, turizm nümayiş obyektləri və nəqliyyat xidmətləri üzrə rəqəmsal inteqrasiyanın təmin edilməsi, həmçinin vahid rəqəmsal turizm platformalarının və turist xidmətlərinin inkişaf etdirilməsi nəzərdə tutulur;

**6.1.6.2.2. görüləcək tədbirlər:**

6.1.6.2.2.1. Azərbaycan Respublikasının turizm baxımından rəqəmsal platformalarda təmsilçiliyinin artırılması ilə bağlı tədbirlər görülməsi;

6.1.6.2.2.2. nəqliyyat vasitələri ilə sərnişindaşıma barədə məlumatların (hərəkət qrafiki, marşrut, dayanacaq və s.) "GTFS" formatında hazırlanması və mübadilə edilməsi;

6.1.6.2.2.3. turizm nümayiş obyektləri barədə audiobələdçilərin hazırlanması;

6.1.6.2.2.4. "Azerbaijan.travel" rəqəmsal turizm platformasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi;

**6.1.6.3. turizm innovasiya ekosisteminin formalaşdırılması:**

**6.1.6.3.1. əsaslandırma:** turizm sənayesi tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması da vacib istiqamətlərdən biridir;

**6.1.6.3.2. görüləcək tədbir:**

6.1.6.3.2.1. turizm sənayesini dəstəkləyəcək innovasiya müsabiqələrinin təşkili və seçilmiş pilot layihələrin dəstəklənməsi;

**6.1.6.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.3.1. dövlət turizm idarəetməsində proseslərin optimallaşması, rəqəmsallaşması;

6.1.6.3.3.2. turistlərə təqdim edilən elektron xidmətlərin sayının artırılması;

6.1.6.3.3.3.özəl sektor tərəfindən göstərilən rəqəmsal xidmətlərin əhatə dairəsinin genişləndirilməsi;

**6.1.6.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.3.4.1. dövlət-özəl tərəfdaşlığının təşviqi, alternativ maliyyə mənbələrindən istifadə yolu ilə tədbirin maliyyələşdirilməsinin davamlılığı təmin ediləcəkdir;

6.1.6.3.4.2. maarifləndirici tədbirlərin təşkili və təlimlərin keçirilməsi ilə rəqəmsal bacarıqların zəif olması riskləri neytrallaşdırılacaqdır;

6.1.6.3.4.3. normativ hüquqi bazanın yaradılması ilə bağlı ehtiyacın vaxtında qiymətləndirilməsi nəticəsində icrası nəzərdə tutulan fəaliyyətlərdə gecikmə hallarının qarşısı alınacaqdır;

**6.1.7. turizm statistikası, məlumat əsaslı təhlil və tədqiqat:** bu fəaliyyət statistik məlumatların strukturunun şaxələndirilməsi, keyfiyyətinin artırılması və maraqlı tərəflərin sahəvi tədqiqat materialları, sorğu nəticələri və analitik təhlillərə çıxışının təmin edilməsi istiqamətində tədbirləri əhatə edir;

**6.1.7.1. turizm statistikasının inkişaf etdirilməsi:**

**6.1.7.1.1. əsaslandırma:** turizmin ölkə iqtisadiyyatına təsirinin qlobal səviyyədə müqayisəsi məqsədilə "Turizm Köməkçi Hesabı" beynəlxalq statistik göstəricilər toplusunun tam və davamlı şəkildə aparılması, gəlmə turizmdə təkrar ziyarətçi statistik göstəricilərin formalaşdırılması, həmçinin dayanıqlı turizm üzrə statistikanın hazırlanması zəruridir. Eyni zamanda turizmin regionlar üzrə təsirini təhlil etməyə imkan verən statistik göstəricilərin əhatə dairəsi genişləndiriləcəkdir;

**6.1.7.1.2. görüləcək tədbirlər:**

6.1.7.1.2.1. Milli Hesablar Sisteminin "Turizmin Köməkçi Hesabı"na dair beynəlxalq tövsiyələr əsasında turizm statistikasının təkmilləşdirilməsi;

6.1.7.1.2.2. dayanıqlı turizm yanaşması əsasında turizm statistikasının təkmilləşdirilməsi;

6.1.7.1.2.3. turizm statistikasına dair regional bölgüdə göstəricilərin siyahısının genişləndirilməsi;

6.1.7.1.2.4. turistlərin təkrar səfərinin statistik ölçülməsi ilə bağlı metodoloji tövsiyələrin hazırlanması;

6.1.7.1.2.5. turistlərin təkrar səfərinin statistik ölçülməsi metodologiyası əsasında rəsmi statistika müşahidəsinin təşkili;

6.1.7.1.2.6. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin rəsmi internet informasiya ehtiyatında turizmlə bağlı statistik göstəricilərin istifadə üçün səmərəli şəkildə təqdim olunmasının təkmilləşdirilməsi;

**6.1.7.2. turizm sahəsi ilə bağlı tədqiqatların, araşdırmaların aparılması və dəstəklənməsi:**

**6.1.7.2.1. əsaslandırma:** turizm sahəsində innovativ yanaşmaların tətbiqi və davamlı inkişafın təmin edilməsi üçün tədqiqatlar aparılması əsas hədəflərdəndir. Bu məqsədlə beynəlxalq elmi tədqiqat mərkəzləri ilə əməkdaşlıq çərçivəsində layihələrin icrası planlaşdırılır;

**6.1.7.2.2. görüləcək tədbirlər:**

6.1.7.2.2.1. tədqiqat layihələrinin dəstəklənməsi mexanizminin tətbiq edilməsi;

6.1.7.2.2.2. beynəlxalq elmi tədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi;

**6.1.7.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.2.3.1. turizm statistikasının beynəlxalq standartlara uyğunlaşdırılması, "Turizm Köməkçi Hesabları"nın açıqlanması;

6.1.7.2.3.2. turizm sahəsində açıqlanan statistik göstəricilərin sayının artması;

6.1.7.2.3.3. turizm sahəsində interaktiv məlumat bazası ilə paylaşılan göstəricilərin sayının artması;

6.1.7.2.3.4. dayanıqlı turizmin sosial, iqtisadi və ekoloji aspektlərinin ölçülməsi;

6.1.7.2.3.5. regional statistik göstəricilərin strukturunun genişlənməsi, açıqlanan göstəricilərin sayının artması;

6.1.7.2.3.6. yeni tədqiqat layihələrinin həyata keçirilməsi, turizm sahəsində tədqiqat mühitinin inkişafı;

**6.1.7.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.7.2.4.1.təşviqedici proqramların tətbiq edilməsi, mükafatlandırma, tədqiqat xərclərinin ödənilməsi kimi mexanizmlər ilə müvafiq tədbirlərə maraq artırılacaqdır;

6.1.7.2.4.2. beynəlxalq təcrübənin tətbiqi, alternativ ölçmə, müşahidə və qiymətləndirmə üsullarından istifadə ilə toplanan statistik məlumatların keyfiyyəti artırılacaqdır;

**6.1.8. turizmdə investisiyalar və dövlət-özəl tərəfdaşlığı:** Azərbaycan Respublikasının rəqabətqabiliyyətli destinasiyaya çevrilməsi üçün turizm sahəsinə investisiyaların cəlb edilməsi, tələb və təklif arasında tarazlı dinamikanın olması xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq sərmayə bazarlarında artan rəqabət fonunda zəif sərmayə cəlbi ilə seçilən turizm sahəsi üçün maliyyə mənbələrinin təmin edilməsi dövlətin yeritdiyi turizm siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Bu prioritet üzrə strateji baxış uğurlu beynəlxalq təcrübə, nəzəri və praktik biliklər əsasında turizm sahəsində əlverişli investisiya mühitinin təmin edilməsinə töhfə verməkdir;

**6.1.8.1. turizm sahəsində əlverişli investisiya mühitinin yaradılması:**

**6.1.8.1.1. əsaslandırma:** turizm sahəsində sərmayə xərclərinin azaldılması, turizm və rekreasiya zonalarında əlverişli sahibkarlıq mühitinin yaradılması, rekreativ və ekstremal turizm infrastrukturunun inkişafı üçün cəlbedici biznes mühitinin təmin və təbliğ edilməsi planlaşdırılır. "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri" siyahısına turizm fəaliyyəti ilə bağlı layihələrin əlavə edilməsi, bu layihələr üzrə təşviq müddətinin 2030-cu ilin sonuna qədər qüvvədə olması, investisiya təşviqi sənədinin Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin rəyi əsasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilməsi nəzərdə tutulur. Əlavə olaraq, turizm fəaliyyəti ilə əlaqədar minimal investisiya məbləğləri sektorda investisiya mühitinin cari vəziyyəti nəzərə alınmaqla təsdiq ediləcəkdir;

**6.1.8.1.2. görüləcək tədbirlər:**

6.1.8.1.2.1. turizm fəaliyyəti ilə bağlı layihələrə investisiya təşviqi mexanizminin tətbiq edilməsi;

6.1.8.1.2.2. yeni turizm və rekreasiya zonalarının, habelə müvafiq turizm mərkəzlərinin yaradılaraq infrastrukturla təmin edilməsi;

6.1.8.1.2.3. turizm və rekreasiya zonalarının ərazisində mehmanxanalarda (hotellərdə) və digər yerləşmə vasitələrində xidmət göstərilməsi, sanatoriya-kurort müəssisələrinin fəaliyyətinə, qış idman növləri üçün stadion və arenaların fəaliyyətinə, konqreslərin və peşəkar salonların təşkili işinə dair investisiya layihələri çərçivəsində kredit təşkilatlarından manatla alınan kreditlər üzrə faiz subsidiyalarının verilməsi;

6.1.8.1.2.4. turizm fəaliyyəti sahələri üzrə investisiya potensialının təbliğ edilməsi;

**6.1.8.2. turizm sahəsində çevik və əhatəli təşviq çərçivəsinin yaradılması:**

**6.1.8.2.1. əsaslandırma:** turizm sahəsinin stimullara müsbət reaksiya verməsi faktı, həmçinin qlobal bazarlarda artan rəqabət sürətlə dəyişən sosial, iqtisadi və siyasi şəraitdə çevik, əhatəli turizm siyasətlərini təmin edən təşviq mexanizmlərinin tətbiqini zəruri edir;

**6.1.8.2.2. görüləcək tədbirlər:**

6.1.8.2.2.1. hava nəqliyyatı ilə qeyri-müntəzəm (çarter) uçuşların təşkilinə görə təşkilatçıların xərclərinin kompensasiyası ilə bağlı subsidiya mexanizminin yaradılması;

6.1.8.2.2.2. hədəf turizm bazarları üzrə əlavə müntəzəm aviareyslərin təşkili ilə bağlı subsidiya mexanizminin yaradılması;

6.1.8.2.2.3. turizm əhəmiyyətli tədbirlərin, o cümlədən konsert, əyləncəli proqramların təşkilinə görə tədbir təşkilatçılarının xərclərinin bir hissəsinin kompensasiyası ilə bağlı subsidiya mexanizminin yaradılması;

6.1.8.2.2.4. yerləşmə xidmətlərinin infrastrukturu üzrə investorlara subsidiya dəstəyin verilməsi;

6.1.8.2.2.5. turoperatorlara ölkəyə gətirilən əcnəbi turistlərə görə subsidiya verilməsi;

6.1.8.2.2.6. turizm sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərinə subsidiya dəstəyinin verilməsi;

**6.1.8.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.8.2.3.1. əlverişli biznes mühitinin təmin edilməsi;

6.1.8.2.3.2. yeni təşviq mexanizmlərinin yaranması;

6.1.8.2.3.3. xarici turist səfərlərinin artması;

*Ardı 6-cı səh.*

# Xalqın Lideri, uşaqların böyük dostu

## Humanizm Prezident İlham Əliyevin həyat qayəsidir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı onilliklər boyu qəlbində gəzdirdiyi torpaq həsrətinə son qoydu. Yüz minlərlə keçmiş məcburi köçkün vətəndə qəribçilikdən qurtuldu. Milyonlarla soydaşımız və dünya azərbaycanlıları Zəfərin, qürurlu bir xalqın övladı olmağın sevincini yaşadı.**







Dövlətin bu böyük tarixi qələbəsinin, Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın fonunda müzəffər liderin xarakterini tamamlayan ən mühüm özəllik onun xalqla, sadə insanlarla qurduğu canlı, səmimi ünsiyyətdir. Yüz minlərlə insanı vətən nisgilindən qurtaran lider üçün hər bir vətəndaşın taleyi, onun sevinci və kədəri bütün zamanlarda ön plandadır. Nəhəng dövlət quruculuğu işlərinin, sıx diplomatik qrafikin arasında sadə insanların, xüsusilə uşaqların kiçik arzularına vaxt ayırmaq, onlara doğma bir insan kimi qucaq açmaq böyük mənəvi ucalıq və insani həssaslıq tələb edir.

### Hər bir vətəndaşın yanında

Məhz bu həssaslığın nəticəsidir ki, Qarabağa və Şərqi Zəngəzura səfərlər zamanı baş tutan görüşlər, sadəcə, rəsmi çərçivə ilə məhdudlaşmır, yaddaşlara həkk olunan duyğulu anlarla zənginləşir. Məsələn, Xocavəndin Xanoba kəndində balaca Ayazın səmimi uşaq saflığı ilə istədiyi "KamAZ" arzusu qısa müddətdə gerçəkləşdi. Dövlət başçısının tapşırığı ilə bu yük avtomobili ailəyə təhvil verildi. Oxşar isti mənzərə bu günlərdə Şuşanın Kiçik Qaladərəsi kəndində də təkrarlandı.

Prezident İlham Əliyev iyulun 11-də Şuşa rayonunun Kiçik Qaladərəsi kəndində olarkən kənd sakini Əsəd Əsədovun evinə getmiş, ailənin balaca fərdi Gülər isə dövlət başçısından traktor istəmişdi. Əsədovların qonağı olarkən balaca Gülərin xahişini diqqətsiz qoymayan dövlət başçısı bu günlərdə ailəyə yeni traktor hədiyyə etdi. Bir uşağın saf arzusuna verilən bu sürətli reaksiya, əslində, dövlətin hər bir vətəndaşının yaxından qayğısına qaldığının ən bariz sübutudur.

Bir Prezident, Ali Baş Komandan və xalqının vətənpərvər oğlu olaraq İlham Əliyev hər zaman Azərbaycanın təəssübünü çəkib, bu uğurda dünya güclərinin qərəzli yanaşmaları ilə qarşılaşsa da, haqq yolundan dönməyib. Qarşıda duran ağır sınaqlara, keşməkeşli günlərə baxmayaraq, onun qətiyyəti və xalqına olan sevgisi bütün çətinlikləri üstələyib. Bu mübarizənin mərkəzində isə hər zaman böyük bir inam dayanıb. Qarabağ və Şərqi Zəngəzur mütləq azad olunacaq!

Dövlət başçısı işğal illərində keçmiş məcburi köçkünlərin yanında olmağı, onların mənzil-məişət problemlərini həll etməyi özü üçün, sadəcə, bir vəzifə deyil, mənəvi borc saymışdı. Bayramlarda, özəl günlərdə, hətta adi vaxtlarda belə həmin insanlarla görüşmək, onların qayğıları ilə şəxsən maraqlanmaq bir ənənəyə çevrilmişdi. Bütün bu görüşlərdə verilən tək bir qəti vəd var idi: "Siz mütləq öz dədə-baba yurdlarınıza qayıdacaqsınız".

Artıq o vəd gerçəkləşib. Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edən qurucu lider tez-tez işğaldan azad olunmuş ərazilərə səfər edir, yeni bünövrələr qoyur, bərpaolunan kənd və şəhərlərimizin ilk sakinləri ilə görüşür. İndi həmin görüşlərdə daha vətən nisgili, torpaq həsrəti yoxdur. İndi o söhbətlərdə yalnız qürur, bir də öz yurduna qayıtmağın böyük bəxtəvərliyi yaşanır.

İllərdir çəkilən həsrətin bitdiyi, mənəvi yaraların sarındığı bu anlar Prezidentlə xalq arasında tamamilə yeni, daha səmimi bir ünsiyyət mühiti yaradır. Dövlət başçısının hər bir kəndə, hər bir evə addım basması sakinlər üçün təkcə bir görüş deyil, həm də xilas və quruculuq müjdəsinin yenidən yaşanan sevincidir.

### Gələcəyə birlikdə, daha güclü addımlarla

Bu canlı və doğma bağ özünü bərpaolunan kəndlərimizə qayıdan sakinlərlə hər bir ünsiyyətdə aydın göstərir. 2025-ci il fevralın 19-da Xocalının Ballıca kəndinə köçən bir qrup sakinlə keçirilən görüşdə olduğu kimi. Qarabağa növbəti səfəri zamanı Ballıca kəndində sakinlərlə görüşən və onlar üçün yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevlə keçmiş məcburi köçkünlər arasında səmimi söhbət əsnasında duyğulu anlar yaşandı. Yurdlarından zorla qovulmuş, faciələrə tuş gəlmiş, məcburi köçkün kimi maddi-mənəvi əzablarla üzləşmiş bu sakinlər onları xoşbəxt günlərə qovuşduran Xilaskar Lideri İlham Əliyevə sonsuz minnətdarlıqlarını çatdırdılar.

Yurd həsrətinə son qoyulan ballıcalılarla səmimi söhbət zamanı bir vətəndaşın "Ali Baş Komandan, "dəmir yumruq" buradadır" sözlərinə Prezidentin gülümsəyərək "Maşallah, sənin də yumruğun yaxşıdır" cavabını verməsi, rəsmiyyətdən uzaq, tamamilə xalqın içindən gələn o səmimi mühitin ən təbii ifadəsi idi. Bu, sadəcə, bir dialoq deyil, çətin günləri arxada qoymuş xalqla onun xilaskar lideri arasındakı mənəvi birliyin təzahürüdür.

Dövlət yalnız xoş günlərdə deyil, kədərli anlarda da hər zaman vətəndaşının yanındadır. Ötən ilin 27 sentyabrında - Anım Günündə Gəncədə raket hücumu zamanı hər iki valideynini itirmiş balaca Nilay ilə Prezidentin əl-ələ addımlaması, eləcə də həmin günün ertəsi III MDB Oyunlarının açılışından öncə Gəncədə zərərçəkmiş uşaqlarla keçirilən görüş xalqın ağrısını öz ağrısı bilməyin, gələcəyə birlikdə, daha güclü addımlamağın rəmzinə çevrildi.

İstər böyük zəfərlərin qazanılmasında, istər kədərli anların bölüşülməsində, istərsə də balaca bir uşağın arzusunun çin edilməsində eyni səmimiyyət özünü göstərir. Prezident İlham Əliyev üçün vətəndaşı dinləmək, onun yanında olmaq hər zaman öndə olan məsələdir. Məhz bu insani diqqət Prezident İlham Əliyevin liderlik xarakterini tamamlayan, onu xalqına daha da yaxınlaşdıran ən dəyərli keyfiyyətlərdəndir.

Bütün bunların fonunda xalqın öz liderinə olan bu qədər dərin sevgisi və ehtiramı təsadüfi deyil. Bu səmimi münasibət illər boyu addım-addım qazanılan böyük etimadın, verilən vədlərin tam doğrulmasının və ən çətin anlarda belə yumruq kimi bir olmanın parlaq təzahürüdür. Məhz bu tükənməz inamın və mənəvi birliyin məntiqi nəticəsidir ki, xalqımız hər zaman, xüsusilə də tarixi seçimlər qarşısında qalarkən öz gələcəyini, dövlətinin taleyini yekdilliklə Prezident İlham Əliyevə həvalə edir.

Aydın görünür ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan zəfərlər, qurulan kəndlər, bərpaolunan şəhərlər nə qədər əzəmətlidirsə, insan qəlbinə toxunan o balaca arzuların çin edilməsi, körpə təbəssümləri və xalqla çiyin-çiyinə addımlamaq bir o qədər dəyərlidir. Bizi qalib edən, gələcəyə qürurla aparan ən böyük güc də elə bu səmimiyyət, bu qarşılıqlı sevgi və sarsılmaz birlikdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Naxçıvan Azərbaycanın enerji xəritəsində mühüm yer tutacaq

Naxçıvanın enerji sistemində "yaşıl enerji"nin rolu getdikcə artır. Günəşli iqlim, əlverişli təbii şərait və geniş ərazilər regionda bərpaolunan enerji layihələrinin inkişafı üçün ciddi imkanlar yaradır. Bu potensialın artıq konkret layihələrə çevrilməsi Naxçıvanın enerji sektorunda yeni mərhələnin başlanmasından xəbər verir.



**Milli Məclisin deputatı Aydın HÜSEYNOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Naxçıvana son səfəri də bu baxımdan mühüm əhəmiyyət daşıdı. "Yaşıl enerji" layihələrinə göstərilən diqqət və bu istiqamətdə 258 milyon manat vəsaitin ayrılması qarşıdakı illərdə bu sahədə işlərin genişlənməsinə ciddi dəstək verəcək. Ayrılan vəsait yeni enerji güclərinin yaradılması və infrastrukturun inkişafı baxımından mühüm imkanlar açır. "Naxçıvanın ən böyük üstünlüyü günəş enerjisi sahəsindədir. Hazırda "Şəms -1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarının yaradılması istiqamətində işlər aparılır. Ümumi gücü 50 MVt olan bu layihələr regionda günəş enerjisinin sənaye miqyasında inkişafına yeni təkan verir. Naxçıvanın bərpaolunan enerji potensialı günəşlə məhdudlaşmır. Rəsmi sənədlərdə və dövlət başçısının əvvəlki çıxışlarında regionda külək və su enerjisi imkanlarının da olduğu qeyd edilib. Bu mənbələrin gələcəkdə günəş enerjisi ilə birlikdə inkişaf etdirilməsi daha da şaxələndirilmiş enerji sisteminin formalaşmasına kömək edə bilər", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, qarşıda duran əsas məsələlərdən biri istehsal olunacaq enerjinin səmərəli şəkildə sistemə inteqrasiyasıdır. Bunun üçün elektrik şəbəkəsinin gücləndirilməsi, ötürücü xətlərin inkişafı və enerji saxlanc imkanlarının artırılması vacibdir. Bu istiqamətdə görüləcək işlər Naxçıvanın gələcək enerji potensialından daha geniş istifadə etməyə şərait yaradacaq.

A.Hüseynov bildirib ki, Naxçıvanın üstünlüklərindən biri də onun mühüm coğrafi mövqeyidir: "Regionun Türkiyə ilə əlaqələrinin genişlənməsi, Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı proseslər və Orta dəhlizin inkişafı Naxçıvanın yaxın gələcəkdə mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsi üçün yeni imkanlar yaradır. Enerji və nəqliyyat infrastrukturunun paralel inkişafı bu potensialı daha da gücləndirə bilər. Beləliklə, Naxçıvan qarşıdakı illərdə iki mühüm istiqamətdə böyük rol oynaya bilər: "yaşıl enerji" və regional tranzit. Günəş enerjisinin genişləndirilməsi, külək və su enerjisi imkanlarının qiymətləndirilməsi, enerji şəbəkəsinin yenilənməsi və nəqliyyat əlaqələrinin gücləndirilməsi regionun iqtisadi çəkisini əhəmiyyətli dərəcədə artıra bilər".

Deputat sonda vurğulayıb ki, Naxçıvanın əsas üstünlüyü təbii və coğrafi imkanların bir məkanda cəmlənməsidir. Bu imkanların ardıcıl investisiyalar və müasir infrastrukturla birləşdirilməsi regionu Azərbaycanın gələcək enerji və nəqliyyat xəritəsində daha mühüm mövqeyə çıxaracaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı platformasından gələcəyə baxış

## Paytaxtımızda Belçika müstəmləkəçiliyinə həsr olunan beynəlxalq konfrans keçiriləcək

Bəşəriyyət XXI əsrin sürətli texnoloji və sosial inkişaf mərhələsindən keçsə də, ötən əsrlərin sağalmayan yaraları hələ də qlobal gündəmin mərkəzində qalmaqdadır. Xüsusilə Qərb dövlətlərinin Afrika qitəsində və digər regionlarda həyata keçirdikləri müstəmləkə siyasətinin ağır nəticələri bu gün də milyonlarla insanın taleyində iz salır. Kolonializmin qaranlıq səhifələrindən biri də Belçika krallığının Afrika xalqlarına qarşı törətdiyi cinayətlərdir.




Bu mənada avqustun 21-də Bakıda keçiriləcək beynəlxalq konfrans müstəsna əhəmiyyət daşıyır. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə baş tutacaq "Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili" mövzusundakı bu tədbir tarixi hadisələrin müzakirə olunduğu platforma olmaqla yanaşı, tarixi ədalətin bərpası yolunda atılan qətiyyətli qlobal addımdır.

Tədbirdə Belçikanın keçmiş müstəmləkələri olan və bu gün də neokolonial təsirlərdən əziyyət çəkən Konqo Demokratik Respublikası, Ruanda və Burundi, eləcə də Mərakeş və Cənubi Afrika Respublikasından rəsmi şəxslər iştirak edəcəklər. Nümayəndə heyətləri arasında Konqo Demokratik Respublikasının ombudsmanı, parlament deputatları, Ruandanın səfiri, BMT ekspertləri, həmçinin beynəlxalq hüquq müdafiəçiləri və tədqiqatçılar yer alacaqlar.

Konfransın əsas müzakirə istiqamətləri Belçikanın Konqo Demokratik Respublikası, Ruanda və Burundi xalqlarına qarşı müstəmləkə dövründə törətdiyi cinayətlərə görə rəsmi dövlət səviyyəsində üzr istəməsi, BMT Baş Assambleyasının 60/147 saylı Qətnaməsinin prinsiplərinə uyğun olaraq reparasiya və restitusiya öhdəliklərinin icrasına nəzarət edəcək beynəlxalq məcburedici sistemin işlənib hazırlanması, həmçinin muzeylərdə saxlanılan insan qalıqları və artefaktların mənşə ölkələrinə təcili qaytarılması məsələlərindən ibarətdir.

BMT Baş Assambleyasının 60/147 saylı Qətnaməsi qurbanların hüquqi müdafiə və reparasiya hüququnu sistemləşdirir. Buraya restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya (mənəvi tanınma və rəsmi üzr) və təkrar pozuntuların qarşısının alınması təminatları daxildir. Lakin təəssüf doğuran hal odur ki, Belçika bu öhdəliklərin heç birini yerinə yetirməyib.

Rəsmi Brüssel illərdir ki, tarixi cinayətlərə görə hüquqi məsuliyyət daşıyan dövlət səviyyəsində üzr istəməkdən boyun qaçırır. Ölkə rəsmiləri yalnız hüquqi öhdəlik yaratmayan, məsuliyyəti yüngünləşdirməyə hesablanmış "dərin təəssüf" ifadələri ilə kifayətlənirlər. Bu isə keçmiş müstəmləkə xalqlarının ağrılarına qarşı nümayiş etdirilən hörmətsizliyin və qeyri-səmimiliyin bariz nümunəsidir.

Müstəmləkəçiliyin, sadəcə, fiziki və iqtisadi talançılıqla məhdudlaşmadığını, həm də xalqların yaddaşına və mədəniyyətinə yönəlmiş cinayət olduğunu görmək çətin deyil. Belçika tərəfi mədəni irsə aid 84 min artefaktı inventarlaşdırsa da, faktiki repatriasiya prosesini onilliklərdir bilərəkdən yubadır. Əsas məqamlar inventar məlumatlarının qəsdən ictimaiyyətdən gizli saxlanılmasından, ikitərəfli restitusiya sazişlərinin hələ də imzalanmamasından, həmçinin Konqo, Ruanda və Burundi mütəxəssislərinin Belçikanın müstəmləkə dövrü arxivlərinə və sənədlərinə tam çıxış əldə edə bilməmələrindən ibarətdir. Ekspertlər haqlı olaraq bu vəziyyəti Belçikanın öz tarixi məsuliyyətini şəffaf şəkildə araşdırmaqdan və üzə çıxarmaqdan qorxması, həmçinin neokolonialist maraqlarını qorumaq cəhdi kimi qiymətləndirirlər.

Bakıda keçiriləcək bu beynəlxalq konfrans Avropanın mərkəzində yerləşən, lakin insan hüquqları və ədalət prinsiplərinə qarşı ikili standartlar sərgiləyən ölkələrə çox sərt bir mesajdır. Azərbaycanın qlobal həmrəylik və ədalət təşəbbüslərinə evsahibliyi etməsi bir daha göstərir ki, ölkəmiz dünyanın harasında baş verməsindən asılı olmayaraq, müstəmləkəçiliyə və ayrı-seçkiliyə qarşı mübarizə aparan xalqların səsini beynəlxalq müstəviyə daşımaqda qətiyyətlidir.

"Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili" konfransı qurbanların səsinin bütün dünyaya çatdırılması, arxivlərin açılması və real təzminat sistemlərinin işə salınması üçün tarixi bir dönüş nöqtəsi ola bilər. Tarixi ədalət gec də olsa, bərpa olunmalıdır və bu yolda atılan hər bir addım bəşəriyyətin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın Avropa ölkələri ilə əlaqələri strateji tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanır

Azərbaycan ilə Avropa İttifaqı və qitənin aparıcı dövlətləri arasında formalaşan münasibətlər son dövrlərdə çoxşaxəli strateji əməkdaşlıq mərhələsinə qədəm qoyub. Cənubi Qafqazda yaranmış yeni reallıqlar, qlobal enerji bazarlarındakı sürətli dəyişikliklər və beynəlxalq nəqliyyat marşrutlarının yenidən qurulması Bakı ilə Avropa paytaxtları arasındakı dialoqu sistemli və zəruri hala gətirib. Artıq tərəflər arasında qurulan strateji tərəfdaşlıq modeli təkcə siyasi bəyanatlarla və çərçivə sənədləri ilə məhdudlaşmır, real iqtisadi, geostrateji və təhlükəsizlik ehtiyaclarına söykənən uzunmüddətli platformaya çevrilir.



Müasir dövrdə Azərbaycanın Avropa üçün əhəmiyyəti zəngin karbohidrogen ehtiyatları ilə yanaşı, həm də ölkəmizin Şərqlə Qərb arasında etibarlı tranzit və logistika mərkəzi kimi çıxış etməsindən qaynaqlanır. Cənubi Qafqaz üzrə Avropa İttifaqının ümumi ticarət dövriyyəsinin təxminən 70 faizinin məhz Azərbaycanın payına düşməsi və Aİ-nin ölkəmizin birnömrəli ticarət tərəfdaşı olması rəsmi Bakının regionun əsas iqtisadi lokomotivi olduğunu aydın şəkildə nümayiş etdirir. "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın dəniz limanlarını, dəmir yolu şəbəkəsini genişləndirməsi, infrastruktur imkanlarını artırması və Orta dəhliz üzrə yükdaşımaların həcmini yüksəltməsi Avropa ilə iqtisadi inteqrasiyanı və regional bağlantıları daha da dərinləşdirir.

Avropa İttifaqı rəhbərliyinin Bakıya ardıcıl səfərləri və Prezident İlham Əliyevlə keçirilən yüksəksəviyyəli görüşlər Brüsselin ölkəmizə olan marağının bariz göstəricisidir. İttifaqın aparıcı rəsmiləri ilə aparılan ali səviyyəli dialoqlar ticarət, rəqəmsal transformasiya, regional təhlükəsizlik və sülh quruculuğu istiqamətlərində birgə addımların atılmasına təkan verir. Bu kontekstdə Aİ-nin regionda davamlı sabitliyin təmin olunmasına, sərhədyanı ərazilərin bərpası və inkişafına, həmçinin icmalararası etimadın artırılmasına yönəlmiş təşəbbüslərə dəstək verməsi postmünaqişə dövründə xüsusi əhəmiyyət kəsb edir.

Enerji təhlükəsizliyi sahəsindəki yaxın tərəfdaşlıq Azərbaycan-Aİ əlaqələrinin əsasını təşkil edir. Strateji Tərəfdaşlıq haqqında imzalanmış Anlaşma Memorandumundan sonra Azərbaycanın Avropaya təbii qaz ixracı 65 faizə yaxın artaraq ölkəmizin ümumi qaz ixracının yarısına bərabər olub. Əldə olunmuş bu yüksək dinamika və strateji tərəfdaşlığın gələcək prioritetləri ali səviyyəli görüşlərdə də öz təsbitini tapmaqdadır. 2026-cı il iyulun 1-də Prezident İlham Əliyev Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin ölkəmizə səfəri zamanı mətbuata bəyanatında bu əməkdaşlığın strateji miqyasını xüsusi vurğulayaraq bildirib: "Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır. Əlbəttə ki, biz enerji sahəsində əməkdaşlığımızı geniş müzakirə etdik və həmçinin xanım prezidentin Azərbaycana dörd il əvvəlki səfəri də olduqca əhəmiyyətli idi. Bu baxımdan biz enerji sahəsində Strateji Tərəfdaşlıq Haqqında Anlaşma Memorandumunu imzaladıq və həmin vaxtdan etibarən Avropa İttifaqının üzv dövlətlərinə Azərbaycanın təbii qaz ixracı təxminən 65 faiz artmışdır. Bu gün qaz ixracımızın yarısı Avropa İttifaqının üzv dövlətlərinə gedir və bütövlükdə, Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır, bu coğrafiyanı genişləndirmək potensialı da mövcuddur".

Bu tərəfdaşlıq sürətlə "yaşıl iqtisadiyyat" sahəsinə də inteqrasiya olunur. Xəzər dənizinin külək, günəş və su-elektrik potensialının reallaşdırılması, imzalanmış müqavilələr çərçivəsində yaxın illərdə 8 giqavat həcmində bərpaolunan enerji istehsalı planı Azərbaycanı Avropanın gələcək "yaşıl enerji" dəhlizinə çevirir.

Avropa İttifaqı ilə ümumi çərçivə münasibətləri ilə yanaşı, Azərbaycanın bu qədim qitənin ayrı-ayrı nüfuzlu dövlətləri ilə ikitərəfli formatda yürütdüyü əlaqələr də strateji xarakter daşıyır. Avropanın aparıcı sənaye və iqtisadi gücü olan Almaniya ilə iqtisadi-ticarət əlaqələri, texnoloji transfer, qarşılıqlı investisiyalar və bərpaolunan enerji layihələri müvəffəqiyyətlə icra olunur. Böyük Britaniya isə uzun illərdir ki, Azərbaycan iqtisadiyyatına, xüsusilə də dənizdə neft-qaz ehtiyatlarının mənimsənilməsinə və gələcəyin "yaşıl enerji" infrastrukturunun qurulmasına ən böyük xarici sərmayə qoyan əsas strateji tərəfdaş kimi öz mövqeyini qoruyub saxlayır.

Mərkəzi, Şərqi və Cənub-Şərqi Avropa istiqamətində də Azərbaycanın diplomatik və geoiqtisadi nüfuzu sürətlə yüksəlməkdədir. Ukrayna ilə ənənəvi dostluq, suverenlik və qarşılıqlı ərazi bütövlüyünün tanınmasına əsaslanan münasibətlər, eləcə də humanitar yardım və enerji infrastrukturu sahəsindəki fəal əməkdaşlıq dinamik şəkildə davam etdirilir. Cənub-Şərqi Avropada isə Serbiya Azərbaycanın ən yaxın strateji tərəfdaşlarından biridir. İki ölkə arasında həm siyasi həmrəylik, həm də qaz təchizatı, nəqliyyat və infrastruktur layihələri üzrə sıx inteqrasiya mövcuddur. Oxşar şəkildə İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və Slovakiya kimi ölkələrlə qurulan çoxşaxəli əlaqələr Azərbaycanın Avropa qitəsindəki strateji dayaqlarını daha da möhkəmləndirir.

Nəticə etibarilə, Azərbaycanın yürütdüyü müstəqil, balanslaşdırılmış və praqmatik xarici siyasət kursu ölkəmizin beynəlxalq müstəvidəki nüfuzunu artırmaqla yanaşı, onu Avrasiya məkanında əvəzolunmaz geosiyasi və geoiqtisadi aktora çevirib. Avropa İttifaqı və qitə ölkələri ilə qarşılıqlı hörmət, etimad və ortaq maraqlar üzərində qurulan bu çoxşaxəli tərəfdaşlıq gələcəkdə də dərinləşməyə davam edərək, həm regionun, həm də daha geniş coğrafiyanın sabitliyinə, təhlükəsizliyinə, enerjisinin şaxələndirilməsinə və davamlı iqtisadi inkişafına mühüm töhfələr verəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Rusiyanın informasiya məkanında anti-Azərbaycan ritorikası qəbuledilməzdir

Son günlərdə Rusiya Federasiyasının informasiya məkanında, sosial media platformalarında Azərbaycan dövlətinə və xalqına qarşı yönəlmiş təhdid, təhqir və təxribat xarakterli çıxışların artması müşahidə olunur. Xüsusilə "YouTube" platformasında yayımlanan "Çistota ponimaniya" verilişində, "Sputnik", "Spas" kimi layihələrdə oxşar məzmunda çıxışların bir-birini əvəzləməsi hadisələrin təsadüfi olmadığını, müəyyən dairələr tərəfindən idarə edilən sistemli kampaniya aparılması ehtimalını gündəmə gətirir.

Xüsusən, 2026-cı ilin iyul və avqust aylarında yayımlanan müxtəlif proqramlarda Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə çağırışlarının olması, dövlətin konstitusiya quruluşuna, ərazi bütövlüyünə qarşı qəbuledilməz ssenarilərin müzakirə edilməsi və milli ədavətin qızışdırılmasına xidmət edən tezislərin irəli sürülməsi dərin narahatlıq doğurur. Bu cür hədyanlar və gərginlik yaradan ritorika dövlətlərarası münasibətlərin ruhuna zidd olmaqla yanaşı, iki qonşu ölkə arasında illərlə formalaşmış tərəfdaşlıq mühitinə də ciddi xələl gətirir. Rusiya mediasında fəaliyyət göstərən bəzi ekspert, aparıcı və rəsmi şəxslərin ifadə etdiyi fikirlər siyasi tənqid çərçivəsindən tamamilə kənara çıxır.

İvan Knyazev, Semyon Uralov və Aleksey Çadayev kimi şəxslərin qatıldığı verilişlərdə Azərbaycanı "Ukrayna ssenarisi" ilə hədələmək, ölkənin parçalanması imkanlarını müzakirə etmək və hətta fiziki zorakılıq elementləri ehtiva edən təxribatçı fikirlər səsləndirmək, sadəcə, fərdi rəy hesab edilə bilməz. Bu cür yanaşmalar cəmiyyətlər arasında dostluq, qarşılıqlı etimad və sabitlik mühitini birbaşa zədələyir.




Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ölkəmizin regional mövqeyini daha da möhkəmləndirib, tam müstəqil xarici siyasət yürütmək imkanlarını nümayiş etdirib. Rəsmi Bakının əsas prinsipi milli maraqlara söykənən balanslaşdırılmış və çoxvektorlu siyasət həyata keçirməkdir. Türkiyə ilə müttəfiqlik, Rusiya ilə qonşuluq və tərəfdaşlıq, Avropa İttifaqı ilə enerji əməkdaşlığı və Mərkəzi Asiya dövlətləri ilə inteqrasiya bu kursun tərkib hissəsidir. Lakin görünən odur ki, ölkəmizin müstəqil siyasi xətti bəzi imperial təfəkkürlü dairələrdə qıcıq yaradır. Bu isə, yeni siyasi narazılıqları media təxribatına və dövlətçiliyə qarşı təhdidlərə çevirmək qəbuledilməzdir.

Yaranmış vəziyyətlə bağlı Azərbaycan dövləti öz prinsipial, adekvat və hüquqi mövqeyini aydın şəkildə nümayiş etdirir. Baş Prokurorluq tərəfindən milli ədavətin qızışdırılması, terrora açıq çağırışlar və dövlət əleyhinə yönəlmiş fəaliyyət faktları üzrə müvafiq cinayət işləri açılır, təxribatçılar barəsində qiyabi həbs qərarı çıxarılaraq beynəlxalq axtarışa verilməsi təmin edilir. Eyni zamanda baş verənlərə etiraz olaraq Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı Rusiyanın media məkanında Azərbaycan dövləti və xalqı əleyhinə aparılan təhdid, təhqir və təxribat ritorikasına görə rəsmi Bakının ciddi narahatlığı və qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılıb, bu cür hərəkətlərin qarşısının alınması üçün təxirəsalınmaz və təsirli tədbirlərin görülməsi gözləntisi ifadə olunub. Çünki media məkanında idarə olunan bu cür təxribatların cəzasız qalması, rəsmi müstəvidə lazımi reaksiya verilməməsi, əslində, həmin təhdidləri dolayısı ilə təşviq edir və nəticədə Rusiya-Azərbaycan siyasi münasibətlərinin özünə də mənfi təsir göstərir.

İki ölkə arasında münasibətlərin gələcəyi üçün ən doğru yol dezinformasiya və informasiya müharibəsi ssenarilərindən imtina etmək, qarşılıqlı suverenliyə, sərhədlərə və dövlətçilik seçiminə hörmətlə yanaşmaqdır. Bu tip zərərli və təxribatçı ritorikaya qarşı adekvat addımların atılması, hüquqi və siyasi məsuliyyət mexanizmlərinin tətbiq edilməsi regionda dinc və sabit qonşuluq mühitinin qorunması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan hər zaman regional sabitliyin, dinc yanaşı yaşamaq prinsiplərinin və qarşılıqlı hörmətə əsaslanan dialoqun tərəfdarı kimi çıxış edir. Ölkəmiz sağlam və konstruktiv münasibətlərin inkişafında maraqlıdır. Lakin konstruktiv dialoq və tərəfdaşlıq yalnız qarşılıqlı öhdəliklər və bir-birinin maraqlarına hörmət çərçivəsində mümkün ola bilər. Ona görə də Rusiya hökuməti daxildəki bəzi dairələrin ölkəmizə qarşı antitəbliğatının qarşısını almalı, təşkilatçıları cəzalandırmalıdır. Azərbaycan dövləti öz suverenliyini, ərazi bütövlüyünü və müstəqil siyasi kursunu heç bir təzyiqə və təhdidə güzəştə getməyəcək. Unutmaq olmaz ki, təzyiq və təhdid dili deyil, yalnız bərabərhüquqlu dialoq və qarşılıqlı etimad dövlətlərarası əlaqələrin sağlam gələcəyini təmin edə bilər.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Avropanın alternativsiz tərəfdaşıdır



Azərbaycan Respublikasının Avropa dövlətləri və regionun təsisatları ilə çoxtərəfli münasibətlərinin dinamik inkişaf trayektoriyası müasir beynəlxalq hüququn təməl prinsipləri - suveren bərabərlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı nöqteyi-nəzərindən strateji tərəfdaşlıq modelinin parlaq təcəssümüdür. Xüsusilə BMT Nizamnaməsinin 2-ci maddəsində təsbit edilmiş prinsiplər çərçivəsində formalaşan bu xarici siyasət kursu Avropa İttifaqı və ona üzv dövlətlərlə ikitərəfli və çoxtərəfli hüquqi bazanın möhkəmləndirilməsi, enerji təhlükəsizliyi, eləcə də geostrateji nəqliyyat dəhlizlərinin diversifikasiyası istiqamətində keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, Bakının Avropa ilə münasibətlərdə qazandığı bu strateji üstünlük və formalaşan mürəkkəb geoiqtisadi konfiqurasiya bilavasitə Prezident İlham Əliyevin müəllifi olduğu uzaqgörən, hüquqi əsaslara söykənən və praqmatik xarici siyasət doktrinasının məntiqi nəticəsidir: "Dövlət başçısının nümayiş etdirdiyi hücum siyasəti və yumşaq güc doktrunasına əsaslanan Lider diplomatiyası milli maraqlara söykənən prinsipiallıqla beynəlxalq konyunkturanın tələblərini sintez edərək, Azərbaycanı Avrasiya məkanında şərtləri diktə edən müstəqil güc mərkəzinə çevirib. Məhz Prezident İlham Əliyevin təşəbbüsü və siyasi iradəsi sayəsində nəinki transmilli enerji və nəqliyyat marşrutlarının hüquqi-siyasi arxitekturası qurulub, həm də regional güc balansı Azərbaycanın suverenliyi və milli təhlükəsizliyi xeyrinə dəyişib. 44 günlük Vətən müharibəsi və ardınca həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü beynəlxalq hüquq normalarına, xüsusən BMT Nizamnaməsinin fərdi və ya kollektiv özünümüdafiə hüququnu ehtiva edən 51-ci maddəsinə tam uyğun olaraq bərpa etməsi Cənubi Qafqazın geopolitik arxitekturasını köklü şəkildə dəyişib. Bu tarixi zəfərlər ölkənin hərbi-siyasi və geoiqtisadi güc imkanlarını keyfiyyətcə yeni səviyyəyə qaldırıb. Qazanılan qələbə yalnız hərbi üstünlüyün təzahürü deyil, həm də otuz ilə yaxın davam edən BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının kağız üzərində qalmış qətnamələrinin praktiki müstəvidə icrası kimi beynəlxalq hüquqi presedent yaradıb".



Deputat qeyd edib ki, regionda yaranmış bu yeni reallıqlar Avropa qitəsinin Azərbaycana baxış bucağını və strateji yanaşmasını da əsaslı surətdə transformasiyaya uğradıb. Başlanğıcda bəzi Avropa institutları tərəfindən müşahidə olunan qeyri-obyektiv və stereotipik yanaşmalar dəyişərək onları Bakının nümayiş etdirdiyi qətiyyətli iradə, transmilli layihələrin reallaşdırılmasındakı mərkəzi rolu və "Şərq-Qərb" nəqliyyat koridorundakı əvəzolunmaz mövqeyi qarşısında reallıqla barışmaq məcburiyyəti halına gətirib çıxarıb. İndi Avropa Azərbaycanı təkcə resurs tədarükçüsü kimi deyil, Cənubi Qafqazın sabitliyini təmin edən, Mərkəzi Asiya ilə Avropa arasında strateji körpü rolu oynayan müstəqil, suveren və sarsılmaz bir tərəfdaş kimi qəbul edir. Bu pozitiv dinamikaya baxmayaraq, Avropa Parlamentinin və Avropa Şurası Parlament Assambleyasının ayrı-ayrı dövrlərdə qəbul etdiyi qərəzli və birtərəfli qətnamələr beynəlxalq hüququn obyektivlik və neytrallıq prinsiplərinə zidd olmaqla, geosiyasi təzyiq xarakteri daşıyır. "Aydındır ki, sözügedən siyasi təsisatların tövsiyə xarakterli və icrası məcburi olmayan bu cür təşəbbüsləri müasir beynəlxalq münasibətlərin praqmatik reallıqları fonunda tamamilə uğursuz cəhdlərdən ibarətdir. Hüquqi baxımdan icraedici səlahiyyətə malik olmayan bu parlament strukturlarının bəyanatları, Avropanın aparıcı dövlətlərinin və Avropa Komissiyasının Azərbaycanla yürütdüyü realist, milli maraqlara söykənən ikitərəfli strateji tərəfdaşlıq kursuna ən azı elə qoca qitənin özünün maraqları fonunda xələl gətirə bilməz. Bakının geostrateji çəkisi, Avropanın enerji və logistika arxitekturasındakı artan mərkəzi mövqeyi bu cür daxili siyasi konyunkturaya hesablanmış subyektiv yanaşmaların strateji münasibətləri zədələməsinə imkan vermir. Avroatlantik məkanın enerji təhlükəsizliyi arxitekturasında Azərbaycanın getdikcə güclənən rolu geostrateji reallıqların və dəyişən qlobal enerji bazarlarının tələblərinə cavab verən sistemli hüquqi-siyasi konsepsiyaya söykənir. 2022-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə Avropa Komissiyası arasında Enerji Sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" ilə yeni keyfiyyət mərhələsinə qədəm qoyan bu əməkdaşlıq Avropanın ənənəvi enerji mənbələrindən asılılığını azaltmaqla yanaşı, regionun kollektiv təhlükəsizlik sisteminə etibarlı zəmanət verir. "Cənub qaz dəhlizi"nin əsas seqmentləri olan Trans-Anadolu və Trans-Adriatik boru kəmərlərinin tam ötürücülük gücü ilə fəaliyyət göstərməsi və artım perspektivi, eləcə də İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiyaya qaz nəqlinin genişləndirilməsi Azərbaycanı Şərqi və Cənub-Şərqi Avropanın fiziki və hüquqi enerji təminatçısına çevirib", - deyə o əlavə edib.

B. Məhərrəmov bildirib ki, Bakının qlobal enerji siyasətində nümayiş etdirdiyi iddialı "yaşıl gündəlik" və bərpaolunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalının kəskin artırılması strategiyası Azərbaycanı həm də uzunmüddətli perspektivdə Avropa qitəsi üçün unikal və alternativsiz tərəfdaş mövqeyinə yüksəldir. Beynəlxalq ekoloji hüquq normalarına, xüsusilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və Paris Sazişi öhdəliklərinə tam sadiq olan Azərbaycan COP29 kimi möhtəşəm qlobal platformalara evsahibliyi edərək, özünün ekoloji transformasiya iradəsini bütün dünyaya nümayiş etdirib. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi, Xəzər dənizinin nəhəng külək və günəş potensialının dövriyyəyə cəlb olunması, həmçinin xarici investorlarla imzalanan çoxmilyardlıq müqavilələr ölkənin elektrik enerjisi generasiyasını dəfələrlə artırır. Gürcüstan, Rumıniya və Macarıstan ilə birgə icra edilən Qara dənizin dibi ilə "Yaşıl Enerji Dəhlizi" sualtı kabel layihəsi Azərbaycanın istehsal edəcəyi ekoloji təmiz elektrik enerjisini birbaşa Avropa İttifaqının vahid enerji şəbəkəsinə inteqrasiya edəcək. Avropanın dekarbonizasiya və "xalis sıfır" hədəflərinə çatmasında bu layihə kritik rol oynadığı üçün Azərbaycan təkcə karbohidrogen deyil, məhz gələcəyin "yaşıl elektrik enerji"si təchizatçısı kimi Avropanın strateji asılılığını və ehtiyacını daha da artıq qarşılayır ki, bu da ölkəmizin regiondakı geoiqtisadi alternatvsizliyini qəti şəkildə möhkəmləndirir.

Deputat vurğulayıb ki, 1994-cü ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişindən başlayaraq, Şərq Tərəfdaşlığı təşəbbüsü və yenilənməkdə olan Hərtərəfli Tərəfdaşlıq Sazişi layihəsinə qədər uzanan hüquqi təkamül prosesi Azərbaycanın Avropa hüquq məkanına funksional inteqrasiyasını sürətləndirməklə yanaşı, Aİ-yə üzv 10-dan çox dövlətlə imzalanmış ikitərəfli strateji tərəfdaşlıq bəyannamələri vasitəsilə diplomatik münasibətlərin institusional dayanıqlılığını təmin edib: "Beynəlxalq humanitar hüquq və beynəlxalq xüsusi hüquq müstəvisində də Azərbaycan-Avropa münasibətləri bərabərhüquqlu dialoq prinsipinə söykənir. Ölkəmizin strateji coğrafi mövqeyi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mərkəzi halqasını təşkil etməsi ilə birgə Avropa İttifaqının "Global Gateway" strategiyası ilə tam üst-üstə düşür. Yaranmış bu yeni geopolitik reallıqlar fonunda Azərbaycanın Avropanın ticarət-iqtisadi, logistik və enerji təhlükəsizliyi sisteminə dərindən inteqrasiya olunması tərəflər arasında həm çoxtərəfli beynəlxalq konvensiyalar, həm də ikitərəfli öhdəliklər çərçivəsində qarşılıqlı maraqlara söykənən uzunmüddətli və dayanıqlı strateji tərəfdaşlığın davamlılığını sarsılmaz edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dünyada kibertəhlükəsizlik problemi ciddiləşir

Hazırkı dövrdə həyatımızın hər bir sahəsi rəqəmsal platformalara daşınıb. Bank hesablarımız, dövlət sənədlərimiz, şəxsi yazışmalarımız və iş həyatımız bulud texnologiyalarında qorunur. Lakin bu rahatlıq özü ilə böyük təhlükələr də gətirir. Son illərdə müşahidə olunan kiberhücumlardan aydın olur ki, dünyadakı kibertəhlükəsizlik problemi artıq sadə fərdlərin problemi olmaqdan çıxıb. Bu, bütün dövlətlərin milli təhlükəsizliyinə hədəf olan qlobal böhrana çevrilib.



Demək olar ki, xaker qrupları ənənəvi üsulları unudaraq tamamilə yeni, süni intellektə və avtomatlaşdırmaya əsaslanan hücum taktikalarına keçiblər. Dövlət qurumları, nazirliklər, vergi idarələri, nəhəng şirkətlər və sair kiberhücumların qurbanı olurlar. Ən inkişaf etmiş ölkələr belə bu hücumların qarşısında aciz qala bilirlər. Kibercinayətkarlar milyonlarla insanın şəxsi məlumatlarını ələ keçirir və bunlar qaranlıq internetdə satılır. Vəziyyət o həddə çatıb ki, kibertəhlükəsizlik artıq hər bir ölkənin sərhədlərini qorumaq qədər vacib bir məsələdir.

Fransa son aylarda ən miqyaslı kiberhücumlarla üzləşib. Ölkənin strateji əhəmiyyət daşıyan dövlət qurumları güclü zərbələr alıb. Həmin hücumlar dövlət sistemlərindəki boşluqları və rəqəmsal müdafiənin nə qədər kövrək olduğunu ortaya qoyub. Fransa Milli Təhsil Nazirliyi xakerlərin əsas hədəflərindən biri olub. Hücum nəticəsində təxminən 350 milyon hesab rəqəmsal oğruların əlinə keçib. Fransa Dövlət Maliyyə İdarəsindən 700 mindən çox insanın şəxsi məlumatları, o cümlədən milyonlarla kadastr faylı oğurlanıb. Vətəndaşların aylıq gəlirləri, daşınmaz əmlakları, ailə vəziyyətləri və vergi dərəcələri kimi ən gizli maliyyə məlumatları kənar şəxslər tərəfindən oxunub. Baş verən başqa bir hücumda isə 678 mindən çox vətəndaşın məlumatı bir anda sızdırılıb. Fransa mətbuatının yaydığı məlumatlara görə, vergi idarəsi ilə yanaşı, Daxili İşlər Nazirliyi, "France Travail" məşğulluq agentliyi, URSSAF sosial təminat agentliyi, İmmiqrasiya İdarəsi və "France Titres" sənəd təhlükəsizliyi qurumu da kiberhücumlara məruz qalıb. Bütün bu hücumların arxasında "ZeroBytes" adlı təhlükəli xaker qrupunun durduğu bildirilir. Həmin qrup dövlət qurumlarının ən dərin qoruma qatlarını belə yarıb keçməyi bacarıb.

Fransa Maliyyə İdarəsinə edilən hücumda ən təəccüblü məqam odur ki, xakerlər, adətən, çox güclü sayılan ikimərhələli təsdiqi və telefona gələn kodları belə keçə biliblər. İllərdir düşünürdük ki, bu kodlar sistemi tam qoruyur, amma xakerlərin üsulları da getdikcə dəyişir. Hücumçular sistemlərə daxil olmaq üçün müxtəlif hiylələrdən istifadə edirlər. Onlar fişinq üsulu ilə saxta e-poçtlar və rəsmi qurum adından göndərilən mesajlar vasitəsilə istifadəçilərin şifrələrini oğurlayırlar. Sistem oğurluğu zamanı isə istifadəçi sistemdə açıq qalan sessiya tokenləri vasitəsilə izlənilir və onun adından gizlicə əməliyyatlar aparılır. Xakerlər müəyyən üsul ilə istifadəçiyə dayanmadan saxta təsdiq sorğuları göndərərək onu yorur və yanıltmaqla səhvən "təsdiq et" düyməsini sıxmağa məcbur edirlər. Həmçinin sosial mühəndislik yolu ilə insan psixologiyasından istifadə olunur və işçilərdən lazımi məlumatlar hiylə ilə alınır. Bütün bu üsullar göstərir ki, təkcə bir texnologiyaya güvənmək tam təhlükəsizliyi təmin etmir, çünki xakerlər əsasən insan faktorunu və zəif nöqtələri hədəf alırlar.

Bir çox insan məlumatları sızdıqdan sonra problemin bitdiyini düşünürlər. Lakin əsl təhlükə məhz məlumatlar xakerlərin əlinə keçdikdən sonra başlayır. Oğurlanan ad, soyad, doğum tarixi, ünvan və vergi məlumatları birləşdirildikdə kibercinayətkarlar üçün qızıl mədəni yaranır. Bu baxımdan təhlükə bitmir, əksinə daha da böyüyür. İlk olaraq, şəxsiyyət-sima oğurluğu baş verir və oğurlanan məlumatlar əsasında fərdlərin rəqəmsal əkizləri yaradılaraq onların adından saxta müqavilələr və bank əməliyyatları həyata keçirilir. Bundan başqa, hədəfli fişinq hücumları vasitəsilə vətəndaşlara onların real vergi borclarını və ya adlarını əks etdirən çox inandırıcı saxta mesajlar göndərilir, çünki insan öz adını gördükdə şübhələnmir və asanlıqla tələyə düşür. Həmçinin sosial mühəndislik tələləri qurulur, fırıldaqçılar həmin şəxslər haqqında hər şeyi əvvəlcədən bildikləri üçün onlara zəng edib özlərini dövlət məmuru kimi təqdim edirlər və daha böyük pullar tələb edə bilirlər.

Fransada baş verən bu hadisələr bütün dünya dövlətləri və şirkətləri üçün ciddi xəbərdarlıq mesajıdır. Kibertəhlükəsizlik tək bir şifrədən, bir antivirus proqramından və ya tək bir divardan ibarət deyil. Müdafiə sistemi qala divarları kimi qat-qat olmalıdır. Gələcəkdə belə təhlükələrin qarşısını almaq üçün təşkilatlar bir sıra vacib tədbirlər görməlidirlər.

İlk olaraq, kimlik təhlükəsizliyi gücləndirilməlidir və yalnız parol kifayət olmadığı üçün ZTNA (Sıfır Etimad Şəbəkə Giriş Sistemi) ilə şərti giriş siyasətləri tətbiq olunmalıdır. İkinci növbədə, ən az ayrıcalıq prinsipi işləməlidir ki, hər bir işçi, sadəcə, öz işinə aid olan minimum məlumat və sistemlərə daxil ola bilsin və bütün şəbəkə heç vaxt bir nəfərə tam açılmasın. Üçüncü addım kimi, istifadəçilər mütləq maarifləndirilməli, işçilər saxta e-poçtlar və fişinq hücumları barədə məlumatlandırılaraq mütəxəssislər tərəfindən vaxtaşırı təlimlərdən keçirilməlidirlər. Dördüncü davamlı izləmə həyata keçirilməlidir və şübhəli hərəkətlərin erkən aşkarlanması üçün SIEM kimi qabaqcıl izləmə sistemləri qurularaq zərərin qarşısı vaxtında alınmalıdır. Nəhayət, hər bir qurumun əvvəlcədən hazırlanmış dəqiq hadisəyə müdaxilə planı olmalıdır ki, hər hansı bir hücum baş verdiyi anda necə hərəkət ediləcəyini dəqiq bilsinlər.

Dünyada kibertəhlükəsizlik böhranı hər gün dərinləşir və getdikcə daha təhlükəli xarakter alır. Fransa hökuməti bu hücumlardan sonra dövlət qurumlarının təhlükəsizliyini artırmaq üçün süni intellekt sistemlərinin tətbiqinə başlayıb. Lakin texnologiya nə qədər güclü olsa da, zəncirin ən zəif halqası hər zaman insandır. Kiçik diqqətsizlik, bir səhv klik milyonlarla vətəndaşın taleyinə təsir edə bilər. Rəqəmsal əsrdə yaşayırıqsa, təhlükəsizliyimizi də bu dövrün qaydalarına uyğun olaraq maksimum səviyyədə qorumalıyıq. Ehtiyatı heç vaxt əldən vermək olmaz.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*



# Orta əsr Azərbaycan memarlığının qiymətli yadigarı - Şirvanşahlar sarayı

Hər şəhərin öz siması olduğu kimi, həm də öz yaddaşı var. Bu yaddaş bəzən bir qala divarında, bəzən qədim məscidin daş kitabəsində, bəzən də əsrlər boyu küləyə, yağışa, zəlzələlərə sinə gərmiş bir sarayın divarlarında yaşayır. Azərbaycan memarlığının bu nadir, tarixi numunələrini inşa edənlər onun xarici görünüşünün cəlbediciliyini, gözəlliyini düşünməklə yanaşı, təbii relyefə uyğunluğunu, təbiətin şıltaqlıqlarına dözümlülüyünü də nəzərə alıblar. Odur ki, tarixin keşməkeşli zamanlarının onları məhv etməyə gücü çatmayıb.

2026-cı ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin nadir memarlıq incilərinə yalnız bu günün gözü ilə deyil, keçmişin dəyərli nişanələri kimi yenidən baxmaq imkanı verib. Bu qərar xalqımızın tarixinin, mədəniyyətinin zənginliyini əks etdirən milli-mədəni irsimizin öyrənilməsinin, qorunmasının, tanıdılmasının vacibliyini bir daha diqqətə gətirib.

Orta əsr Azərbaycan memarlığının ən qiymətli yadigarlarından biri olan Şirvanşahlar sarayı Bakının tarixini, dövlətçilik ənənələrini və şəhərsalma mədəniyyətini bu günə çatdıran, tayı-bərabəri olmayan memarlıq ansamblıdır. Saray Şirvanşahlar dövlətinin hökmdarlarının Bakıdakı iqamətgahı olub. Kompleksin formalaşması uzun tarixi dövrü əhatə edir və onun ayrı-ayrı tikililəri əsasən XIV-XVI əsrlər arasında inşa edilib. Kompleksə saray binası ilə yanaşı, divanxana, Şirvanşahlar türbəsi, Şah məscidi, Seyid Yəhya Bakuvinin türbəsi, saray hamamı, ovdan, Murad darvazası və Keyqubad məscidinin qalıqları daxildir.

Sarayın inşa olunması Şirvan dövlətinin tarixində baş verən mühüm siyasi hadisələrlə sıx bağlıdır. 1192-ci ildə Şamaxıda baş vermiş güclü zəlzələdən sonra Şirvanşah I Axsitanın iqamətgahını Bakıya köçürməsi şəhərin siyasi əhəmiyyətinin artmasına səbəb olub. XV əsrdə Bakının iqtisadi və siyasi mövqeyinin daha da güclənməsi ilə Şirvanşah I Xəlilullahın hakimiyyəti dövründə saray kompleksinin əsas hissələrinin tikintisi geniş vüsət alıb.

Kompleksin ayrı-ayrı binaları müxtəlif dövrlərdə meydana gəlsə də, onların arasında güclü memarlıq və kompozisiya bütövlüyü mövcuddur. Şirvan-Abşeron memarlıq məktəbinin ənənələrinə əsaslanan ustalar yerli əhəngdaşından istifadə etməklə monumental və zərif tikililər yaradıblar. Kubik həcmli binalar, günbəzlər, portallar, daş üzərində oyma naxışlar və müqərnəs elementləri kompleksin bədii simasını müəyyən edir.

Saray binası mürəkkəb memarlıq quruluşuna malikdir. Tarixi məlumatlara görə, binada ilkin olaraq 52 otaq olub. Onlar dar və dolama pilləkənlərlə bir-biri ilə əlaqələndirilib. İkinci mərtəbədə yerləşən səkkizbucaqlı qəbul zalı sarayın ən diqqətçəkən hissələrindən biridir. Zalların və otaqların yerləşmə xüsusiyyətləri burada həm dövlət qəbullarının keçirildiyini, həm də hökmdar ailəsinin yaşadığını göstərir.

Kompleksin mühüm memarlıq nümunələrindən biri divanxanadır. Bu tikilinin funksiyası barədə müxtəlif fikirlər mövcuddur. Onun dövlət şurası, qəbul və ya məhkəmə məqsədləri üçün istifadə edildiyi ehtimal olunur. Divanxananın memarlıq həlli Şirvan-Abşeron məktəbinin yüksək bədii və texniki imkanlarını nümayiş etdirir.

Şirvanşahlar türbəsi isə kompleksin həm tarixi, həm də dini-memorial baxımdan xüsusi əhəmiyyət daşıyan hissəsidir. Türbə Şirvanşah I Xəlilullahın hakimiyyəti dövründə - 1435-1436-cı illərdə inşa edilib. Kitabədə tikilinin I Xəlilullah tərəfindən anası və oğlu üçün ucaldığı bildirilib. Buranın zəngin portal bəzəkləri, daş işləmələri və günbəzli quruluşu Orta əsr Azərbaycan memarlığının yüksək səviyyəsini nümayiş etdirir.

Kompleksin digər mühüm abidəsi Şah məscididir. Məscidin minarəsi üzərindəki kitabə onun 1441-1442-ci illərdə Şirvanşah I Xəlilullahın əmri ilə inşa edildiyini göstərir. Məscidin ibadət zalı günbəzlə örtülüb, memarlıq quruluşunda həm estetik, həm də konstruktiv həllərdən istifadə edilib. Məscid və türbə arasında olan memarlıq əlaqəsi kompleksin ümumi kompozisiyasını daha da tamamlayır.

Sarayın cənubunda yerləşən Seyid Yəhya Bakuvinin türbəsi də xüsusi maraq doğurur. XV əsrin ikinci yarısında inşa edildiyi ehtimal olunan bu səkkizbucaqlı tikili saray alimi, filosof və mütəfəkkir Seyid Yəhya Bakuvinin adı ilə bağlıdır. Onun elm, fəlsəfə, tibb, riyaziyyat və astrologiya sahələrində fəaliyyəti Azərbaycan elmi-mədəni tarixində mühüm iz qoyub. Seyid Yəhya Bakuvi Dərviş türbəsi kimi də tanınır.

Şirvanşahlar sarayının tarixində müxtəlif siyasi hadisələrin izləri də qalıb. XVI əsrin sonlarında Osmanlıların Bakı üzərində hakimiyyəti dövründə sarayın şərq hissəsində Murad darvazası inşa edilib. Darvazanın üzərindəki kitabə onun 1585-1586-cı illərdə yerli əyan Rəcəb babanın əmri ilə tikildiyini göstərir. Bu abidə saray kompleksinin müxtəlif siyasi və mədəni dövrlərin memarlıq izlərini özündə birləşdirir.

Sonrakı əsrlərdə saray müxtəlif dəyişikliklərə və dağıntılara məruz qalıb. XVIII əsrdə Bakının bombardmana tutulması zamanı sarayın cənub-şərq fasadı zədələnib. XIX əsrdə isə Rusiya imperiyasının Hərbi Nazirliyinin istifadəsinə verilən kompleksdə uyğunlaşdırma məqsədilə bir sıra dəyişikliklər aparılıb. Bu müdaxilələrin bir qismi abidənin ilkin memarlıq görünüşünə ciddi təsir edib.

XX əsrin əvvəllərindən etibarən Şirvanşahlar sarayının tarixi-memarlıq abidəsi kimi qorunması istiqamətində məqsədyönlü tədbirlər görülməyə başlanıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə sarayın ölçmə çertyojlarının hazırlanması onun elmi əsaslarla öyrənilməsi baxımından mühüm addım olub. 1920-ci ildən sonra saray ərazisində təmizləmə, arxeoloji araşdırma və bərpa işləri həyata keçirilib.

Ötən əsrin 30-cu illərində aparılan bərpa işləri, eləcə də 1937-1938-ci illərdə həyata keçirilən arxeoloji qazıntılar kompleksin tarixinin öyrənilməsinə böyük töhfə verib. Qazıntılar zamanı müxtəlif dövrlərə aid keramika nümunələri, sikkələr və digər arxeoloji materiallar aşkar edilib. Tədqiqatlar göstərib ki, saray kompleksinin yerləşdiyi ərazidə daha qədim yaşayış məskənləri də mövcud olub.

1964-cü ildə Şirvanşahlar Sarayı Kompleksi dövlət tarixi-memarlıq qoruq-muzeyinə çevriləndən sonra burada müxtəlif bərpa və konservasiya tədbirləri həyata keçirilib, 1990-cı illərdən etibarən isə kompleksin restavrasiyasına yenidən xüsusi diqqət göstərilib.

Şirvanşahlar sarayının əhəmiyyəti 2000-ci ildə unikal memarlıq və mədəniyyət kompleksinin - Bakının qala divarları ilə əhatə edilmiş tarixi hissəsinin (İçərişəhər, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksinin) UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi ilə bir daha təsdiq olunub. Bununla saray yalnız Azərbaycanın deyil, bəşəri mədəni irsin mühüm nümunələrindən biri kimi beynəlxalq səviyyədə tanınıb. 2001-ci ildə isə Nazirlər Kabinetinin qərarı ilə Şirvanşahlar sarayı dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb.

Bu gün Şirvanşahlar sarayı Azərbaycanın dövlətçilik və memarlıq tarixinin canlı salnaməsi kimi öz əhəmiyyətini qoruyur. Onun daş divarlarında Orta əsr Azərbaycan memarlarının sənəti, əsrlərin tarixi yaşayır. Kompleksin hər bir tikilisi - saray binası, divanxana, Şah məscidi, türbə, hamam və digər memarlıq nümunələri Azərbaycanın zəngin keçmişini əks etdirir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Vandalizmə məruz qalmış mədəni irsimiz



Mədəni irsimiz millətin kimliyinin tarixi yaddaşının və gələcək nəsillərə ötürüləcək dəyərlərin əsasını təşkil edir. Mədəni irs yalnız tarixi abidələr toplusu deyil, həm də xalqın yaddaşında iz buraxan gələcək nəsillərə ötürülən kimliyimizdir.

Azərbaycan xalqının çox qədim və zəngin keçmişini öyrənmək üçün tarixi abidələrin böyük əhəmiyyəti var. Bu abidələr vasitəsilə əcdadlarımızın yaşayışını, təsərrüfat həyatını və mədəniyyətini öyrənmək mümkündür. Hər il respublikamızın müxtəlif guşələrində arxeoloji ekspedisiyalar nəticəsində tarixi keçmişimizin unudulmuş, torpaq altında gizlənmiş abidələri aşkar edilir.

Tarixi abidələrin qədimliyinə və müxtəlifliyinə görə respublikamızda Qazax rayonu xüsusi yer tutur və abidə zənginliyi baxımından Qazax ərazisi müqayisəedilməzdir. Rayonun ərazisində qazıntı işləri aparmış arxeoloqlarımızın fikrincə, burada tapılan bəzi abidələrin əhəmiyyəti olduqca vacibdir. Bu abidələr fonunda bütün bəşəriyyətin təkamül prosesini aydın görmək olar.

Qazaxda min illərin tarixini yaşadan qədim yaşayış yerləri, abidələr vardır. Burada olan mağaralar, möhtəşəm qalalar, türbələr, məbədlər və s. kimi abidələr Qazaxın tarixi zənginliyindən xəbər verir. Həmin tarixi abidələri qorumaq, onları gələcək nəsillərə çatdırmaq məqsədilə 1989-cu il fevralın 22-də Azərbaycan Nazirlər Sovetinin 99 № li qərarı ilə "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılmış, qoruğa 3613 hektar (ha) ərazi ayrılmışdır.

Qoruq zəngin tarixi memarlıq və arxeoloji abidələr diyarı kimi ən qədim daş dövrünün yadigarı olan "Avey" məbədinin adı ilə adlandırılıb. "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun nəzdində "Yuxarı Əskipara", "Damcılı" və "Göyəzən" filialları da fəaliyyət göstərir.

Qazaxın ən gözəl, səfalı kəndərindən biri olan Yuxarı Əskipara kəndi dağətəyi ərazidədir. Keçmiş adı Əskiparadır. Ondan yaranan yeni məntəqə Aşağı Əskipara, əvvəlki kənd isə Yuxarı Əskipara adlandırılmışdır. Azərbaycan dilindəki "əski" (köhnə, qədim) və "para" (yer, kənd, hissə) sözlərindən ibarət olub "köhnə, qədim kənd" mənasındadır.

Qoruğun "Yuxarı Əskipara" filialı 2783 hektar ərazisi olmaqla bütöv kəndi əhatə edir. Çox təssüf ki, qoruğun "Yuxarı Əskipara" filialının ərazisinə daxil olan çox sayda tarixi abidəmiz erməni vandalizminin qurbanına çevrilib. Qazax rayonunun Yuxarı Əskipara (08.06.1992) və Aşağı Əskipara (14.06.1992) kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Kəndlərdə yerləşən abidələrin əksəriyyəti hələ işğal vaxtı kəndlər yandırılarkən məhv olunmuşdur. Yuxarı Əskipara və Aşağı Əskipara kəndlərində dövlət qeydiyyatına götürülmüş 14, qeydiyyata alınmamış onlarca abidəmiz var idi.



1949-1950-ci illərdə aparılan tədqiqatlar nəticəsində və 1970-ci illlərdə davam etdirilən arxeoloji qazıntılar zamanı Yuxarı Əskipara kəndində V-Vl əsrlərə aid qədim şəhərcik , V-VII əsrlərə aid Alban məbədi və XII əsrə aid yeraltı su kəməri və körpülər, XVI əsrə aid Şəhərgah qalası, Xalxal şəhərinin bir hissəsi, qədim hamamlar, dəyirman və sair qədim tikililər var idi. Kənddə aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, Yuxarı Əskiparada olan evlərin çoxu qədim yaşayış məskənləri və tikililər üzərində inşa edilmişdir. Burada aşkar edilən qədim şəhərdən Albanlara məxsus əlifba və bəzəklər olan qəbir daşları tapılmışdır.Çox təəssüflər olsun ki, bu ərazilərdə uydurma tarixlərini yazmaq üçün ermənilər qədim daşları daşıyıb apararaq mənimsəyiblər.

Yuxarı Əskipara kəndi Azərbaycanın qədim tarixini və zəngin mədəni irsini özündə yaşadan mühüm yaşayış məntəqələrindən biridir. Kənd ərazisində yerləşən çoxsaylı abidə ona "tarixi abidələr diyarı" deməyə əsas verir. Ən mühüm abidələrdən biri V-VIII əsrlərə aid Qafqaz Albaniyasına məxsus məbəddir. Qırmızı tuf daşdan tikilmiş bu möhtəşəm tikilinin Alban hökmdarlarının iqamətgahı olduğu ehtimal edilir. Lakin sovet dövründə bu və digər Alban abidələri kifayət qədər araşdırılmamış, bəziləri dəyişdirilmişdir.

Kənddə XVII əsrə aid Əskipara qalası (Dördkünc qala) da yerləşir. Coğaz çayı sahilində tikilmiş bu üçmərtəbəli qala müdafiə məqsədli gözətçi məntəqəsi olmuşdur və Orta əsr memarlığının qiymətli nümunəsidir. Yuxarı Əskiparada yeraltı yol, yeraltı su kəməri, həmçinin körpülər (Qatır, Kazım, Qulucanlı və s.) mövcuddur. Bundan əlavə, isti mineral bulaqlar üzərində tikilmiş hamamlar və VI-IX əsrlərə aid Qalakənd məbəd kompleksi də kəndin tarixi əhəmiyyətini artırır.

Bütün bu abidələr Yuxarı Əskiparanın Azərbaycanın ən zəngin tarixi məkanlarından biri olduğunun və bu ərazinin yalnız bir kənd deyil, eyni zamanda Azərbaycanın qədim tarixini, mədəniyyətini və memarlıq ənənələrini özündə yaşadan nadir bir irs məkanı olduğunun sübutudur.

Sevindirici haldır ki, 2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında şərti sərhəddə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə birgə komissiyanın növbəti iclası keçirildi və nəticədə hər iki tərəf arasında sərhəd ərazilərinin ilkin delimitasiyası üzrə razılığa gəlindi. Azərbaycanın 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 kəndinin geri qaytarılmasına razılıq verildi. Bununla da Ermənistan öz silahlı qüvvələrini Azərbaycanın Bağanıs-Ayrım, Xeyrımlı, Aşağı Əskipara və Qızılhacılı kəndlərindən çıxardı.

Nəhayət ki, 2020-ci ildə işğal altındakı torpaqlarımızın azad edilməsi ilə yanaşı, bu kəndlərdə olan tarixi abidələr də öz azadlığına qovuşdu. Uzun müddət ərzində vandalizmə məruz qalan abidələrin taleyindən xəbərsiz olmağımız bu abidələrin qorunması və təbliğatında bizləri çox böyük çətinliklərlə üz-üzə qoymuşdur.

Çox yaxın günlərdə Qazaxın üç anklav kəndinin- Yuxarı Əskipara, Barxudarlı və Sofulu kəndlərinin də işğaldan tam azad olunması gözlənilir. Tezliklə əsirlikdən azad olunan torpaqlarımıza qayıdacaq və öz tarixi keçmişimiz olan abidələrimizə qovuşacağıq.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdəki tarixi abidələrin işğalçılar tərəfindən dağıdılması, buradakı mədəni irsimizin mənimsənilməsi, Alban abidələrinin ermənilər tərəfindən özününküləşdirilməsi faktlarını araşdırırıq. Abidələrimizi yenidən əvvəlki görünüşünə qaytarmaq, onların bərpası və konservasiyası məsələləri, həmçinin yerli və beynəlxalq arenada təbliği, yetişməkdə olan gənc nəsli bu məsələlərlə məlumatlandırmaq əsas vəzifələrimizdəndir.

*Növrəstə BİNNƏTOVA, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun "Yuxarı Əskipara" filialının müdiri*

# Cəbrayılda uşaqlar və yeniyetmələr üçün yaradıcılıqla bağlı ustad dərsləri təşkil edilib

"Müasir Yaradıcılığa Dəstək" İctimai Birliyi tərəfindən həyata keçirilən "Yenidən doğulan torpağın övladları" adlı yaradıcılıq master-klasları layihəsi çərçivəsində Cəbrayıl rayonunun Horovlu kəndində uşaqlar və yeniyetmələr üçün silsilə ustad dərsləri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi Qarabağ və Şərqi Zəngəzurda doğma yurdlarına qayıdan uşaqların asudə vaxtlarının səmərəli və məzmunlu təşkil edilməsi, onların yaradıcılıq potensialının üzə çıxarılması, sosiallaşmasına və sağlam həyat tərzi vərdişlərinin formalaşmasına dəstək göstərilməsidir.

Ustad dərslərinə Cəbrayıl, Horovlu kəndi və ətraf ərazilərdən uşaqlar və yeniyetmələr cəlb olunublar. Layihə çərçivəsində proqram beş əsas istiqaməti - rəsm, ədəbiyyat, teatr, musiqi və sağlam həyat tərzini əhatə edib.

Layihə çərçivəsində rəssam və tədbir təşkilatçısı Nurlana Hacıyevanın iştirakı ilə məktəblilər üçün "Rəsm" ustad dərsi də keçirilib. Dərsin nəzəri hissəsində uşaqlara rəssamlıq sənəti, tanınmış rəssamlar, rəsmçəkmə texnikaları, eləcə də bu sahədə istifadə olunan alət və ləvazimatlar barədə məlumat verilib. Nurlana Hacıyeva təcrübəsini iştirakçılarla bölüşərək, onların rəssamlığa marağının artırılmasına töhfə verib. Praktiki hissədə uşaqlar kətan və kağız üzərində rəsmçəkmə qaydalarını öyrənib, müxtəlif mövzularda yaradıcı işlər hazırlayıblar. İştirakçılar Xarıbülbül, Cəbrayıl rayonunun xəritəsi, natürmort, peyzaj, Pablo Pikassonun "Sülh göyərçini", "Dəmir yumruq", "Azərbaycan bayrağı və əsgəri", eləcə də "Ürək" mövzularında kompozisiyalar çəkib və rəngləyiblər. Bununla yanaşı, uşaqlar müxtəlif dizayn həllərindən istifadə etməklə maraqlı kollajlar da hazırlayıblar.

Rəsm ustad dərsinin əsas məqsədi uşaqların əl bacarıqlarının və bədii təxəyyülünün inkişafına dəstək olmaq, onları



peşəkar rəssamların yaradıcılığı ilə yaxından tanış etməkdir.

Uşaqlar üçün "Ədəbiyyat" mövzusunda keçirilən ustad dərsi də iştirakçıların böyük marağı ilə qarşılanıb. Dərsin əvvəlində Bakı şəhərindən canlı bağlantı yaradılıb və onlayn rejimdə Hüseyn Cavidin ev-muzeyi nümayiş etdirilib. Uşaqlara muzeyin otaqları, unikal eksponatları və Hüseyn Cavidin həyat yolu haqqında ətraflı məlumat verilib. Daha sonra iştirakçılara müəyyən vaxt limiti çərçivəsində "Dirçələn yurdum" mövzusunda inşa yazmaq tapşırılıb. Uşaqlar öz əsərlərində arzularını, doğma yurda bağlılıqlarını və səmimi düşüncələrini əks etdiriblər. Dərsin sonunda Hüseyn Cavidin ev-muzeyi tərəfindən uşaqlara çoxsaylı kitablar, not dərslikləri və digər hədiyyələr təqdim olunub.

Layihə çərçivəsində tanınmış beynəlxalq idman jurnalisti, fitnesoloq və "Fitnes nədir" kitabının müəllifi Əkbər Kərimovun iştirakı ilə uşaqlar üçün "Sağlam həyat tərzi" mövzusunda ustad dərsi də təşkil olunub.

Nəzəri və praktiki hissələrdən ibarət olan təlim uşaqların böyük marağına səbəb olub. Təlimin əvvəlində Əkbər Kərimov sağlam həyat tərzinin əsas prinsipləri barədə məlumat verərək təcrübəsini iştirakçılarla bölüşüb. Tədbirin praktiki hissəsində uşaqlara sağlamlıq üçün sadə və faydalı gimnastik təmrinlər öyrədilib, onlarla birlikdə idman məşğələsi keçirilib. Tədbirin sonunda müəllifin "Fitnes nədir" kitabından xüsusi olaraq hazırlanmış "Uşaq fitnesi" mövzusunun çap versiyası uşaqlara təqdim olunub.

Teatr üzrə ustad dərsini Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissoru, Prezident mükafatçısı Ayla Osmanova keçib. Dərs zamanı iştirakçılar Azərbaycan teatrı və milli səhnə obrazları ilə tanış olub, müxtəlif aktyor və səhnə məşqlərində iştirak ediblər. Uşaqlar obraz yaratmaq, səhnədə özünü ifadə etmək və teatr dili ilə bağlı praktiki tapşırıqlar yerinə yetiriblər.

Musiqi üzrə ustad dərsi Avropa Gənclər Olimpiadasının səfiri Tofiq Hacıyevin iştirakı ilə keçirilib. İnteraktiv oyunlar vasitəsilə Azərbaycan musiqisinin zəngin ənənələri və musiqinin insan həyatındakı rolu haqqında məlumat verilib. Tədbir zamanı bir neçə uşaq öz ifasını da təqdim edib.

Layihəyə cəlb olunmuş uşaqlar və yeniyetmələrə fəal iştiraklarına görə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, layihə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirilir.




● Günahsızlar

# 29 illik ömrün əbədi nəğməsi - Müşfiq poeziyası



**1930-cu illərin qanlı Stalin repressiyası Azərbaycanın intellektual elitasını, milli təfəkkürün ən parlaq simalarını bir-birinin ardınca məhv etməkdə idi. Bu dəhşətli təmizləmə dalğası təkcə siyasi rəqibləri deyil, həm də azad düşüncənin, poeziyanın və sənətin saf səsini hədəfə almışdı.**

O dövrün qaranlıq mühitində qəlblərə işıq saçan, Azərbaycan ədəbiyyatına yeni bir nəfəs, lirik bir fırtına gətirən gənc şair Mikayıl Müşfiqin taleyi isə bu faciənin ən ağrılı-acılı səhifəsinə çevrildi. Hələ yaradıcılığının, gəncliyinin və arzularının ən uca zirvəsində ikən sovet rejimi tərəfindən hədəf seçilən 29 yaşlı şair, millətin ruhunu boğmaq istəyən totalitar sistemin ən amansız qurbanlarından biri oldu. Onun nakam ömrü Azərbaycan ziyalısının çəkdiyi iztirabların və sarsılmaz ruhun əbədi bir abidəsinə çevrildi.

## Müşfiqin yaradıcılıq zirvəsi

Mikayıl Müşfiq yaradıcılığı - Azərbaycan dilinin ən zərif, ən musiqili və ən poetik ifadə formasıdır. Onun şeirləri zamanın fövqündə dayanaraq sovet rejiminin yaratdığı ideoloji buxovları qırmağı bacarmış, oxucunun qəlbinə birbaşa yol tapmışdı. Şairin yaradıcılığının əsas qayəsini və ruhunu insan amili, təbiət gözəlliyi və tükənməz bir gənclik enerjisi təşkil edir. Onun ilk qələm təcrübələrindən etibarən bədii təfəkküründəki fərqlilik, lirik duyğuların səmimiliyi dərhal diqqət çəkirdi. "Küləklər", "Günün səsləri", "Şeirlər" kimi poetik toplularında verilən əsərlərində, sadəcə, qafiyə düzmür, sözlərə rəsm çəkir, musiqi bəstələyirdi. Onun poeziyası o qədər axıcı və ritmik idi ki, sanki hər bir misra öz-özlüyündə bir mahnı variantı idi. Müşfiq sərbəst şeirin və heca vəzninin ən gözəl nümunələrini yaratmışdı. Azərbaycan poetik formalarını zənginləşdirmiş, ona yeni nəfəs və sərbəstlik vermişdi.

Şairin yaradıcılığında milli yaddaşın, xalq mədəniyyətinin qorunması məsələsi hər zaman xüsusi yer tuturdu. Bunun ən parlaq sübutu onun məşhur "Oxu, tar!" poeması idi. Şairin "Şahqulu", "Səhər", "Çoban" və digər poemaları Azərbaycan ədəbiyyatında epik, lirik janrın ən mükəmməl nümunələridir. Müşfiq insan psixologiyasını, daxili sarsıntıları və sevgini elə ustalıqla təsvir edirdi ki, onun qəhrəmanları oxucu üçün doğma və canlı personajlara çevrilirdilər.

Mikayıl Müşfiqin "Ana" şeiri (1927) Azərbaycan poeziyasında ana mövzusuna həsr olunmuş ən təsirli və kədərli şedevrlərdən biri hesab olunur. Əsərin bu qədər dərin, ürəyə toxunan və səmimi olmasının arxasında şairin şəxsi həyatının böyük bir faciəsi dayanır:

*Ana dedim, ürəyimə yanar odlar saçıldı,*
*Ana dedim, bir ürpəriş hasil oldu canımda,*
*Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,*
*Ana dedim, fəqət onu görməz oldum yanımda.*

*Ana, ana!... Bu kəlmənin vurğunuyam əzəldən,*
*Onu gözəl anlatamaz düşündüyüm satırlar.*
*Ana olmaz bizə hər bir "yavrum" deyən gözəldən,*
*Çünki onun xilqətində ayrıca bir füsun var.*

*Başqa aləm yaşamadım böylə gözəl biçimdə,*
*Onu kimsə gözəlliyin cilvəsində yaratmış;*
*Ana, ana... çiçəkli bir fidandır ki, içimdə*
*Ta əzəldən kök salaraq, ürəyimdə boy atmış.*

Şairin məhəbbət lirikası isə tamam bir başqa aləmdir. "Yenə o bağ olaydı", "Sevgililər", "Sənə qurban" kimi şeirlər bu gün də sevənlərin dilindən düşmür, Azərbaycan musiqisinin şah əsərlərinə söz baxımından can verir.

Mikayıl Müşfiqin "Həyat sevgisi" şeiri Azərbaycan poeziyasının ən lirik, emosional və nikbin nümunələrindən biridir. Şair bu əsərində dünyanın gözəlliyini, təbiətin möcüzələrini və yaşamağın şirinliyini sonsuz bir heyranlıqla vəsf edir:

*Ah, mən gündən-günə bu gözəlləşən*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən*
*Dostdan, aşinadan necə əl çəkim?*

*Dönmə bir şəbnəmə yaz səhərində,*
*Könül, günəş kimi parla yerində!*
*Göylərin laciverd ətəklərində*
*Gedən bu qovğadan necə əl çəkim?*

*Baxınız, dan yeri sökülmüş kimi,*
*Dostlar bir cəbhəyə tökülmüş kimi.*
*Uzaqdan-uzağa xam gümüş kimi*
*Ağaran səhradan necə əl çəkim?*

"Şahdağ", "Sabiqə", "Qaya" kimi poemalarında şair Azərbaycanın tarixi keçmişini, onun coğrafi gözəlliyini və insan xarakterinin dərinliklərini ustalıqla təsvir edirdi. Mütəxəssislərin fikrincə, onun şeirləri klassik Şərq poetik formaları ilə müasir ritmin, sərbəst vəznin mükəmməl sintezi idi. O, sanki sözlərlə şəkil çəkir, misralarla musiqi bəstələyirdi.

Ümumiyyətlə, 1920-ci illərin sonu və 1930-cu illərin əvvəllərində Müşfiq yaradıcılığının qızıl dövrünü yaşayırdı. İlk şeiri ("Bu gün") 1926-cı ildə işıq üzü görən şairin cəmi 5 il ərzində (1930-1935) 10-a yaxın kitabı nəşr olunub. M.Müşfiq böyük məharətlə A.Puşkin, M.Lermontov və Ömər Xəyyamın əsərlərini Azərbaycan dilinə çevirib.

## Qara buludlar arxasında güllələnən misralar

Mikayıl Müşfiqin həbsə qədərki ömür yolu bədii fəhmlə gənclik enerjisinin unikal bir vəhdəti idi. Bu gənc daxilində sönməz poeziya alovu ilə qısa zamanda bütün Azərbaycanın sevimlisinə çevrilirdi. Şair yeniliyi, tərəqqini tərənnüm edirdi. Lakin onun sovet quruculuğundan bəhs edən şeirlərində belə, rejim ideoloqlarının qəbul edə bilmədiyi dərin bir millilik, insani səmimiyyət və sənət azadlığı vardı. Lakin bu parlaq yaradıcılıq və xalq sevgisi daxili düşmənlərin, qısqanc qələm yoldaşlarının gözünü qamaşdırırdı. 1930-cu illərin ortalarından etibarən Müşfiqin həbsinə aparan zəmin gizli və sistemli şəkildə hazırlanmağa başladı.

Sovet rejiminin repressiya maşını hərəkətə keçməzdən əvvəl xüsusi xidmət orqanları ziyalıların daxilində parçalanma yaradır, yazıçıları bir-birinin əleyhinə qaldırırdı. Müşfiqin hər addımı izlənirdi. Onun əleyhinə başlanan kütləvi hücumlar və rəsmi çıxışlar çoxalırdı. Azərbaycan Yazıçılar İttifaqının plenumları və dövrün mətbuat orqanları şairin edam kürsüsünə çevrilmişdi. Bu insanlar sənətkarı amansızcasına ittiham edir, onu "ədəbiyyatımıza sızmış burjua millətçisi", "sovet gəncliyinin beynini zəhərləyən ziyanverici" və "əks-inqilabçı mühitlə sıx bağlı olan ünsür" adlandırırdılar. Mətbuat səhifələrində çıxan məqalələrdə Müşfiqin poetik nümunələri təhrif edilir, onun poeziyasında sovet gerçəkliyinə qarşı gizli nifrət axtarılırdı. Şair özünü müdafiə, səmimiyyətini sübut etməyə çalışsa da, əleyhinə qurulan bu repressiya teatrında onun səsi qəsdən boğulurdu. Bu böhtan kampaniyası sadəcə bir tənqid deyildi, 1937-ci il iyunun 3-də gerçələşəcək fiziki həbs qərarının cəmiyyət tərəfindən qəbul edilməsi üçün atılan son və ən qanlı addım idi.

Bir fakt xüsusi qeyd olunmalıdır ki, M.Müşfiqin faciəsi 1937-ci ilin qara buludları Bakının üzərini almamışdan xeyli əvvəl qısqanc qələm yoldaşlarının və rejim nökərlərinin "donos"ları ilə başlamışdı. Gənc şairin poetik istedadı, xalqın müsiqi aləti olan tara həsr etdiyi "Oxu, tar!" şeiri və Hüseyn Cavid, Əhməd Cavad kimi milli məfkurəli ziyalılarla olan sıx dostluğu sovet xüsusi xidmət orqanlarının (NKVD) diqqət mərkəzində idi. O, sistemli şəkildə "millətçi" və "əks-inqilabçı" ittihamları ilə mətbuatda qaralanmağa başladı.

Nəhayət, çalışdıqları oldu - 1937-ci il iyunun 3-dən 4-nə keçən gecə Müşfiqin qapısı döyüldü. Bu, onun azadlıqdakı son gecəsi idi. Evində aparılan axtarış zamanı şairin illərlə gözünün nurunu tökdüyü əlyazmaları, kitabları və şəxsi əşyaları müsadirə olundu. Həbsxananın soyuq və qaranlıq otaqlarında Müşfiqə qarşı ağılasığmaz fiziki və mənəvi işgəncələr tətbiq edildi. Məqsəd bəlli idi: gənc sənətkarı uydurma bəyanatlara qol çəkməyə və əksinqilabçı təşkilatın üzvü olduğunu etiraf etməyə məcbur etmək. Lakin Müşfiq ağır sınaqlardan keçsə də, öz mənliyini və sənətinin şərəfini qorumağı bacardı.

1938-ci il yanvarın 5-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası cəmi 20 dəqiqə çəkən qondarma bir məhkəmə iclası ilə şairin barəsində ən ağır hökm - güllələnmə qərarını çıxardı. Hökm növbəti gün - yanvarın 6-da Bakıda icra olundu. Azərbaycan poeziyasının sevilən sənətkarı cəmi 29 yaşında məhv edildi. Cəsədi isə gizlicə naməlum bir yerdə basdırıldı. Yalnız Stalinin ölümündən sonra 1956-cı ildə Mikayıl Müşfiqə rəsmən bəraət verildi.

Rejim onu fiziki olaraq məhv etsə də, xalqın qəlbindəki Müşfiq sevgisini və onun ölməz misralarını yaddaşlardan silə bilmədi. Şairin yaradıcılığı qısa bir ömrə sığışdırılmış bütöv bir ədəbi eranın təzahürü oldu. Odur ki, ölümündən onilliklər keçsə də, misraları yaşayır, gəncləşir, hər bir yeni nəslin qəlbində yenidən doğulur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Burulğan

# Gecikmiş bəraət

**Baş verdiyi vaxtdan uzun zaman keçməsinə baxmayaraq, minlərlə günahsız insanın ömrünə faciəli surətdə son qoymuş 1937-ci ilin Stalin repressiyasının yaraları qaysaq bağlamaq bilmir. Keçmiş ittifaqın ərazisində yaşayan, heç bir günahı olmayan istedadlı elm, sənət, incəsənət adamları, şair və yazıçılar, bir sözlə, xalqın seçilmişləri saxta ittihamlarla şərlənərək ya güllələnir, ya ağır cəzaya məhkum edilərək gedər-gəlməzlərə - soyuq Sibir çöllərinə, Qazaxıstan səhralarına sürgün edilirdilər.**



1937-ci ilin repressiayası keçmiş imperiyanın bir respublikası kimi ölkəmizdən də yan keçməmişdir. Xalqımızın aydınları da repressiyanın qurbanı olmuşlar. Repressiyaya məruz qalan insanların yaş həddi, elmi dərəcəsi, sənətkarlığı, xalq və dövlət üçün gərəkliliyi nəzərə alınmırdı. Demək olar ki, həbs olunanların hamısının cinayət işlərinə eyni damğa vurulurdu - "xalq düşməni".

1937-ci ilin tuthatutlarına məruz qalanlardan biri də dövrünün məşhur memarı, mühəndisi olan istedadı ilə parlayan Qəhrəman İsrafıl oğlu Məmmədovdur. O, həmişə siyasətdən uzaq gəzib-dolaşmış, işindən başqa heç kim və heç nə ilə maraqlanmamışdı. Buna baxmayaraq, hamı kimi onu da saxta ittihamla şərləyərək gedər-gəlməzə göndərmişlər.

Qəhrəman Məmmədov çoxlarına nümunə olacaq bir ömür yaşayıb. O, 1897-ci ildə Bakıda dünyaya göz açıb. 1906-cı ildə rus-türk məktəbində təhsil almağa başlayıb. Hələ kiçik yaşlarından kitablara böyük maraq göstərib. 1908-ci ildə rus-türk məktəbində təhsilini başa vurub. Elə həmin il Bakı şəhər məktəbinə üz tutub. 1914-cü ilə kimi burada oxuyub, biliklərə dərindən yiyələnib. Ürəyində qaynayıb-daşan arzularla 1914-cü ildə yüksək göstəricilərlə Bakı Texniki Məktəbinə qəbul olub. 1918-ci ildə məktəbi başa vuraraq memarlıq-tikinti ixtisası üzrə texnik rütbəsi alıb.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması hamı kimi onu da sevindirir. 1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 1919-1920-ci tədris ilində ali təhsilli mütəxəssislərin hazırlanması məqsədilə 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına xarici ali məktəblərə göndərilməsi barədə qərar qəbul edir. Bu mühüm qərarın icra olunması üçün 7 milyon manat vəsait ayrılır. Avropa ali məktəblərinə göndərilən hər bir tələbə üçün aylıq 400 frank təqaüd və 1000 frank məbləğində yol xərci müəyyən olunur.

Bu xəbəri eşidən Qəhrəman Məmmədov 1919-cu il noyabrın 15-də tələsik maarif nazirinə məktub yazır. Məktubunda Berlində memarlıq ixtisası üzrə dövlət hesabına ali təhsil almaq istədiyini bildirir. Bir müddətdən sonra nazirlikdən onun məktubuna müsbət cavab gəlir. 1919-cu il dekabrın 31-də Almaniyada təhsilini bitirdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təyin etdiyi yerdə 4 il işləyəcəyi və oxuyacağı dövlətin ərazisində heç bir siyasi partiyanın işinə qoşulmayacağı barədə dil kağızları verir. Bir həftədən sonra - 1920-ci il yanvarın 13-də Qəhrəman Məmmədova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 519 nömrəli vəsiqə təqdim olunur. Beləcə, onun xahişi yeni qurulmuş hökumət tərəfindən istədiyi kimi yerinə yetirilir. Buna ürəkdən sevinən Qəhrəman Məmmədov xaricdə təhsilini başa vurduqdan sonra xalqına, dövlətinə layiqli bir vətəndaş olacağını qət edir.

Həmin günlər xarici ölkələrdə təhsil almağa göndərilən tələbələrin bir hissəsi 1920-ci il yanvarın 14-də Parlament və Hökumət üzvlərinin, üzdə olan xeyriyyəçilərin, din xadimlərinin, ictimaiyyət nümayəndələrinin və valideynlərin iştirakı ilə Bakı Dəmiryolu vağzalından təntənəli şəkildə yola salınır. Tələbələri xarici ölkələrə aparan qatar fevralın 11-də Parisə çatır. Xaricdə təhsil almağa gedən gəncləri Fransada həmin günlər Paris Sülh Konfransında iştirak edən, dövrünün tanınmış siyasətçisi Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti qarşılayır. Əlimərdan bəy tələbələr qarşısında çıxış edərək onlara dəyərli məsləhət və nəsihətlər verir, təhsillərində uğurlar arzulayır.

Böyük arzularla Almaniyaya gələn Qəhrəman Məmmədov 1920-1924-cü illərdə Berlin Politexnik İnstitutunda, 1924-1928-ci illərdə Darmştad Politexnik İnstitutunda inşaat ixtisası üzrə ali təhsil alır. 1920-1923-cü illərdə Almaniyada Sovet Azərbaycanı Tələbələri Birliyinin, 1923-1924-cü illərdə Sovet Zaqafqaziyası Tələbələri Birliyinin sədri, 1924-1928-ci illərdə SSRİ Tələbələri Birliyinin İcraiyyə Komitəsinin üzvü olur. Təhsilini uğurla başa vuran Qəhrəman Məmmədov 1928-ci ildə vətəninə, doğmalarının yanına dönür.

Bakıya qayıtdıqdan sonra 1928-1933-cü illərdə Azərbaycan Yol-Nəqliyyat İdarəsi rəisinin müavini, 1933-1937-ci illərdə Azərbaycan Dövlət Layihə İdarəsinin direktoru olur. 1934-cü ilin martında Azərbaycan memarlarının I Qurultayını keçirmək üçün Təşkilat Komitəsi yaradılır. Təşkilat Komitəsinin sədri də Qəhrəman Məmmədov seçilir. 1936-cı ildə yaradılmış Azərbaycan Memarlar İttifaqının ilk sədri olur.

Həyatının axarlı, nizamlı gedişindən də göründüyü kimi Qəhrəman Məmmədov Almaniyada ali təhsil alıb vətənə döndükdən sonra ölkəsinin, xalqının inkişafı üçün böyük fəallıqla çalışır. Azərbaycanın tərəqqisi naminə memar-mühəndis kimi biliyini, savadını və təcrübəsini əsirgəmir. Yeni-yeni uğurlar qazanmaq üçün müvafiq planlar, layihələr hazırlayır. Amma Azərbaycanda çox sərt və amansız şəkildə davam edən, cəmiyyətin başının üstündən Domokl qılıncı kimi asılmış Stalin repressiyası bacarıqlı memara layihələrini həyata keçirməyə imkan vermir.

Tanınmış memar Qəhrəman Məmmədov 1938-ci avqustun 11-də uydurma ittihamla həbs olunur. İnsanlara qənim kəsilmiş rejim onu əks-inqilabi millətçi təşkilata üzv olmaqda ittiham edir. O, ağlabatmayan, reallıqdan uzaq olan saxta ittihamların hamısını qəti şəkildə rədd edir. Amma onun ittihamları rədd etməyi heç nəyi dəyişmir. SSRİ Özəl Müşavirəsinin 1939-cu il 21 iyun tarixli qərarı ilə Qəhrəman Məmmədov antisovet millətçi təşkilatda iştirakına görə müddəti 1938-ci il avqustun 11-dən hesablanmaqla 5 illiyə islah-əmək düşərgəsində cəza çəkməyə məhkum edilir.

Heç bir hüquqi əsası olmayan hökm çıxar-çıxmaz Qəhrəman Məmmədovu vətəndən uzaqda yerləşən islah-əmək düşərgəsinə göndərirlər. O, 1943-cü il avqustun 14-nə qədər cəzasını çəkib qurtarır. Bundan sonra isə düşərgədə sərbəst muzdlu işə saxlanılır. Bir müddətdən sonra yaşamaq üçün o, Komi MSSR-in Vojael qəsəbəsinə göndərilir.

Görkəmli memarın ömrünün son çağları qürbətdə əzablar içində keçir. O doğma vətəninə dönmək həsrəti və istəyi ilə yaşayıb. Amma həmin illərdə cəmiyyətə ölüm püskürən Stalin rejimi ona doğmalarının, əzizlərinin yanına dönməyə imkan verməyib. Həmişə gözləri yolda, qulağı səsdə qalan Qəhrəman Məmmədov 1949-cu il martın 4-də Türkmənistan SSR-nin Çarcou şəhərində Vətən həsrətiylə gözlərini əbədi olaraq yumub.

Ölümündən 7 il keçəndən sonra - 1956-cı il dekabrın 4-də araşdırmalar zamanı 1938-ci ildə Qəhrəman Məmmədova qarşı irəli sürülmüş ittihamların əsassız olduğu müəyyən edilir. Hökm əsassız olduğuna görə ona bəraət verilir. Gecikmiş bu bəraət isə heç nəyi geri qaytarmadı. Ancaq və ancaq yaxınlarına, doğmalarına təsəlli oldu.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Tarixin izi ilə

# Bir şəklin tarixçəsi

## və ya ermənipərəst bolşeviklərin cinayətləri

**İstefada olan polis polkovniki Sadıq Zeynaloğlunun 2001-ci ildə nəşr edilmiş "Tarixin qan yaddaşı" kitabının üz qabığında, eləcə də əsərin 181-ci səhifəsində bu fotodakı adamlar "Keçili bandası" kimi təqdim olunur. Dəstənin 5 dekabr 1930-cu ildə Şəmkir rayonunda tutulduğu bildirilir. Guya onlar Naxçıvan MR Şahbuz rayonunun Keçili kəndinin sakinləridir, sovetləşməyə qarşı çıxır, kolxoz quruculuğuna ciddi mane olur, yeni quruluşa qarşı əks-inqilabi təbliğat aparırlar və s.**

S.Zeynaloğlunun araşdırmalarına görə, yeni quruluşu qəbul etmək istəməyən Keçili kəndinin bəzi sakinlərini erməniəsilli NKVD-çilərin əlinə girəvə düşübmüş kimi üsyana hazırlaşırlar adı ilə yerli-yersiz həbs edir, güllələyir və ya sürgünə göndərirdilər. Hətta kənd əhalisinin əksər hissəsini məhv etmək, repressiyaya məruz qoymağa əsas yaransın deyə, kəndin yaxınlığında öldürülən iki milis işçisinin qətlini də Keçili camaatının üzərinə yıxırdılar.

Azərbaycan Dövlət Siyasi İdarəsində müxtəlif məsul vəzifələrdə çalışmış, idarənin 2-ci şöbəsinin rəisi vəzifəsinədək yüksəlmiş qatı "Daşnaksütyun"çu Orbelyan Keçilidə 80 qocanı zorla üsyançılar hərəkatının iştirakçısı adlandıraraq şəxsən güllələyir. Daha sonra "Keçili işi"nə görə xeyli əhalinin güllələnməsinə, repressiya olunmasına, əmlakı müsadirə edilməklə Sibirə və Qazaxıstan çöllərinə göndərilməsinə nail olur. Rejimin haqsızlığından və özbaşınalığından bezən onlarca kəndli ailəsi İrana qaçır və bir daha geri dönmür. QPU əməkdaşlarının sözünə inanıb geri qayıdanların isə bəziləri güllələnir, bəziləri repressiya edilir, bəziləri də Salovkiyə, Baltik kanalının tikintisinə göndərilirlər.

NKVD işçilərinin etdikləri fırıldaqların üstü elə rəsmi arxiv sənədlərinin dili ilə də açılır. "Tarixin qan yaddaşı" (Bakı, 2001) kitabında "Naxçıvan MR Daxili İşlər komissarı Aydəmirovun Xalq Daxili İşlər komissarlığının Şahbuz rayon şöbəsinin rəisinə göndərdiyi sorğu-məktubundan: "...1939-cu ilədək Naxçıvanda işləmiş Eynullayev və Qəmbərov həmin il Keçili kəndində banditlər tərəfindən öldürülmüşlər. İkinci dəfə bizim məlumatımızın doğruluğunu Keçili və Kükü kəndlərindən olan şəxslərdən sorğu yolu ilə yoxlamağı və 3 gün ərzində bütün materialları bizə göndərməyinizi xahiş edirik. Sorğulara cavab verməzdən əvvəl onun doğruluğuna inanmağı, iki dəfə yoxlamağı və sonra həqiqəti yazmağı məsləhət görürük". NKVD-nin Şahbuz rayon şöbəsinin rəisi Rəhimbəyov cavab məktubunda yazır: "Siz 1930-cu ildə banditizmə qarşı mübarizə vaxtı vətəndaş Eynullayev İsmayılın öldürülməsi barədə düzgün məlumat verməyimiz barədə sorğu istəmişdiniz. Bildiririk ki, Eynullayev İsmayılı heç kim tanımır və Şahbuz rayonu üzrə bizə belə bir adam məlum deyil".




Bunlar ermənilərlə əlbir olub azərbaycanlıların qanına susayan NKVD işçilərinin özlərinin etiraf etdikləri cinayətlərin bəlkə də yüzdən biridir. O vaxtlar çoxlarının rejimin qorxusundan açıq deyə bilmədikləri bir həqiqət məlumdur: daşnaklarla əlbir işləyən erməniəsilli NKVD-çilər Azərbaycan türklərinə qarşı soyqırımı həyata keçirməklə, həm də onları aldadıb varını, dövlətini əlindən almaqla məşğul olublar.

Şəkildə şahbuzlu NKVD-çilərin "Keçili bandası" adlandırdıqları bu adamlar Şəmkir rayonu Qaracəmirli kəndinin sakinləri və qaçaqlardır. Onların heç birinin Şahbuz rayonundakı Keçili kəndi və ya o vaxt orada cərəyan edən hadisələrlə əlaqəsi olmayıb. Şəklin əsli bu gün də Qaracəmirli kənd qəbiristanlığında Alqoca bəyin məzarüstü daşındadır (şəklin üzərində qeyd olunduğu kimi, birinci cərgədə, dizi üstə dayananlar: soldan-sağa 1.Adı məlum deyil, 2.Gürcü, 3.Alqoca bəy. 4.Abdullaları İsası. 5.Polad. 6.İsgəndər. İkinci cərgədə, arxada, soldan sağa - 7.Adı məlum deyil. 8.Yaqub. 9.Vəli. 10.Mustafa. 11 və 12-cilərin adları məlum deyil).

Şəkil bu sətirlərin müəllifinin Şəmkir qaçaqlarından bəhs edən "Ramazan oğulları" (Bakı, 2015) kitabında da yer alıb. Digər tərəfdən, şəkildəkilərin nəvə-nəticələri, bir sözlə, nəsil davamçıları indinin özündə də Qaracəmirli kəndində, Bakıda, habelə respublikamızın digər şəhər və rayonlarında yaşayırlar.

Sual olunur: görəsən, NKVD işçilərinin məqsədi nə imiş ki, Şəmkir qaçaqları əks olunan bu şəkli hansı yollasa əldə edib Naxçıvanda Şahbuz rayonunun Keçili kəndinin banditləri kimi cinayət işinə əlavə ediblər?

Repressiya qurbanlarının acınacaqlı həyat və fəaliyyəti ilə tanışlıqdan, bu kimi faktlardan və yaddaşlarda yaşayan xatirələrdən məlum olur ki, ötən əsrin 20-30-cu illərində bolşevik məmurları ermənilərin vasitəsilə əhalini sürgün, güllələnmə, həbsxana adı ilə qorxudub pulunu, varını-dövlətini mənimsəyirdilər. Məsələn, Şahbuz rayonunun Keçili kəndindən kütləvi şəkildə həbs olunan "əks-inqilabçılar"dan - erməni NKVD-çilərə minnətçi düşənlərdən Şəmkirdən apardıqları şəkildəkilərin sayı qədər adamlardan pul, qızıl, xalı-xalça və s. alıb "Get, bir də gözə görünmə!" deyib aradan çıxarırdılar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Şəmkirdə Milli Qəhrəman İsgəndər Aznaurovun 70 illik yubileyi qeyd olunub

Şəmkirdə Azərbaycanın Milli Qəhrəmanı şəhid İsgəndər Aznaurovun anadan olmasının 70 illiyinə həsr olunmuş anım tədbiri keçirilib.



Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızın xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Şəmkir Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Süleyman Zeynallı, Türkiyə Respublikasının Gəncədəki baş konsulu Recep Öztop, Dünya Ahıska Türkləri Birliyinin baş katibi Fuat Uçar, eləcə də Milli Qəhrəmanın ailə üzvləri və döyüş yoldaşları çıxış edərək İsgəndər Aznaurovun şərəfli həyat və döyüş yolundan, Vətən qarşısında göstərdiyi xidmətlərdən danışmışlar. Qeyd olunmuşdur ki, İsgəndər Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara vilayətində anadan olmuşdur. 1980-ci illərin sonlarında Fərqanə hadisələrindən sonra bir çox ahıska türkü kimi onun da ailəsi Azərbaycana pənah gətirmiş və Şəmkirin Kür qəsəbəsində məskunlaşmışdır. 1992-ci ildən Azərbaycan Ordusunda könüllü olaraq zabit kimi xidmət edən İsgəndər Aznaurov Gədəbəy rayonunun Şınıx bölgəsində erməni silahlı dəstələrinə qarşı döyüşlərdə iştirak etmiş, strateji yüksəkliklərin müdafiəsi zamanı şücaət göstərmişdir.

1993-cü ilin baharında şəhid olan İsgəndər Aznaurova Heydər Əliyevin sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilmişdir. Bu gün qəhrəmanın adını yaşayış məntəqəsi, küçə və məktəb daşıyır. Vaxtilə döyüşdüyü səngər isə qəhrəmanın xatirəsinə "İsgəndər qalası" adlanır.

Sonda Kür qəsəbəsində onun adını daşıyan məktəbin şagirdləri Milli Qəhrəmanın həyat və döyüş yolundan, Vətən uğrunda göstərdiyi qəhrəmanlıqlardan bəhs edən şeirlər və mahnılar səsləndirmiş, səhnəciklər göstərmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Naftalanda şəhid övladlarının ad günləri



Vətən müharibəsində igidliklə döyüşərək şəhidlik zirvəsinə yüksələnlər arasında Bəhruz Quliyev və Fərid Adıgözəlov da var. Digər şəhidlərimiz kimi, onların da ailələri dövlətimizin daim diqqət mərkəzindədir.

Elə bu günlər Bəhruz Quliyevin qızı Elayın 12 və Fərid Adıgözəlovun qızı Gülsurənin 6 yaşı tamam olmuşdur. Şəhər icra hakimiyyətinin məsul əməkdaşları bu münasibətlə şəhid övladlarının ad günündə iştirak etmişlər. Şəhidlərin ailə üzvləri diqqət və qayğı ilə əhatə olunduqları üçün minnətdarlıqlarını bildirmişlər.

***Sabir YUNİSOĞLU,***
***"Azərbaycan"***



# Həmkarlar ittifaqları üzvləri üçün növbəti tibbi aksiya keçirilib






**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) "Görməyə dəyər" sosial layihəsi çərçivəsində növbəti tibbi müayinə "Referans Medical Group"un tərəfdaşlığı ilə "Abşeron" sağlamlıq və istirahət mərkəzində təşkil olunub.**

Həmkarlar ittifaqlarının mərkəzdə istirahət edən və müalicə kursu keçən 67 üzvünün həkim-oftalmoloq tərəfindən ödənişsiz göz müayinəsi aparılıb.

Müayinə zamanı görmə qabiliyyətində problem aşkarlanan şəxslərə həkimlər tərəfindən zəruri tibbi məsləhətlər verilib və müvafiq müalicə kursları təyin olunub.

Qeyd edək ki, vətəndaşların sağlamlığının qorunmasına və xəstəliklərin erkən aşkarlanmasına xidmət edən "Görməyə dəyər" sosial layihəsi çərçivəsində keçirilən tibbi müayinələr indiyədək 370-ə yaxın şəxsi əhatə edib.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Daşkəsəndə Qərbi Azərbaycandan olan qocaman icma üzvləri ilə görüş

Qərbi Azərbaycan İcmasının Daşkəsən rayon nümayəndəliyi icmanın qocaman üzvləri - 1939-cu ildə Amasiyanın Güllübulaq kəndində anadan olan Ələkbər Mahmudov və onun həyat yoldaşı, 1948-ci ildə Basarkeçərin Zod kəndində anadan olan Əməkdar müəllim Duman Mahmudova ilə görüş keçirmişdir.



Görüş zamanı Mahmudovlar doğma yurdları, orada keçirdikləri uşaqlıq illəri, eləcə də ailələrinin üzləşdiyi deportasiya hadisələri barədə xatirələrini bölüşmüşlər. Qeyd edilmişdir ki, Ələkbər Mahmudovun ailəsi 1950-ci ildə, Duman Mahmudovanın ailəsi isə 1948-ci ildə doğma yurdlarından deportasiya olunmuşlar. Onların söylədikləri xatirələr Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların tarixi keçmişini, adət-ənənələrini və yurd həsrətini göstərirdi.

Qərbi Azərbaycan İcmasının Daşkəsən rayon nümayəndəliyinin sədri Malik Ələsgərov Mahmudovlara icmanın döş nişanı və üzvlük vəsiqəsini təqdim etmişdir. Sədr qocaman icma üzvlərinə göstərdikləri fəallığa, milli yaddaşımızın qorunmasına verdikləri töhfəyə görə təşəkkürünü bildirmiş, onlara möhkəm cansağlığı və uzun ömür arzulamışdır. Mahmudovlar isə göstərilən diqqət və qayğıdan məmnunluqlarını ifadə etmiş, Qərbi Azərbaycan həqiqətlərinin gənc nəslə çatdırılmasının vacibliyini vurğulamışlar.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## BEYNƏLXALQ HƏYAT

# Keniyada helikopter qəzasında Ekvadorun kəşfiyyat rəisi və 5 amerikalı həlak olub

Keniyada baş verən helikopter qəzasında Ekvadorun kəşfiyyat rəisi və həyat yoldaşı, habelə ABŞ-nin 5 vətəndaşı həlak olub. Qəza yerli vaxtla səhər saat 9:13-də baş verib. Təyyarədə olanların heç biri sağ qalmayıb.



ABŞ Dövlət Departamentinin Mətbuat xidməti həlak olan 5 nəfərin amerikalı olduğunu təsdiqləyib. Onların adları hələ açıqlanmayıb.

Helikopter Keniyanın mərkəzindəki məşhur turizm məkanı olan Ololokve dağının yaxınlığında qəzaya uğrayıb. Onun yerləşdiyi Samburu rayonu çoxsaylı özəl qoruqları və heyrətamiz mənzərələri olan məşhur turizm bölgəsidir.

Keniya Qırmızı Xaç Cəmiyyəti BBC-yə bildirib ki, vertolyot çətin relyefli ərazidə qəzaya uğrayıb və bu səbəbdən qəza yeri əvvəlcə dronlar vasitəsilə araşdırılıb.

Keniyada vertolyot qəzaları tez-tez baş verir. Ən son, fevral ayında baş verən qəzada ölkə parlamentinin üzvü də daxil olmaqla 6 nəfər həlak olmuşdu. 2024-cü ildə Keniya ordusunun komandanı general Fransis Omondi Oqolla da vertolyot qəzasında həyatını itirib. Helikopterdəki 11 nəfərdən yalnız 2-si sağ qalıb. 2021-ci ilin iyun ayında Keniyanın paytaxtı Nayrobi yaxınlığında baş verən helikopter qəzasında isə 10 əsgər həlak olmuşdu.

# ABŞ Beynəlxalq Cinayət Məhkəməsinin sədrinə qarşı sanksiyalar tətbiq edib

ABŞ Dövlət katibi Marko Rubio Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) sədri, yaponiyalı Tomoko Akane və təşkilatın baş hüquq ekspertlərindən biri, seneqallı Abdulaye Seyeyə qarşı sanksiyalar tətbiq olunduğunu açıqlayıb.

Rubio bildirib ki, ABŞ Akane və Seyeyə qarşı "BCM-in yurisdiksiyasına razılıq verməyən hökumətlərin vəzifəli şəxslərini təqib etmək" səylərində iştirakına görə sanksiyalar tətbiq edir. ABŞ Dövlət katibi BCM-i "səlahiyyətlərindən sui-istifadə edən və mandatını aşan korrupsiyalaşmış və ümidsiz dərəcədə siyasiləşmiş millətlərarası məhkəmə" olmaqda günahlandırıb. "Biz onun milli suverenliyə qəsd etməsinə dözməyəcəyik", - M.Rubio deyib.



Bu addım Donald Tramp Administrasiyasının 120-dən çox üzv ölkə tərəfindən müharibə cinayətlərini araşdırmaq səlahiyyəti verilmiş məhkəməni "ləğv etmək" kampaniyasının növbəti eskalasiyasıdır. Buna baxmayaraq, nə Prezident D.Tramp, nə də Ağ Ev hələlik yeni sanksiyalarla bağlı şərh verib.

Tramp administrasiyası artıq 9 hakim və baş prokuror da daxil olmaqla, Beynəlxalq Cinayət Məhkəməsinin ən azı 11 rəsmisinə sanksiyalar tətbiq edib. Sanksiyalara aktivlərin dondurulması, səfər qadağaları və Amerika şirkətləri tərəfindən xidmətlərin göstərilməsinə məhdudiyyətlər daxildir. Bu tədbirlər BCM-in Əfqanıstandakı Amerika qoşunları ilə bağlı araşdırmalarına, eləcə də məhkəmənin Qəzzada müharibə cinayətləri ilə bağlı Baş nazir Benyamin Netanyahu da daxil olmaqla, yüksəkvəzifəli İsrail rəsmilərinə qarşı verdiyi orderlərə cavab olaraq tətbiq edilib.

Avropa İttifaqı üzvü olan 27 ölkənin hamısı BCM-in fəaliyyətində iştirak edir. Lakin məhkəmənin İsrailin Baş naziri Benyamin Netanyahuya qarşı həbs qərarı Avropa rəsmilərinin qarışıq reaksiyasına səbəb olub. Fransa, Almaniya və İtaliya da daxil olmaqla, bir neçə ölkə onun barəsində verilmiş orderi icra etməkdən imtina edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Avropa meşə yanğınları ilə mübarizədə peyk texnologiyalarından istifadə edir

Avropada artan meşə yanğınları ilə mübarizədə peyk texnologiyalarından istifadə gücləndirilir. Kosmosdan alınan görüntülər və məlumatlar yanğınların erkən mərhələdə aşkarlanmasına və zərərin xəritələşdirilməsinə kömək edir.



"Politico"nun məlumatına görə, Yunanıstan yanğınları anbaan izləmək üçün "Hellenic Fire System" adlı milli peyk sistemini işə salıb. Bu sistemdəki peyklər infraqırmızı görüntüləmə sayəsində yanğın nöqtələrini və istilik enerjisini dərhal aşkar edir. Eyni zamanda Avropa Komissiyası və Avropa Kosmos Agentliyi fövqəladə hallarla mübarizəni daha sürətli və effektiv etmək üçün peyk məlumatlarını gücləndirən yeni layihələr həyata keçirirlər.

# Şəkərli içkilərin mədə xərçəngi riskini artırdığı müəyyən edilib

Yeni bir araşdırma hər gün şəkərli içkilər içən insanların mədə xərçənginə tutulma riskinin digərlərinə nisbətən iki dəfə çox olduğunu üzə çıxarıb.



"The İndependent" nəşrinin məlumatına görə, məlum olub ki, gündə ən az bir porsiya şəkərli içki qəbul edənlərdə bu risk ayda onu bir porsiyadan az içənlərlə müqayisədə iki dəfə yüksəkdir. Qadınlarda isə gündə bir porsiyadan çox şəkərli içki istehlakı xəstəlik riskini, demək olar ki, üç dəfə artırır. Bununla belə, araşdırma süni dadlandırıcılı, aşağı kalorili qazlı içkilərin mədə xərçənginin artması ilə əlaqəli olmadığını üzə çıxarıb.

# Afrikanın inkişafı üçün təhlükəsizlik və sərmayə lazımdır

Fildişi Sahillilər Cəmiyyətinin rəhbəri Soumaila Adams Kone və İslam Əməkdaşlıq Gənclər Forumunun mütəxəssisi Faruk Mintoiba "Dünya İnsani Yardım Günü" ilə bağlı açıqlama veriblər. Mütəxəssislər Afrikadakı böhranlar üçün təcili yardımın vacib olduğunu, lakin qitənin inkişafı üçün uzunmüddətli addımların atılmalı olduğunu bildiriblər.



"Anadolu" Agentliyi xəbər verir ki, Afrika ölkələrində inkişafın təmin edilməsi üçün ilk növbədə təhlükəsizlik olmalıdır, çünki təhlükəsizlik olmadan təhsil, səhiyyə, kənd təsərrüfatı və infrastruktur inkişaf edə bilməz. Təhlükəsizlikdən sonra əhaliyə praktiki peşə təhsili verilməli, xammal başqa yerlərə daşınmaq əvəzinə, elə Afrikanın özündə emal edilərək dəyərli məhsula çevrilməlidir. Beləliklə, qitə daimi yardımlara möhtac qalmayacaq, bunun əvəzinə, kənd təsərrüfatı, texnologiya, yerli səhiyyə və təhsil sistemləri gücləndirilərək öz insan resursları ilə inkişaf edəcək.

# Yüksək dozada D vitamini yaddaşı gücləndirə bilər

Emori Universitetinin "Sleep Medicine" jurnalında dərc olunan yeni araşdırmasına görə, gündəlik D vitamini qəbul etmək yuxu pozğunluğu və yüngül idrak zəifliyi olan yaşlılarda beyin fəaliyyətini gücləndirə bilər.



Yuxu problemi və yüngül idrak zəifliyi olan 54 yetkin şəxs üzərində aparılan araşdırmada məlum olub ki, gündə D vitamini qəbul edənlər bu əlavəni qəbul etməyənlərlə müqayisədə Montreal İdrak Qiymətləndirmə testində 13 faizdən çox yüksək bal toplayıblar. Daha aşağı gündəlik doza qəbul edənlərdə isə belə bir nəticə qeydə alınmayıb. Yüngül idrak zəifliyi normal yaşlanma ilə demensiya arasındakı keçid mərhələsidir. Tədqiqatçılar bu dövrün beyin sağlamlığını qorumaq və koqnitiv dəyişikliklərin qarşısını almaq üçün ciddi bir pəncərə olduğunu vurğulayırlar.

Tədqiqat nəticəsində məlum olub ki, idrak göstəricilərindəki yaxşılaşma D vitamininin mənbəyindən asılı olmayaraq eyni olub. Mütəxəssislər D vitamininin əzələ və sinir funksiyaları ilə yanaşı, yuxu keyfiyyətinə və yuxu-oyanıqlıq dövrlərinə də təsir etdiyini bildiriblər. Alzheymer xəstələrinin təxminən yarısında yuxu pozğunluqlarının olması yuxusuzluq və idrak zəifliyi arasında qarşılıqlı əlaqənin olduğunu göstərir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3316
Sifariş 1068
Qiyməti 60 qəpik